ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELM VƏ TƏHSİL TƏDQİQATLARI RESPUBLİKA ELMİ KONFRANSI

# ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION RESPUBLICAN SCIENTIFIC CONFERENCE

SCIENTIFIC RESEARCH Special issue of the International Scientific Journal

Bakı, Azərbaycan
30 aprel 2026

# ELM VƏ TƏHSİL TƏDQİQATLARI RESPUBLİKA ELMİ KONFRANSI
## ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

# RESEARCH IN SCIENCE AND EDUCATION RESPUBLICAN SCIENTIFIC CONFERENCE
## SCIENTIFIC RESEARCH Special issue of the International Scientific Journal

**30 aprel 2026**

## Beynəlxalq indekslər / International Indices

ISSN: 3104-4670
e-ISSN: 2789-6919
DOI: 10.36719

© Jurnalda ç ap olunan materiallardanistifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© tedqiqat.rek@aem.az
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Sədr müavinləri**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə

**Məsul katib**

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**ÜZVLƏR**

**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan

**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Leyla VƏZİROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ

**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya

**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan

**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya

**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti Azərbaycan

**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan

**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

# THE ORGANIZING COMMITTEE

## Chairman

**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan

## Deputy chairmen

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center/ Azerbaijan

**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey

## Executive secretary

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y.H.Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Leyla VAZIROVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan

**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Xəyyam İsmayılzadə**
Bakı Dövlət Universiteti
siyasi elmlər üzrə fəlsəfə doktoru
https://orcid.orq/0009-0001-1648-6549
ekonika22@yahoo.com

## ABŞ və ÇXR münasibətlərində nüvə məsələsinə baxış

***Açar sözlər:*** *ABŞ, ÇXR, İran İslam Respublikası, BMT Baş Assambleyası, qətnamə, sanksiya*
***Keywords:*** *US, PRC, Islamic Republic of Iran, UN General Assembly, resolution, sanctions*

XX əsrin əvvəlindən başlayaraq dünyada baş verən elm və texnologiyanın inkişafı və atom sənayesində aparılan tədqiqatlar nəticəsində böyük ərazilərin yox edilməsi və milyonlarla insanın ölümünə səbəb olan nüvə silahı texnologiyasında irəliləyişlər olmuşdur. Nüvə silahlarının bəşəriyyətə verəcəyi zərəri və gücünü bütün dünya ilk dəfə ABŞ-ın 1945-ci ildə Yaponiyanın Hiroşima və Naqasaki şəhərlərinə atdığı atom bombaları ilə görmüşdür. Soyuq müharibə dövründə güclərini sübut etmək məqsədilə nüvə silahlarının inkişafı ölkələr arasında silahlanma yarışına sövq etmişdir. İran da, öz növbəsində, 1950-ci illərin sonlarından etibarən bu yarışa daxil olan ölkələrdən biri olmuşdur.

1946-cı ildə BMT Baş Assambleyasında nüvə silahlarının yayılmaması məqsədilə vacib qərarlar qəbul etmiş və bu

istiqamətdə işlər aparmaq üçün Komissiya yaratmışdır. Görülən işlər çərçivəsində BMT-nin nüvə silahlarının yayılmaması istiqamətində apardığı fəaliyyət nəticəsində bir çox müqavilə imzalanmışdır ki, bunların da ən əhəmiyyətlisi, 1968-ci ildə imzalanmış və 1970-ci ildə qüvvəyə minmiş Nüvə Silahlarının Yayılmasının Qarşısının Alınması Müqaviləsidir (Treaty on the Non-Proliferation of Nuclear Weapons-NPT). Müqavilənin məqsədi dünya ölkələri arasında nüvə silahı texnologiyasının yayılmasının qarşısını almaq, nüvə enerjisinin dinc məqsədlər üçün istifadəsi üçün nəzərdə tutulan əməkdaşlığı inkişaf etdirmək və perspektivdə nüvə silahsızlaşdırılmasını təmin etməkdir (Feng, 2012).

BMT-nin bu müqaviləsini nüvə silahına sahib olan dövlətlər- beş ölkə (ABŞ, Çin, Fransa, İngiltərə, Rusiya) daxil olmaqla, ümumilikdə, 191 ölkə imzalamışdır. İran müqaviləni 1968-ci ildə imzalamış, 1970-ci ildə təsdiqləmişdir. Bundan xeyli əvvəl, İranın nüvə silahı texnologiyasının inkişafını qısaca araşdırmaq faydalı olacaqdır.

1953-cü ildə ABŞ Prezidenti Duayt D. Eyzenhauer BMT Baş Assambleyasındakı çıxışında Nüvə texnologiyasından dinc məqsədlərlə istifadə olunması məqsədilə Barış üçün Atom (Atoms for Peace – AFP) proqramından bəhs etmişdir. Soyuq müharibə dövründə ABŞ ilə yaxın münasibətlərə malik olan İran İslam Respublikası 1957-ci ildə bu proqramı qəbul edərək, nüvə silahı istehsal etməyəcəyini, yalnız "dinc" nüvə araşdırmaları aparacağını öhdəsinə götürmüş və ABŞ da, öz növbəsində, proqram çərçivəsində İrana nüvə reaktorunda istifadə olunacaq yanacağın verilməsini təmin etmişdir (Kerr, 2012).

Qeyd edildiyi kimi, İran BMT-nin Nüvə Silahlarının Yayılmasının Qarşısının Alınması Müqaviləsini (Treaty on the Non-Proliferation of Nuclear Weapons-NPT) 1968-ci ildə imzalayandan sonra, 1974-cü ildə Yaxın Şərqdə nüvə

silahlarından azad zona yaradılması təklifi ilə BMT-yə müraciət etmişdir. Buna baxmayaraq, 1970-ci illərin ortalarında ABŞ kəşfiyyat hesabatlarında İranın nüvə silahı proqramını həyata keçirməsi ilə bağlı narahatlıqlar ifadə olunmuşdur.

1979-cu ildə baş verən İran İslam İnqilabı nüvə silahları sahəsində əməkdaşlıqda yeni bir dönüş nöqtəsi olmuşdur. ABŞ-ın İrana nüvə enerjisi sahəsində yardımı 50-ci illərdən 1979-cu ilə qədər davam etmiş, İslam İnqilabından sonra isə bu əməkdaşlıq dayandırılmışdır. 1979-cu ildə nüvə layihələrinin dayandırılmasını bəyan edən İran 1982-ci ildə nüvə proqramını yenidən başladığını elan etmişdir.

1985-ci ildə çap olunmuş ABŞ-ın Milli Kəşfiyyat Şurasının hesabatında İranın nüvə silahlarından istifadə edə biləcək materialların istehsalına maraq göstərdiyi qeyd edilmiş, növbəti on ildəki hesabatda isə artıq xarici dəstək alacağı təqdirdə, İranın təxminən on il ərzində nüvə silahı istehsal edəcəyi bildirilmişdir.

1980-ci illərin ortalarında ABŞ İranı terrorçu dövlətlər siyahısına daxil edərək iqtisadi sanksiyalar tətbiq etməyə başladı. Bu sanksiyalar 1987-ci ildə İrandan neft alınmasının qadağan edilməsi ilə başlanmış və bir müddət sonra digər məhsulları da əhatə etmişdir (Ünver, 2005).

1982-ci ildə nüvə proqramını yenidən başladan İran Qərb dövlətlərindən dəstək ala bilmədiyi üçün Çin, Rusiya və Şimali Koreyaya müraciət etmişdir. 1980–1988-ci illər arasında baş verən İran–İraq müharibəsi dövründə, İran nüvə enerjisi sahəsində ÇXR ilə əməkdaşlığı artırmış, eyni zamanda, hərbi gücünü inkişaf etdirmək üçün Şimali Koreyadan raket texnologiyası əldə etmişdir.

XX əsrin 90-cı illərində Sovet İttifaqının süqut etməsindən sonra Rusiya Federasiyası nüvə istiqamətində İranla əməkdaşlıq etməyə başlamış, nüvə reaktorunun tikintisinə yardım etmiş və texniki dəstəklə təmin etmişdir (Friedland, 2006).

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

ÇXR və İİR-nın bir-birilərinə yaxınlaşmasının səbəbi, hər iki ölkənin ABŞ və Sovet İttifaqına qarşı olan inamsızlığı idi. Bu faktorlarla yanaşı, dünya hegemoniyasına qarşı, çoxqütblü dünya düzəninin formalaşması və inkişaf etməkdə olan ölkələrə dəstək vermək həmrəyliyi də iki ölkəni yaxınlaşdırırdı. Bundan əlavə, ÇXR İran ilə hərtərəfli münasibətləri inkişaf etdirmək, geostrateji baxımdan regiona ABŞ-dan daha çox təsir etməyi gücləndirmək niyyətini güdürdü. Eyni zamanda, İran ÇXR üçün silah ixracatı istiqamətində vacib bazar rolunu oynayırdı.

İran İslam Respublikasının dünyanın ikinci ən böyük neft ehtiyatlarına sahib olması, Çinin inkişaf etməkdə olan və enerjiyə ehtiyacı artan bir ölkəyə çevrilməsi istər-istəməz, ÇXR-nı İran üçün daha da strateji əhəmiyyətli edirdi. 1971-ci ildə iki ölkə arasında diplomatik münasibətlər qurulduqdan sonra, İran–İraq müharibəsi dövründə də Çin İranın ən böyük silah təminatçılarından biri olmuşdur (Fite, 2012).

2002-ci ildə ABŞ İranı "şər oxu"nun bir parçası elan etdikdən sonra, buna cavab olaraq Çin Prezidenti Jiang Zemin, ABŞ Prezidentinin çıxışından iki ay sonra İran ilə həmrəyliyi nümayiş etdirmək məqsədilə Tehrana rəsmi səfər etmişdir. Həmin ilin iyul ayında İranın uranı zənginləşdirmək proqramı üzə çıxdıqdan sonra ABŞ və digər Qərb ölkələri İİR ilə bir çox layihələri dayandırmış, bu da ÇXR şirkətlərinin İran ilə əlaqələrini daha da gücləndirmək üçün geniş imkanlar yaratmışdır. 2004-cü ildə ÇXR və ərəb ölkələri Çin–Ərəb Əməkdaşlıq Forumunu yaratmışdır. Bu tarixdən etibarən Çin və İran münasibətləri sabit şəkildə inkişaf etməyə davam etmişdir.

2004-cü ildə ABŞ bəzi Çin şirkətlərinə İrana nüvə texnologiyası təmin etdikləri üçün sanksiyalar tətbiq etmişdir. Bununla kifayətlənməyərək Çin firmalarına İrana kimyəvi silahları çatdırdıqları və gizli transferləri etdikləri üçün sanksiyalar da tətbiq olunmuşdur. 2007 və 2008-ci illərdəki

tətbiq olunan bu sanksiyalar əsasən, kütləvi qırğın silahlarının yayılmasının qarşısını almağa yönəlmişdir.

İran İslam Respublikasına tətbiq olunan sanksiyalar çərçivəsində Çin iki istiqamətdə fəaliyyət göstərirdi. Bir tərəfdən, İranın gizli nüvə fəaliyyətinə tətbiq olunan sanksiyaları dəstəkləmiş, digər tərəfdən isə İran ilə iqtisadi əlaqələri daha da inkişaf etdirmiş və bu iki siyasət arasında balans yaratmağa çalışmışdır.

2010-cu ilin iyun ayında ABŞ Prezidenti B.Obama və ÇXR lideri Hu Jintao Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizlik Zirvəsində görüşmüşlər. Görüş zamanı nüvə silahlarının yayılmasının qarşısının alınması istiqamətində ABŞ ilə ortaq bir mövqedə olması ifadə edilmiş, lakin enerji sektorunda tətbiq olunan sərt sanksiyalara qarşı olduqları xüsusilə vurğulanmışdır.

Göründüyü kimi, ÇXR–İİR münasibətlərinin güclənməsi və inkişaf etdirilməsi nəticəsində Çin İrana silah satmış, nüvə enerjisinin inkişafı üçün yardım etmiş və İrandan neft almağa davam etmişdir. Nəticə olaraq, BMT-nin tətbiq etdiyi sanksiyalara baxmayaraq, ÇXR ilə İİR arasındakı münasibətlərin güclənməsi və Yaxın Şərqdə getdikcə artan təsiri ABŞ-ı narahat etməyə bilməz. Məhz buna görə də ÇXR BMT-nin İranın nüvə silahı proqramını qadağan edən qərarları və sanksiyaları dəstəkləsə də, problemin sanksiyalar ilə deyil, yalnız danışıqlar yolu ilə həll olunmasının tərəfdarı olduqlarını bildirmişdir.

## Ədəbiyyat

1. Feng, Z. (2012). *Shifting Tides and China's Nuclear Policy*.
2. Friedland, E. (2006). *Fact Sheet: The Iranian Nuclear Program*. The Clarion Project.
3. Fite, B. (2012). *U.S. and Iranian Strategic Competition: The Impact of China*. CSIS.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

4. Kerr, P.K. (2012). *Iran's Nuclear Program: Status*. CRS Report for Congress.
5. Ünver, N.A. (2005). Iran's Nuclear Programme: The EU Approach to Iran in Comparison to the US Approach. *Perceptions*, *10*(1), 80.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 15-18
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 15-18
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Faidə İsayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1568-5885
faida.isayeva@mail.ru

# Elmi terminoloji leksikanın inkişafında dialekt sözlərin rolu

***Açar sözlər:*** *terminoloji leksika, qrammatik üsullar, dialekt, lüğt tərkibi*
***Keywords:*** *Terminological lexicon, grammatical methods, dialect, vocabulary*

Müasir dövrdə ayrı-ayrı dillərin inkişafının əsas mənzərəsi ən çox terminologiyada əks olunur. Ona görə ki, dilin lüğət tərkibində meydana gələn yeni sözlərin əksəriyyətini terminlər təşkil edir. Azərbaycan dilində də belədir. Terminoloji leksika dilin ümumişlək leksikasından fərqli olaraq özünəməxsus spesifik inkişaf xüsusiyyətləri ilə fərqlənir. Terminlərin yaranmasının əsasında dilin öz sözlərinin semantik baxımdan terminləşməsi, terminalma, beynəlmiləlləşmə, digər dillərdən birbaşa götürmə, təbii və texniki elmlər terminlərinin modifikasiyası, qrammatik üsullarla terminyaratma, abreviasiya və s. durur.

Termin yaradıcılığı üçün əsas zəmin anlayışın yaranmasıdır. Anlayışın təkmilləşdirilməsi üçün mühüm vasitə anlayışın digər anlayışlarla münasibətidir. Burada digər mənaların əsas anlayışla ayrı-ayrılıqda münasibəti əsas rol oynayır. Bu baxımdan, terminologiyanın inkişafı bu tip hadisələr üçün mühüm şərait yaradır. Belə ki, terminoloji leksikanın inkişafı nəinki terminoloji səviyyədə söz və anlayış arasındakı

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

münasibəti, eləcə də anlayışların özləri arasındakı münasibəti aydınlaşdırmağa imkan verir. Sözün terminoloji leksikada yerini tapması üçün anlayışın olması və onu ifadə edən sözün mənasının semantik inkişafı və təkmilləşməsi əsas şərtlərdən sayılır. Məsələn, söz anlayışın mahiyyətini tam dərk etmək və açmaq üçün onu digər anlayışlarla əlaqəsini dəqiqləşdirir (fonem, morfem və s.). Beləliklə, söz anlayışla bağlı dərketməni daha da dərinləşdirmiş olur. Bir anlayışın digər anlayışla əlaqəsi təkcə onun mövcudluğunu deyil, eyni zamanda, bu anlayışın sonrakı məna inkişaflarını istiqamətləndirməyə də kömək edir. Məna və anlayış əlaqələrinin sözlərdə əks olunması onların ayrı-ayrılıqda nəyisə ifadə etməsini göstərmir. Bu hal onları ayırmaq, fərqləndirməklə yanaşı, aralarında vahid oxşar cəhətin olmasını da üzə çıxarır.

Terminologiya ayrıca xüsusi sözyaratma üsul və vasitələrinə malik deyildir. Terminologiyada da ümumi ədəbi dildə sözlərin yaradılması üçün istifadə olunan üsul və vasitələrdən istifadə edilir. Belə ki, leksik-semantik üsulla yaranan terminlərin böyük əksəriyyəti ümumxalq sözlərinin termin səciyyəsi qazanması hesabına baş verib. Ümumxalq sözlərinin terminləşməsinin digər halı isə sözlərin semantik baxımdan dəyişməsi hesabına baş verir. Semantik baxımdan dəyişərək terminləşən leksik vahidlərdən biri də dialekt sözləridir. İctimai-tarixi inkişaf prosesinin nəticəsi olan dialektizmlər ədəbi dilin inkişafında rol oynamaqla yanaşı, Azərbaycan ədəbi dilinin inkişaf edib formalaşmasında bir mənbədir və daim qalmaqdadır. Dialekt və şivələr elə bir zəngin xəzinədir ki, termin yaradıcılığında ondan həmişə, hər zaman istifadə etmək mümkündür. M.Qasımov da dialekt sözlərindən qaynaqlanaraq termin yaratmanın tərəfdarı olmuşdur: "Termin yaradılarkən dilimizin dialekt və şivələrindən də istifadə edilməsi zəruridir. Çünki ayrı-ayrı

sahələr üzrə terminologiyanın təkmilləşməsi və terminlərin dəqiqləşdirilməsi üçün dialektlərdə zəngin material var.”

Beləliklə, dilin terminoloji leksikasının inkişafında dialekt sözlər əsas mənbələrdən hesab olunur. B.Əhmədov yazır: “Yenidənqurma şəraitində milli dillərin hərtərəfli tədqiqi və inkişafı üçün böyük imkanlar yaranmışdır. İndi kökə qayıtmaq, dilin daxili qanun və qaydaları əsasında onun sözlərini geniş türkoloji areala çıxartmaq zərurəti dilçilərimizin qarşısında mühüm bir problem kimi durur. Qədim abidələrin, ədəbi və elmi mənbələrin, canlı şivələrin sözlərinin başqa türk dilləri, onların abidələri, şivələri ilə tutuşdurmaq, tarixi müqayisəli metodun bütün imkanlarından istifadə dilçiliyimizə böyük uğurlar gətirə bilər. Deməli, dialekt sözlərdən bəhrələnərək terminoloji leksikanı inkişaf etdirmək dilin öz tarixini, soykökünü, milliliyini qorumaq üçün əsas vasitələrdən biri hesab oluna bilər. Dialekt sözlərin terminləşmə prosesi keçən əsrin 30-cu illərində Azərbaycan dilinin terminologiyasının müxtəlif sahələrini əhatə etmişdir. Bu hadisə günümüzə qədər davam edir. Bununla bağlı bir çox tədqiqatlar yazılmışdır. Bu dissertasiyalarda dialekt və şivələrin müəyyən sahələr üzrə leksik mənaları şərh edilməklə yanaşı, onların funksional xüsusiyyətləri, strukturları haqqında da məlumat verilmişdir. Son dövrlərdə müasir dildə terminoloji leksikanın dialekt sözlər hesabına zənginləşməsi istiqamətində yazılan dissertasiyalar arasında K.Dənziyevanın “Azərbaycan dilində toy mərasimi leksikası”, H.Əsgərovun “Azərbaycan dilinin maddi mədəniyyət leksikası”, E.Mirzəyevin “Azərbaycan dili Lənkəran və Astara şivələrinin terminoloji leksikası”, H.Mirzəyevin “Azərbaycan dilində kargüzarlıq terminləri”, Ə.Həsənovanın “Azərbaycan xalq təsərrüfatı terminologiyasının nəzəri əsasları”, A.Cəfərovanın “Azərbaycan xalq təbabəti terminləri”, H.Əsgərovun “Azərbaycan dilində zərgərlik terminləri” əsərləri xüsusilə

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 15-18
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 15-18
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

maraqlıdır. Terminləşmə nəticəsində dialekt sözlər məhdud məhəlli xarakterli sözdən elmi səciyyəli söz səviyyəsinə yüksəlir. Terminoloji işdə hər hansı anlayış deyil, yalnız müəyyən terminlə ifadə edilən, elm və texnikanın müvafiq sahəsinə daxil olan anlayış əsas götürülür. S.Sadıqova yazır: "Termin yaradılan zaman dialekt və şivələrdə termini daha dəqiq, konkret ifadə edən sözlərə üstünlük verilməlidir. Anlayışın ifadəsi üçün müxtəlif sözlərdən yalnız məfhumun mənasını düzgün, tam şəkildə ifadə edəni seçilməlidir. Dialekt və şivələrdə işlənən təsadüfi söz və ifadələr termin kimi işlədilməməlidir. Bu zaman dialektlərdən götürülüb terminə çevrilən sözlərin bu dildə müxtəlif məqamlarda işlənmə imkanı, termin yaradıcılığında rolu nəzərə alınmalıdır". Deməli, dialekt sözlərin termin kimi işlənmə məqamlarına dildə həssas yanaşmaq lazımdır. Hər cür dialekt sözünü elmi sahədə xüsusiləşdirmək düzgün hesab olunmamalıdır. Eləcə də anlayışları təmsil etməyən sözlərin termin adlandırılması düzgün deyil. Çünki termin elmin, texnikanın, incəsənətin anlayışlarını, təbiət və cəmiyyətdə baş verən hadisələri, istehsal proseslərini bir-birindən fərqləndirmək üçün onlara verilən səciyyəvi addır.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Bənövşə Əsgərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0001-8610-178X
tt.aaa.2014@mail.ru

# Mətn daxilində leksik və qrammatik vasitələrin rolu

***Açar sözlər:*** *mətn dilçiliyi, leksik vasitələr, qrammatik vasitələr, koheziya, koherensiya, mətnin bağlılığı*
***Keywords:*** *Text linguistics, lexical means, grammatical means, cohesion, coherence, textual connectivity*

Mətn dilçiliyi dilçilik elminin mühüm sahələrindən biri olub, mətnin quruluşunu, onun daxili əlaqələrini və məna bütövlüyünü araşdırır. Mətn yalnız ayrı-ayrı cümlələrin mexaniki toplusu deyil, məna və struktur baxımından bir-biri ilə sıx bağlı olan dil vahidlərinin sistemidir. Bu bağlılığı təmin edən əsas vasitələr leksik və qrammatik vasitələrdir.

Leksik vasitələr sözlərin seçimi və onların məna əlaqələri ilə bağlıdır. Mətn daxilində sözlərin düzgün seçilməsi və uyğun şəkildə işlədilməsi mətnin aydınlığını və təsirliliyini artırır. Leksik vasitələrin ən geniş yayılmış növlərindən biri təkrardır. Təkrar vasitəsilə mətnin əsas ideyası vurğulanır və oxucunun diqqəti müəyyən məqamlara yönəldilir. Bununla yanaşı, sinonimlərdən istifadə eyni sözün təkrarını azaltmağa kömək edir və mətnə üslubi zənginlik qatır. Antonimlər isə mətn daxilində ziddiyyət yaradaraq fikrin daha təsirli ifadəsinə imkan verir.

Bundan əlavə, ümumiləşdirici sözlər və əvəzləmə vasitələri də leksik bağlılığın yaranmasında mühüm rol oynayır. Məsələn,

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

əvvəl sadalanan anlayışların ümumi adla ifadə olunması mətnin məntiqini gücləndirir. Əvəzləmə isə eyni sözün təkrarını aradan qaldıraraq nitqin axıcılığını təmin edir.

Qrammatik vasitələr isə cümlələr arasındakı struktur və məntiqi əlaqələri yaradır. Bu vasitələrə bağlayıcılar, əvəzliklər, zaman formaları və sintaktik quruluşlar daxildir. Bağlayıcılar cümlələr arasında səbəb-nəticə, qarşılaşdırma və ardıcıllıq kimi əlaqələri ifadə edir. Əvəzliklər əvvəlki fikrə işarə edərək təkrarı azaldır və mətnin daha yığcam olmasına şərait yaradır.

Zaman formalarının uyğunluğu mətnin məntiqi ardıcıllığını təmin edən vacib amillərdəndir. Hadisələrin düzgün zaman ardıcıllığı ilə təqdim olunması oxucunun mətni daha asan qavramasına kömək edir. Sintaktik paralelizmlər və cümlə quruluşlarının oxşarlığı isə mətnə ritm və ifadəlilik verir.

Leksik və qrammatik vasitələr birlikdə mətnin həm formal, həm də məzmun baxımından bütövlüyünü təmin edir. Bu vasitələr olmadan mətn dağınıq və anlaşılmaz görünərdi. Onların düzgün və məqsədyönlü istifadəsi mətnin keyfiyyətini yüksəldir, onu daha təsirli və anlaşıqlı edir.

Nəticə olaraq demək olar ki, leksik və qrammatik vasitələr mətnin əsas qurucu elementləridir. Onlar mətnin bağlılığını, ardıcıllığını və məna bütövlüyünü təmin edərək dilin kommunikativ funksiyasını həyata keçirməyə xidmət edir.

Mətn dilçiliyində qrammatik vasitələr cümlələr arasında əlaqə yaradan və mətnin məntiqi ardıcıllığını təmin edən əsas elementlərdən biridir. Bu vasitələr sayəsində mətn yalnız ayrı-ayrı fikirlərin toplusu deyil, vahid və anlaşıqlı struktur kimi formalaşır. Xüsusilə bağlayıcılar, zaman formaları, əvəzliklər və cümlə tipləri mətnin qurulmasında mühüm rol oynayır.

Bağlayıcılar mətn daxilində cümlələr və fikirlər arasında məntiqi əlaqə yaradır. Onlar səbəb-nəticə, qarşılaşdırma, şərt və ardıcıllıq kimi münasibətləri ifadə edir. Məsələn, "və", "amma",

"çünki", "buna görə də" kimi bağlayıcılar fikirlər arasında keçid yaradır və oxucunun mətni daha asan qavramasına kömək edir. Bağlayıcıların düzgün istifadəsi mətnin məntiqi axıcılığını təmin edir və fikirlər arasındakı əlaqəni aydın göstərir.

Zaman formaları mətnin ardıcıllığını təmin edən digər vacib qrammatik vasitədir. Hadisələrin düzgün zaman ardıcıllığı ilə təqdim olunması oxucunun mətnin məzmununu düzgün başa düşməsinə şərait yaradır. Məsələn, keçmiş zamanda baş vermiş hadisələrin ardıcıl şəkildə verilməsi mətnin məntiqi quruluşunu möhkəmləndirir. Zaman formalarının qarışdırılması isə mətnin anlaşılmasını çətinləşdirə bilər. Əvəzliklər mətn daxilində referensiya funksiyasını yerinə yetirir, yəni əvvəl qeyd olunmuş şəxs və ya anlayışlara işarə edir. Bu, təkrarın qarşısını alır və mətnin daha yığcam və axıcı olmasına imkan verir. Məsələn, bir isim bir dəfə qeyd edildikdən sonra onun yerinə əvəzlikdən istifadə olunması həm dilə qənaət edir, həm də mətnin bağlılığını qoruyur.

Cümlə tipləri də mətnin strukturuna və təsir gücünə əhəmiyyətli dərəcədə təsir edir. Sadə cümlələr fikri aydın və konkret şəkildə ifadə edir, mürəkkəb cümlələr isə daha geniş və əlaqəli məlumat verməyə imkan yaradır. Bu iki cümlə tipinin uyğun şəkildə istifadə olunması mətnin həm informativliyini, həm də oxunaqlılığını artırır. Yalnız sadə və ya yalnız mürəkkəb cümlələrdən istifadə isə mətnin monoton və ya çətin qavranılan olmasına səbəb ola bilər.

Nəticə olaraq demək olar ki, qrammatik vasitələr mətnin daxili strukturunu formalaşdıran əsas amillərdən biridir. Bağlayıcılar, zaman formaları, əvəzliklər və cümlə tipləri birlikdə mətnin məntiqi bağlılığını, ardıcıllığını və aydınlığını təmin edir.

Mətn dilçiliyində leksik vasitələr mətnin məna bütövlüyünü, bağlılığını və üslubi keyfiyyətini formalaşdıran əsas

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

elementlərdən biridir. Leksik vasitələr sözlərin seçimi və onların mətn daxilində funksional istifadəsi ilə bağlıdır. Onlar vasitəsilə mətn yalnız informasiya ötürmür, həm də oxucuya təsir göstərir və müəyyən üslub yaradır.

Leksik vasitələrin əsas funksiyalarından biri mətnin mövzusunu aydın şəkildə ifadə etməkdir. Təkrar olunan sözlər və əsas açar leksik vahidlər mətnin ideyasını vurğulayır və oxucunun diqqətini əsas fikrə yönəldir. Bu, mətnin semantik mərkəzinin formalaşmasına kömək edir.

Sinonimlər leksik vasitələr arasında xüsusi yer tutur. Onlar eyni məna ətrafında müxtəlif ifadə formaları yaratmaqla təkrarı azaldır və mətnə üslubi rəngarənglik gətirir. Bu, həm də nitqin axıcılığını artırır və oxunu daha maraqlı edir.

Antonimlər isə mətn daxilində ziddiyyət yaratmaqla fikrin daha aydın və təsirli ifadəsinə xidmət edir. Zidd anlayışların qarşılaşdırılması mətnin məna dərinliyini artırır və oxucuya müqayisə imkanı yaradır.

Bundan əlavə, leksik vasitələrə tematik söz qrupları da daxildir. Eyni mövzuya aid sözlərin birlikdə işlədilməsi mətnin vahid ideya ətrafında qurulmasını təmin edir. Bu, mətnin məntiqi bağlılığını gücləndirir.

Əvəzləmə və ümumiləşdirici sözlər də leksik vasitələrin mühüm hissəsidir. Əvəzləmə təkrarı azaldaraq nitqin daha səlis olmasına kömək edir, ümumiləşdirici sözlər isə fikirləri yekunlaşdıraraq mətnin strukturunu tamamlayır. Leksik vasitələr mətnin həm məzmun, həm də üslub baxımından formalaşmasında mühüm rol oynayır. Onlar mətnin bağlılığını təmin edir, fikrin aydın ifadəsinə şərait yaradır və oxucuya daha təsirli kommunikasiya imkanı verir. Beləliklə, mətn daxilində leksik və qrammatik vasitələr mətnin struktur və məna baxımından bütövlüyünü təmin edən əsas elementlərdir. Leksik vasitələr sözlərin düzgün seçimi və məna əlaqələri vasitəsilə

mətnin ideyasını aydınlaşdırır, üslubi zənginlik yaradır və oxucuya emosional və məntiqi təsir göstərir.

Qrammatik vasitələr isə cümlələr arasında əlaqə yaradır, mətnin ardıcıllığını və məntiqi bağlılığını təmin edir. Bağlayıcılar, əvəzliklər, zaman formaları və cümlə tipləri birlikdə mətnin strukturunu formalaşdırır və onun daha anlaşıqlı olmasına şərait yaradır.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Kifayət Hüseynova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0004-9716-2459
nurv7487@gmail.com
**Aidə Novruzova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0007-1625-2770
aidenovruzova @mail.ru
**Nazirə Qənbərova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0005-8578-9016
nazireqenberli94@gmail.com

# Musiqinin bədii gimnastika performansına təsiri

***Açar sözlər:*** *bədii gimnastika, musiqi, ritm, performans, estetiklik, ifadəlilik, ahəng, emosional təsir, hərəkət koordinasiyası, çıxış proqramı*

***Keywords:*** *rhythmic gymnastics, music, rhythm, performance, aesthetics, expressiveness, harmony, emotional impact, movement coordination, performance program*

Bu mövzuda musiqinin bədii gimnastika performansına təsiri geniş şəkildə izah olunur. Musiqi gimnastın hərəkətlərinə ritm, ahəng və emosional dərinlik qataraq çıxışın estetik səviyyəsini yüksəldir. Düzgün seçilmiş musiqi proqramın quruluşuna uyğunluq yaradır, hərəkətlərin daha axıcı və ifadəli icrasına kömək edir. Eyni zamanda, musiqi gimnastın emosiyalarını tamaşaçıya çatdırmaqda mühüm vasitə rolunu oynayır və çıxışın ümumi təsir gücünü artırır. Bu baxımdan, musiqi bədii gimnastikanın ayrılmaz tərkib hissəsi kimi çıxış edir və idmançının uğurlu performansında mühüm rol oynayır.

Məlumdur ki, bədii gimnastikanın zənginləşməsində, inkişaf etməsində, gözəlləşməsində misiqinin çox böyük təsiri vardır, çünki musiqi insan ruhunu oxşayır, insanı yaşamağa, yaratmağa ruhlandırır. Demək olar ki, bədii gimnastika musiqi ilə nəfəs alır. Musiqi və idmanın birliyi, vəhdəti, ayrılmazlığı həmişə sübut edilmişdir. Musiqi və idman vəhdət təşkil edir. Gimnast və akrobat hər bir hərəkət üçün gözəl bir musiqi, kəskin nəğmə seçir. Musiqi elə seçilməlidir ki, gimnastın, akrobatın ruhu gözəlləşsin, həvəsi artsın və nailiyyət qazansın.

Musiqi bədii gimnastika performansının ayrılmaz və aparıcı komponentlərindən biri kimi çıxış edir və çıxışın həm texniki, həm də estetik səviyyəsinin formalaşmasında həlledici rol oynayır. Bədii gimnastikada hər bir hərəkət musiqinin ritmi, tempi və xarakteri ilə sıx bağlıdır. Düzgün seçilmiş musiqi gimnastın hərəkətlərinə uyğun ritmik quruluş yaradır, elementlərin bir-biri ilə ahəngdar şəkildə əlaqələndirilməsinə şərait yaradır və çıxışın bütövlüyünü təmin edir.

Musiqi yalnız fon rolu oynamır, eyni zamanda, gimnastın emosional vəziyyətini formalaşdırır və onun çıxış zamanı özünü ifadə etməsinə imkan verir. Musiqinin dinamikası, melodiyası və tempi gimnastın hisslərini hərəkətlər vasitəsilə tamaşaçıya ötürməsinə kömək edir. Bu isə performansın təsir gücünü artırır, çıxışı daha yadda qalan və estetik baxımdan zəngin edir. Xüsusilə bədii gimnastikada qiymətləndirmə zamanı artistiklik və ifadəlilik mühüm meyarlar hesab olunduğuna görə, musiqi ilə hərəkətlərin uyğunluğu yüksək nəticə əldə etmək üçün əsas şərtlərdən biridir.

Bundan əlavə, musiqi gimnastın koordinasiya və zamanlama qabiliyyətlərinin inkişafına da müsbət təsir göstərir. Ritmə uyğun hərəkət etmək idmançının diqqətini, dəqiqliyini və bədən üzərində nəzarətini artırır. Musiqinin köməyi ilə gimnast çıxışın

strukturunu daha aydın qavrayır, keçidlər daha axıcı və məntiqli olur.

Nəticə etibarilə, musiqi bədii gimnastika performansının yalnız müşayiətçisi deyil, onun məzmununu formalaşdıran əsas amillərdən biridir. Musiqi ilə hərəkətlərin vəhdəti gimnastın peşəkarlıq səviyyəsini göstərir, çıxışın keyfiyyətini yüksəldir və tamaşaçıda güclü estetik və emosional təəssürat yaradır. Bu səbəbdən, bədii gimnastikanın inkişafında və idmançıların uğurlu çıxışında musiqinin rolu əvəzolunmazdır. Bədii gimnastika İsveçrədə yaranmış idman növüdür. Bədii gimnastikanı aktyorluq, balet, müsiqi və pantomim ilə birlikdə edirlər. Bədii gimnastika turnirlərində yalnız qadın idmançılar iştirak edir.

Azərbaycanda bədii gimnastikanın yaranma və inkişaf tarixi XIX əsrin 40-cı illərinə təsadüf edir. Qızlardan ibarət qrup yaradan Nadejda Merkulova Azərbaycanda bu idman növünün inkişafında, formalaşmasında uzun müddət fəaliyyət göstərmişdir.

Məhz onun rəhbərliyi altında yetişən gimnastlar beynəlxalq yarışlarda uğurlar qazanmışlar. Larisa Zebina, Lina Vinskova, Mina Hacıbəyli, Elmira Hacıyeva, Mina Libeyova belə gimnastlardandır.

Bədii gimnastika - gimnastika və rəqs hərəkətlərinin musiqi müşaiyəti ilə alətsiz və alətlərlə (ip, halqa, top, gürzlər, lent) icra olunduğu bir idman növüdür. Dea kimi bədii gimnastik rəqs elementləri, balet və musiqinin incəsənət və idmanla vəhdətindən ibarətdir. Kompozisiyalı idman növü olan bədii gimnastikanın əsas xüsusiyyətləri çox yüksək bədən çevikliyi və hərəki fəallıq tələb edən ən çətin akrobatik hərəkət elementlərinin bir-biri ilə birləşməsidir. Bu birləşmədə musiqinin böyük rolu və əhəmiyyəti vardır. Bədii gimnastikanın əsasını düzgün tərtib olunmuş musiqi təşkil edir. 10 yaşlı

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

gimnast Fatimə Xəlilzadə ürək sözlərində bildirib ki, mənim uğurlarımda musiqinin çox böyük rolu olmuşdur. Bədii gimnastikanın zənginləşməsində, inkişaf mərhələsində, gözəlləşməsində musiqinin təsiri olduqca böyükdür. Musiqi idmanın, eləcə də bədii gimnastikanın ayrılmaz tərkibi, idmançıların həyat tərzidir. İdman tarixində ilk olimpiya oyunlarının musiqi ilə birlikdə keçirilməsi tarixi bir ənənədir. Bir həqiqəti etiraf edək ki, musiqinin idman ilə qoşa yaranması nəticəsində XX əsrdə bədii gimnastika ilə bərabər akrobatik gimnastika, aerobika və s. musiqili idman növləri yaranmışdır.

Bədii gimnastika ilə məşğul olanlarda musiqi cəsarət, sevinc, ruh yüksəkliyi yaradır. Musiqinin bədii gimnastikaya verdiyi gözəl təəssürat hissiyyata təsir edir. Buna görə də musiqi sədaları altında kecirilən məşqlər və yarışlar, göstərişlər idmançını yormur. Burada cəld və sürət tələb edən ritmik hərəkətlər musiqinin sədaları altında olanda cazibədar olur. Məşq zamanı seçilən musiqi bioritmik, sakit və axıcı olmalıdır, odur ki, bəstəkarlar adətən idman yarışları, tədbirləri, bayramları üçün musiqi yazarkən onu təkcə bir yarış üçün yox, daim istifadə olunması üçün nəzərdə tuturlar.

Azərbaycanın idman tarixində bəstəkarlarımızın müxtəlif bədii gimnastika festivallarına həsr edilmiş gözəl kantataları, musiqiləri vardır. Musa Musayev, Niyazi, Rauf Hacıyev, Cahangir Cahangirov və digərləri idmanla musiqinin qarşılıqlı əlaqələrinin vəhdətindən bəhs edən musiqilər yazmışlar. Bədii gimnastika çıxışları ölçüsü 13x13 m olan gimnastika xalçası üzərində yerinə yetirilir. Musiqi kompozisiyası tətbiqi seçimi gimnast və məşqçinin istəyindən asılıdır. Məşqçi və musiqiçi müəllim elə bir musiqi tətbiq etməlidir ki, idmançının musiqiyə münasibəti vəhdət təşkil etsin. Tətbiq olunan musiqinin çox güclü energetik xüsusiyyətləri psixo-fizioloji təsir imkanlarına, müalicəvi effektlərə, mənəvi və ruhi qidalanmaya malik olması

hələ qədim dövrlərdə, orta əsrlər filosoflarının, şamanların, təbabət alimlərinin, həkimlərin, idmançıların, psixoloqların, musiqi sənətkarlarının marağına səbəb olmuş, bu sahədə araşdırmalar, traktatlar yayılmış, zəngin praktik təcrübə qazanılmışdır, Şərqdə və Asiya ölkələrində yaranan bədii gimnastika idmanında idmanın fəlsəfi qavranılmasına, idmançılara ruh yüksəkliyini və psixoloji təhliklərinin asılmaasından , medotasiya məşğələlərində xüsusi musiqi janrlarından və mülodiyalarından istifadə olunmuşdur.

XIX-XX əsrlərdə bədii gimnastika məşqlərində idmançının fizioloji və psixoloji cəhətdən güclənməsində musiqinin tətbiq edilməsinə dair idman təbabəti, idman psixologiyası musiqişünaslar tərəfindən tədqiq edilmiş və idmanda tətbiq edilmişdir.

Elmdə tətbiqi musiqi anlayışı da real olaraq musiqini idmanda və digər sahələrdə tətbiq nəticəsində yaranmışdır. Təsadüfi deyildir ki, idman və gimnastika məşqlərinin musiqi ilə aparılması artıq çoxdandır sabit bir ənənəyə, idmançı hazırlığının vacib amillərinə çevrilmişdir.

Hazırda fiziki məşqlər, yarışlar zamanı gimnastlar ritmik hərəkətli, nikbin, rok, rok-n-rol, n-rok, pop, rep nümunələrinin populyar hitlərini, həm sakit, aram lirik, gözəl təbiət təsvirli instrumental melodiyaları, həm də klassik musiqini dinləmək tövsiyə olunur. Odur ki məşqçi və musiqiçi idmanda musiqinin tətbiqinə diqqət yetirməlidir.

Bədii gimnastikada musiqinin düzgün, sistematik, mənalı tərtibatı bəstəkar və musiqiçidən asılıdır. Onların birgə fəaliyyəti nəticəsində gözəl kompozisiya alınır. Musiqidən və bədii gimnastikadan istifadə etməklə gənc gimnastın koordinasiyasının inkişafını təhlil etmək zəruridir.

Bədii gimnastika rəqs sənətinə yaxın və məktəbli qızların estetik tərbiyəsinə töhfə verən idman növlərindən biridir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 24-29
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 24-29
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Təlimçilərin ahəngdar inkişafı, motor qabiliyyətinin hərtərəfli yaxşılaşdırılması, sağlamlığın inkişafı, yaradıcı uzun ömürlülüyün təhlil edilməsi, bunların hamısı bədii gimnastikanın əsas məqsədidir. Bədii gimnastika bədənə gözəllik, güc verir, qəddi-qaməti gözəlləşdirir, insanda mərdlik, vətənpərvərlik hissləri aşılayır. Təsadüfi deyil ki, yunanlar bu idman növündən hərbiçilərin yetişdirilməsində istifadə edirdilər. Olimpiya idman növlərindən olan bədii gimnastika çox çətin və incə idman növüdür.

Musiqi isə ruhu oxşayır, insanı yaşamağa ruhlandırır, həvəsləndirir, gözəlləşdirir. Bədii gimnastikanın uğurları musiqi ilə sıx bağlıdır. Bədii gimnastika, demək olar ki, musiqi ilə nəfəs alır. Musiqi və idmanın birliyi, vəhdəti, ayrılmazlığı-gözəlliyin vəhdəti və vəhdətin gözəlliyi haqqında yazdığımız məqaləmizi elə bu nikbin və qalibanə təəssüratla bitiririk.

-Yaşasın Azərbaycanın idmançı gəncliyi!

-Yaşasın idman və musiqi!

-Qələbələr səninlədir, Azərbaycan!

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Fidan Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0002-4935-0645
fa.mammadova@adpu.edu.az

# Türk dünyasında ortaq dil və termin problemləri

***Açar sözlər:*** *türk dünyası, ortaq tarix, etnik köklər, dil birliyi, mədəniyyət, milli kimlik, mədəni irs, əməkdaşlıq, regional inkişaf*
***Keywords:*** *Turkic world, shared history, ethnic roots, linguistic unity, culture, national identity, cultural heritage, cooperation, regional development*

Türk xalqlarını bir ailə kimi birləşdirən əsas mənəvi dayaqlar ortaq tarix, etnik köklər, dil və mədəniyyət birliyidir. Bu birliyin kökləri minilliklərə söykənir və xalqlarımız bu ortaq dəyərləri əsrlər boyu qoruyub saxlamışdır. Tarix boyu türk xalqları müxtəlif dövlətlər şəklində yaşamalarına baxmayaraq, dil, adət-ənənə, həyat tərzi və dünyagörüşlərindəki oxşarlıqlar heç vaxt itməmiş, əksinə, zaman keçdikcə daha da möhkəmlənmişdir. Bu gün həmin mənəvi birliyin müasir təcəssümü kimi Türk Dövlətləri Təşkilatı çıxış edir. Azərbaycan Prezidenti İlham Əliyevin Qəbələdə keçirilən XII Zirvə Görüşündə qeyd etdiyi kimi, ortaq tarix və etnik köklər, ortaq dil bizi bir ailə kimi birləşdirir və bu ailəvi bağlar hər zaman daha böyük güc və həmrəyliyin əsasını təşkil edir. Bu fikir yalnız siyasi deyil, həm də dərin mənəvi bir konsepsiyanın ifadəsidir. Çünki Türk dünyasının birliyi ideyası təkcə diplomatik münasibətləri deyil, həm də mədəni və mənəvi inteqrasiyanı əhatə edir. Türk xalqları arasındakı əlaqələrə nəzər saldıqda, dilin və mədəniyyətin bu

birliyin formalaşmasında əsas rol oynadığı açıq şəkildə görünür. Türk dilləri arasında qarşılıqlı anlaşma, ortaq ifadələr və oxşar qrammatik quruluş xalqları bir-birinə daha da yaxınlaşdırır. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin və mənəvi varlığın daşıyıcısıdır. Bu baxımdan türk xalqları dillərini qorumaqla həm də ümumtürk mədəni irsini gələcək nəsillərə ötürürlər. Mədəniyyət sahəsində əməkdaşlıq — ortaq filmlər, ədəbi layihələr, musiqi və folklor festivalları kimi təşəbbüslər bu birliyin canlı və dinamik qalmasına xidmət edir. Hər bir xalq öz milli dəyərlərini qorumaqla ortaq mədəniyyət məkanına töhfə verir və bu, Türk dünyasının mədəni qüdrətini daha da artırır. Bu gün Türk Dövlətləri Təşkilatının fəaliyyəti təkcə siyasi və iqtisadi əməkdaşlıqla məhdudlaşmır. O, həm də ortaq kimliyin qorunması və möhkəmləndirilməsi istiqamətində mühüm missiya daşıyır. Ortaq tarix, ortaq qəhrəmanlıq səhifələri, ortaq ədəbiyyat və mədəni dəyərlər əsasında formalaşan bu ideya Türk xalqlarının gələcək inkişafında böyük rol oynayır. Məsələn, Orxon-Yenisey abidələri, "Kitabi-Dədə Qorqud" dastanı, Nizami, Füzuli, Əlişir Nəvai, Yunus Əmrə kimi dahilərin yaradıcılığı bütün Türk dünyasına məxsus mədəni sərvətlərdir. Bu dəyərlər təkcə bir millətə deyil, ümumtürk mədəniyyətinə məxsus ortaq simvollardır və xalqlar arasında mənəvi körpü rolunu oynayır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Türk dünyasının birliyi yalnız keçmişə deyil, həm də gələcəyə yönəlmiş strateji bir məqsəddir. Müasir dövrdə bu birliyin yeni formaları yaranır. Təhsil, elm, texnologiya və informasiya sahəsində əməkdaşlıq yeni nəsil türk gənclərinin ortaq ideyalar və dəyərlər əsasında formalaşmasına şərait yaradır. Türk Universitetlər Birliyi, Türk Akademiyası, Türk Mədəniyyəti Fondu kimi qurumlar bu istiqamətdə mühüm fəaliyyət göstərir. Tələbə mübadiləsi proqramları, ortaq tədqiqat layihələri və mədəni tədbirlər vasitəsilə türk xalqları arasında bilik və təcrübə

mübadiləsi genişlənir. Bu isə ümumi düşüncə tərzinin və mənəvi yaxınlığın daha da möhkəmlənməsinə səbəb olur. Ortaq kimlik və mənəvi bağların gücləndirilməsi siyasi sabitlik və qarşılıqlı etimad üçün də möhkəm təməl yaradır. Türk Dövlətləri Təşkilatı çərçivəsində qəbul olunan sənədlər, ortaq iqtisadi layihələr, nəqliyyat dəhlizləri və enerji əməkdaşlığı bu mənəvi birliyin praktik təzahürləridir. Mədəni əsas üzərində qurulan siyasi əməkdaşlıq daha dayanıqlı və uzunmüddətli olur. Prezident İlham Əliyev də bu məqamı xüsusi vurğulayaraq, Türk dünyasının birliyinin yalnız emosional və simvolik deyil, həm də strateji və praqmatik xarakter daşıdığını qeyd etmişdir. Çünki ortaq tarixə və dəyərlərə söykənən hər bir əməkdaşlıq modeli dayanıqlıdır və qlobal təzyiqlərə qarşı davamlı olur. Türk dünyasının birliyi, eyni zamanda, beynəlxalq arenada milli maraqların daha effektiv müdafiəsinə imkan yaradır. Geosiyasi vəziyyətin sürətlə dəyişdiyi, yeni güc mərkəzlərinin formalaşdığı dövrdə ortaq mənsubiyyət hissi ölkələr arasında həmrəylik və qarşılıqlı dəstəyi gücləndirir. Türk dövlətləri qarşılıqlı etimad və bərabərlik prinsipləri əsasında münasibətləri inkişaf etdirdikcə, bu ailə daha da böyüyür və möhkəmlənir. Bu həm də gənc nəsildə ortaq türk kimliyinin formalaşmasına təsir göstərir. Gənclərin ortaq tarix, dil və mədəniyyət haqqında məlumatlandırılması gələcəkdə bu birliyin davamlılığını təmin edəcək. Ortaq tarixi və etnik köklər, dil və mədəniyyət üzərində qurulan Türk dünyası birliyi təkcə keçmişin yadigarı deyil, həm də gələcəyin strateji istiqamətidir. Bu birlik siyasi, iqtisadi və mədəni sahələrdə böyük potensiala malikdir. Hər bir üzv dövlət bu dəyərlərin qorunması və inkişafı üçün məsuliyyət daşıyır. Türk xalqları arasındakı dostluq, qarşılıqlı hörmət və mənəvi bağlılıq regionda sülhün, sabitliyin və tərəqqinin möhkəmlənməsinə xidmət edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bizi bir ailə kimi birləşdirən bu ortaq köklər

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 30-33
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 30-33
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

gələcək nəsillər üçün ən böyük sərvət, ən güclü dayaq və ən etibarlı istiqamət olacaq. Bu, həm tarixi mirasın qorunması, həm də Türk dünyasının gələcəkdə qlobal miqyasda güclü bir mərkəzə çevrilməsi üçün əsas mənəvi təməl rolunu oynayır.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Şərəf Əhmədova**
Gəncə Dövlət Universiteti
https://orcid.org/0009-0001-9864-5661
ahmadovasharaf1961@gmail.com

# Müasir təhsilin inkişafı perspektivlərində layihələr üsulunun mahiyyəti və məzmunu

***Açar sözlər:*** *layihə, problemlər metodu, müasir məktəb, informasiya mübadiləsi, tədqiqat*
***Keywords:*** *project, problem-based method, modern school, information exchange, research*

Müasir pedaqogikada layihələr üsulu problem yönümlü baxış, refleksiya, tədqiqat, axtarış və digər yanaşmaları özündə birləşdirən şəxsiyyətyönümlü təlim texnologiyalarından biri kimi təqdim edilə bilər.

Layihələr üsulu dünya təhsilində prinsipial olaraq yeni bir üsul deyil. Bu üsul hələ ötən əsrin əvvəllərində ABŞ-da meydana gəlmişdir. Onu həmçinin "problemlər metodu" adlandırır və amerikalı filosof və pedaqoq C.Dyuinin, eləcə də onun şagirdi V.X.Kilpatrikin işləyib hazırladıqları fəlsəfədə və təhsildəki humanist istiqamət və ideyalarla əlaqələndirirdilər.

C.Dyui təlimi fəal əsasda öyrənənin şəxsi maraqlarına uyğun gələn məqsədyönlü fəaliyyəti vasitəsilə qurmağı təklif edirdi. Bu baxımdan, şagirdlərə qazanılan biliklərin gələcəkdə onlara həyatda lazım olacağını və bu biliklərə şəxsi maraqlarının olduğunu göstərmək son dərəcə vacib idi. Müasir məktəblərin təhsil prosesinə yeni pedaqoji texnologiyalar daxil edilir, aktiv, problemli təlim üsullarından, o cümlədən layihələrdən istifadə olunur. Təlim prosesində şagirdin obyekt qismində çıxış etməsi artıq vacibliyini və aktuallığını itirir. Onun yerini artıq başqa

reallıq tutmaqdadır: şəxsiyyətyönümlü təhsil ki, burada uşağın istedadı, qabiliyyətləri, rəqəmsal dünya üçün əldə etdiyi bacarıqların tətbiqi təmin ediləcəkdir.

Müəllim pedaqoji prosesdə elə bir mühitin yaradılmasına çalışmalıdır ki, burada şagirdə biliklərin ötürülməsi deyil, informasiya bolluğunun təmin edilməsi gözlənilsin. İnformasiya bolluğu şəraitində sərbəst və düzgün seçimlərin edilməsi, informasiya mübadiləsi, prosesin nəticəyönümlü olmasının təmin edilməsi kimi məqamlar şərtdir. Bunların həyata keçirilməsi üçün fənlərin tədrisinə müvafiq şəraitin yaradılması, tədris yükünün azaldılması, araşdırmaların məhsularlığının artırılmasına xüsusi önəm verilməlidir.

Bu kimi vəzifələrin həyata keçirilməsində tədris prosesində ciddi dəyişikliklər edilməlidir, proses daha maraqlı və cəlbedici olmalıdır. Əldə olunan biliklər aktuallıq baxımından dəyərləndirilməlidir və həyatda tətbiq yerləri konkretləşməlidir. Vəzifələr öz həlli prosesində təhsilin məzmunu baxımından təkmilləşdirilməlidir, təlimin inkişafına dair ənənəvi ilə yanaşı, yeni forma, üsullar təqdim edilməsi günün tələbi kimi çıxış edir. Layihələr üsulu həm təlim prosesində, həm də təlimdən kənar tətbiq edilir. Tətbiq ediləcək üsul tədqiqi xarakter daşımaqla dərsin konkret məzmununa uyğun olur.

Layihə üsulu vasitəsilə reallaşdırılan dərs aşağıdakı formalarda təqdim edilə bilər:

- Yeni mövzunun tədrisi zamanı yeni materialın mənimsənilməsi;
- Əldə edilmiş bilik və bacarıqların möhkəmləndirilməsi;
- Tapşırıqların həlli üzrə yeni təlim vərdişlərinin formalaşdırılması.

Layihə-tədqiqat fəaliyyəti nəticəsində şagirdlər sadəcə yeni biliklər əldə etmir, həm də tədqiqat vərdişlərinə yiyələnir və tədqiqatçı təfəkkür tərzini inkişaf etdirirlər; bu prosesdə şagirdin

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 34-38
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 34-38
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

şəxsi mövqeyi formalaşır ki, nəticədə təfəkkürün yeni formatına, idrak kompetensiyasının inkişafına gətirib çıxarır.

Müəllim elə bir mühit yaratmalıdır ki, bu mühit şagirdlərin informasiyanı müstəqil şəkildə əldə etməsinə və emal etməsinə, onu paylaşmasına, habelə əhatə olunduqları informasiya dünyasında sərbəst və sürətli şəkildə istiqamət tapmasına şərait yaratsın. Bunun üçün bütün fənlər üzrə qabiliyyətlərin inkişafına kömək edən şərait yaradılmalı, lakin eyni zamanda şagirdlərin tədris yükü azaldılmalıdır.

Şagirdlərin tədqiqat tapşırığını yerinə yetirmələri zamanı müəyyən çətinliklər yaranır və bu çətinliklərin aradan qaldırılmasında layihələr üsulu pedaqoji əhəmiyyət kəsb edir. Tədqiqat tapşırıqlarının icrası zamanı şagird və müəllim arasında yaranan münasibətlərə xüsusi diqqət yetirilir.

Layihə üsulu ilə yanaşmanın digərlərindən fərqli cəhəti odur ki, şagirdlər öz təhsilləri üçün məsuliyyətin böyük hissəsini öz üzərinə götürürlər:

– Yeni təfəkkür tərzi, cavabların tapılması, kollektivdə işləmək və ünsiyyət qurmaq kimi çoxşaxəli bacarıqların inkişaf etdirilməsi imkanı;

– Sinif-dərs sistemi şəraitində tədris prosesinə asanlıqla uyğunlaşır və istənilən fənn üzrə təhsil məqsədlərinə çatmağa imkan verir;

– Humanist metod olmaqla, tədris materialının uğurlu mənimsənilməsini, şagirdin intellektual və mənəvi inkişafını, müstəqilliyini, müəllimə və digər uşaqlara qarşı xeyirxah münasibətini təmin edir;

– Uşaqları birləşdirir, onlarda ünsiyyətcilliyi, başqalarına kömək etmək istəyini, komandada işləmək bacarığını və birgə fəaliyyət üçün məsuliyyət hissini inkişaf etdirir.

Beləliklə, layihə üsulu klassik təlim üsullarından fərqlənir. Hesab etmək olar ki, layihələr üsulunun əsas məqsədi şagirdlərə

praktiki tapşırıqların və ya problemlərin həlli prosesində bilikləri müstəqil şəkildə əldə etmək imkanı yaratmaqdır. Layihələr üsulunun mənimsənilməsi üçün tədris prosesində müstəqil işləmək bacarığı zəruridir. Layihə iştirakçılarının müstəqil işi koqnitiv xarakter daşıyır. Bu fəaliyyəti xarakterizə etmək üçün iştirakçılar tərəfindən individual-təlimi əhəmiyyət kəsb edən tapşırıqların uğurlu həlli yolunda öz potensiallarını müstəqil idraki fəaliyyəti sahəsində toplamaq və reallaşdırmaq istəyi mütləq öz əksini tamalıdır. Bu inteqrativ keyfiyyət sadəcə müstəqillik deyil, təlim prosesində idrak müstəqilliyidir.

Texnologiyanın məzmun hissəsi layihədə olan fəaliyyətinin məqsədlərini və mahiyyətini müəyyən etməyə imkan verir. Bu texnologiyanın müəyyənedici məqsədləri aşağıdakılardır:

– Təlim prosesində müstəqilliyin inkişaf vasitəsi olmaq;
– Verilmiş informasiyanı sistemləşdirməyi öyrətmək;
– Biliklərin praktik fəaliyyətdə tətbiqini təmin etmək;
– Təhsil kompetensiyalarını formalaşdırmaq və inkişaf etdirmək;
– Təhsil məkanını genişləndirmək və ona yeni formalar vermək;
– Müstəqil və humanist mövqeli şəxsiyyət tərbiyə etmək;
– Yaradıcı və intellektual qabiliyyətləri, potensialı inkişaf etdirmək;
– Ətrafdakı insanlarla ünsiyyət qurmaq bacarığını aşılamaq;
– Məqsədyönlülük və əzmkarlığı inkişaf etdirmək, çətinlikləri dəf etmək bacarığını formalaşdırılmaq.

Layihələr üsulunun prosessual hissəsi aşağıdakı mərhələləri fərqləndirməyə imkan verir: diaqnostik, nəzəri, praktiki və təqdimat.

Layihələr üsulu müasir təlimdə əlverişli məqamlardan biridir. Bu gün təhsilimizdə gedən köklü islahatlar çərivəsində

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 34-38
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 34-38
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

təhsil alan şəxsin biliklərinin tədqiqi baxımından əldə edilməsi, alınmış biliklər fonunda bacarıqların formalaşması və ən önəmlisi, bunların praktik baxımdan tətbiqi qabiliyyətlərinin formalaşmasıdır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 39-41
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 39-41
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Gülnarə Qədirova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0009-1041-6329
gulnare.qadirova@adpu.edu.az

# İbtidai siniflərdə təlimdə innovativ metodlar: müasir pedaqoji yanaşmalar və onların təhsilin keyfiyyətinə təsiri

***Açar sözlər***: *innovasiya, təhsil, ibtidai, pedaqoji, təlim*
**Keywords:** *innovation, education, primary, pedagogy, training*

Müasir təhsil əhəmiyyətli dəyişikliklər ərəfəsindədir və innovativ təlim metodlarının tətbiqi bu prosesə kömək edən əsas amillərdən biridir. Son onilliklərdə ibtidai siniflərdə monoloji tədrisə və məlumatın təkrar istehsalına əsaslanan ənənəvi pedaqoji yanaşmalar öz yerini daha çevik, dinamik və şagirdyönümlü metodikalara verir. İbtidai siniflərin təlimində innovativ metodlar təhsilin keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin inkişafına yönəlmiş mühüm vasitələrə çevrilir. Onlar biliklərin daha effektiv mənimsənilməsi üçün şərait yaradır, uşaqlarda tənqidi təfəkkür, yaradıcılıq qabiliyyəti və dəyişən dünyaya uyğunlaşma bacarığı formalaşdırır.

Əsas innovativ yanaşmalar. İnnovativ metodların mərkəzi aspektlərindən biri ənənəvi "məlumat mənbəyi olan müəllim" modelindən şagirdin təhsil prosesində daha aktiv roluna keçiddir. Bu yanaşma çərçivəsində əsas diqqət müstəqil bilik axtarışına, qrup işinə, tənqidi təfəkkürün və praktiki bacarıqların inkişafına yetirilir. Bu, nəinki akademik göstəricilərin yaxşılaşmasına, həm də uşaq şəxsiyyətinin hərtərəfli inkişafına kömək edir.

Layihə əsaslı təlim: Şagirdlərin nəzəri bilikləri praktiki fəaliyyətlərlə birləşdirən layihələr üzərində işləməsini nəzərdə tutur. Bu metod tədqiqat bacarıqlarını, komandada işləmək və real problemləri həll etmək qabiliyyətini inkişaf etdirir. Layihə təlimi uşaqları motivasiya edir və planlaşdırma, məlumatla işləmə və təqdimat bacarıqlarını formalaşdırır.

Aktiv təlim metodları və oyun texnologiyaları: Oyun metodikaları, rol oyunları və interaktiv dərslər təlim prosesini daha maraqlı edir və materialın daha yaxşı mənimsənilməsinə şərait yaradır. Oyunlar həm də sosial bacarıqların inkişafına, qərarların qəbul edilməsinə və ətrafdakılarla qarşılıqlı əlaqəyə kömək edir.

İnformasiya-kommunikasiya texnologiyaları (İKT): Rəqəmsal platformalar, interaktiv lövhələr və təhsil tətbiqləri təlim mühitini daha çevik və şagirdlərin ehtiyaclarına uyğun edir. Texnologiyalar uşaqlara məlumatla müxtəlif formatlarda (mətn, video, virtual laboratoriya) işləməyə imkan verir ki, bu da onların təlimə cəlb olunmasını artırır.

Fərdiləşdirilmiş təlim: Hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almağı nəzərdə tutur. Bu yanaşma hər bir uşağın özünü əhəmiyyətli hiss etdiyi və lazımi dəstəyi aldığı rahat bir təhsil mühiti yaradır. Adaptiv təhsil platformaları bu yanaşmanın həyata keçirilməsində mühüm rol oynayır.

İnklüziv təhsil: İnnovativ metodlar xüsusi təhsil ehtiyacları olan uşaqlar da daxil olmaqla, bütün uşaqlar üçün bərabər şərait yaradılması konsepsiyası ilə sıx bağlıdır. Bu, ayrı-seçkiliyin qarşısını alır və hər bir uşağın öz tempində inkişaf etməsinə imkan verir.

Təhsilin keyfiyyətinə təsiri və şərtlər. Müasir pedaqoji yanaşmalar gələcəkdə tələb olunacaq əsas bacarıqların əsasını qoyur. Lakin innovativ metodların effektiv tətbiqi üçün təhsil siyasəti səviyyəsində dəyişikliklər, müəllimlərin hazırlığı və

müvafiq infrastrukturun yaradılması zəruridir. Müəllimlərin lazımi resurslara çıxışı olmalı və onlar müntəzəm olaraq peşəkar inkişaf kurslarından keçməlidirlər. İbtidai siniflərdə təlimdə innovativ metodlar müasir cəmiyyətin tələblərinə cavab verərək təhsil sisteminin inkişafında mühüm rol oynayır. Layihə təlimi, İKT, oyun metodikaları və fərdiləşdirilmiş yanaşma şagirdlərin cəlb olunma səviyyəsini əhəmiyyətli dərəcədə artırır və onların tənqidi təfəkkürünü inkişaf etdirir. Bu metodlar uşaqları sadəcə passiv məlumat qəbul edənlərdən təlim prosesinin aktiv iştirakçılarına çevirir. İnnovasiyaların uğuru birbaşa müəllimlərin dəyişikliklərə hazırlığından və peşəkar hazırlığından asılıdır. Yekun olaraq, innovativ metodlar uşaqların müasir dünyada uğurla uyğunlaşmasına, mürəkkəb tapşırıqları həll etməsinə və gələcəkdə uğur qazanmasına kömək edən bacarıq və səriştələrin açarıdır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 42-47
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 42-47
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Pərvanə Muradi**
Odlar Yurdu Universiteti
https://orcid.org/0000-0002-7898-1027
pervanemuradi@gmail.com

# Ağıllı məkanlar: süni intellektlə formalaşan dinamik dizayn sistemləri

***Açar sözlər:*** *ağıllı məkanlar, süni intellekt, dinamik dizayn, adaptiv sistemlər, rəqəmsal memarlıq*
***Keywords:*** *smart spaces, artificial intelligence, dynamic design, adaptive systems, digital architecture*

Müasir texnoloji inkişafın sürətlənməsi və rəqəmsal transformasiyanın cəmiyyətin bütün sahələrinə nüfuz etməsi nəticəsində memarlıq və məkan dizaynı sahəsində köklü dəyişikliklər baş vermiş, bu dəyişikliklər çərçivəsində "ağıllı məkanlar" anlayışı elmi dövriyyəyə daxil olmuşdur. Bu məqalədə süni intellekt texnologiyalarının təsiri ilə formalaşan dinamik dizayn sistemlərinin nəzəri və praktik aspektləri Azərbaycan və türk elmi mənbələrinə əsaslanaraq geniş şəkildə təhlil edilir, həmçinin, bu sistemlərin funksional xüsusiyyətləri, tətbiq sahələri və gələcək inkişaf perspektivləri araşdırılır. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və rəqəmsallaşma proseslərinin intensivləşməsi nəticəsində ənənəvi məkan anlayışı öz sabit və dəyişməz xarakterini tədricən itirərək daha çevik, interaktiv və istifadəçi yönümlü sistemlərlə əvəz olunmağa başlamışdır. Bu kontekstdə aparılan elmi tədqiqatlar göstərir ki, müasir dövrdə məkan artıq yalnız fiziki struktur kimi deyil, eyni zamanda məlumatların emalı və idarə olunması funksiyalarını özündə birləşdirən kompleks sistem kimi çıxış edir (Ələkbərov, 2019).

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Müasir dövrdə dizayn artıq yalnız estetika və funksionallıqdan ibarət deyil. İnsanların yaşadığı və çalışdığı məkanlar onların emosional vəziyyətini, yaradıcılıq potensialını və gündəlik enerjisini formalaşdırır. Süni intellekt (AI) isə bu prosesdə həm görünməyən memar, həm də yaradıcı köməkçi rolunda çıxış edir. AI, insan davranışlarını təhlil edərək məkanın ritmini hiss edir və dizaynı fərdiləşdirilmiş təcrübəyə çevirir. Süni intellekt yalnız verilən komandaları yerinə yetirmir – o, məkanda insanların *hərəkət trayektoriyasını, işıq ehtiyaclarını, rənglərə reaksiyasını və istifadə vərdişlərini* öyrənir.

XXI əsrin texnoloji inqilabı sənət sahəsinə də təsirsiz ötüşməmişdir. Süni intellekt texnologiyaları vizual sənət, musiqi və ədəbiyyat kimi sahələrdə köklü dəyişikliklərə səbəb olmuş, yaradıcılıq anlayışını yenidən formalaşdırmışdır. Süni intellekt incəsənətdə çevriliş yaratmaqdadır. Dövrün tələbi ilə yaradıcılıq anlayışı yenidən formalaşır, nəticədə, qlobal trendlər və lokal imkanlar qarşılaşdırılır. İnsan və Süni İntellekt arasında yaradıcılıq "əməkdaşlığı" bu gün çox aktualdır. Süni intellektin insan yaradıcılığı ilə sintez imkanları vizual sənət sahəsində Midjourney və DALL-E kimi platformalar vasitəsilə rəqəmsal sənət nümunələrinin yaradılmasında, musiqidə Sİ ilə improvizasiya, xüsusilə də, muğam potensialının açılmasında, həmçinin, ədəbiyyat sahəsində yeni əsərlərin formalaşmasında təzahür tapır. Azərbaycan incəsənətinin yeni perspektivləri kontekstində də bu texnologiyaların istifadəsi üçün geniş imkanlar yaranmaqdadır. Süni intellektin təsiri ilə yeni estetik formaların və sənət janrlarının meydana gəlməsi maraqlı nəticələr verir.

Alqoritmik və generativ sənətin inkişafı, milli ornamentlərin, folklor nümunələrinin, nağılların süni intellekt vasitəsilə ifadə olunması, rəqəmsal sərgilər və interaktiv instalyasiya nümunələri, "kiber-folklor" anlayışı çərçivəsində

milli mədəniyyət motivlərinin yeni rəqəmsal ifadə formalarının yaranması, multimedia əsaslı teatr və süni intellektli səhnə elementlərinin inkişafı bütövlükdə milli yaradıcılıq imkanlarının yeni və daha geniş üfüqündən xəbər verir. Gələcəkdə tamamilə süni intellekt tərəfindən yaradılan rəsm və musiqi əsərlərinin, real vaxtda süni intellektlə interaktiv sənət nümunələrinin meydana gəlməsi perspektivləri maraqlı layihələr vəd edir. Sİ ilə mədəni irsin yenidən canlandırılması, qədim sənət əsərlərinin və musiqilərin "reimagined" versiyalarının hazırlanması, Sİ vasitəsilə unudulmuş sənət formalarının bərpası milli mədəniyyətin öyrənilməsinə misilsiz xidmət göstərə bilər.

Süni intellektin tətbiqi yeni etik və hüquqi məsələləri də gündəmə gətirir. Qlobal miqyasda müəllif hüquqları və plagiat məsələlərinə dair artan narahatlıqlar kontekstində Azərbaycanın hüquqi bazasının bu sahədə zəif olduğu sezilməkdədir. Xüsusilə vəfat etmiş sənətkarların əsərlərinin süni intellektlə təkrar istifadəsi məsələsində etik problemlərin aktuallığı vurğulanmalıdır. Mövcud və yarana biləcək problemləri aradan qaldırmaq üçün bu istiqamətdə təhsil və texnologiya savadlılığının artırılmasının əhəmiyyəti də artır. Türk tədqiqatçıları isə bu prosesi memarlıq mühitinin rəqəmsal transformasiyası kimi qiymətləndirərək qeyd edirlər ki, süni intellekt texnologiyalarının tətbiqi nəticəsində məkanlar adaptiv xüsusiyyətlər qazanaraq insan davranışına uyğunlaşa bilən dinamik strukturlara çevrilir (Yıldız, 2020). Ağıllı məkanlar, əsas etibarilə, müxtəlif sensor texnologiyaları, məlumat toplama sistemləri və süni intellekt alqoritmlərinin inteqrasiyası nəticəsində formalaşan, istifadəçi davranışlarını analiz edən və bu analizlər əsasında öz funksional parametrlərini dəyişə bilən mühitlər kimi xarakterizə olunur. Bu tip məkanların ən mühüm xüsusiyyətlərindən biri onların yüksək adaptivlik qabiliyyətinə malik olmasıdır ki, bu da mühit şəraitinin və istifadəçi

ehtiyaclarının dəyişməsi ilə paralel olaraq sistemin avtomatik şəkildə yenidən konfiqurasiya olunmasına imkan yaradır. Eyni zamanda, interaktivlik xüsusiyyəti vasitəsilə insan və texnoloji mühit arasında fasiləsiz qarşılıqlı əlaqə təmin olunur ki, bu da istifadəçi təcrübəsinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır (Həsənov, 2021). Türk alimlərinin tədqiqatlarında vurğulanır ki, bu cür sistemlər yalnız texnoloji yenilik deyil, həm də sosial və funksional transformasiyanın mühüm elementi kimi çıxış edir və insan-mühit münasibətlərinin yeni modelini formalaşdırır (Demir, 2018).

Süni intellekt texnologiyaları ağıllı məkanların formalaşmasında əsas rol oynayaraq dinamik dizayn sistemlərinin işləmə mexanizmini təmin edən fundamental komponent kimi çıxış edir. Bu sistemlər real vaxt rejimində toplanan məlumatları analiz edərək məkanın işıqlandırma, temperatur, təhlükəsizlik və digər funksional parametrlərini avtomatik şəkildə tənzimləyir və beləliklə, istifadəçi ehtiyaclarına maksimum uyğunlaşmanı təmin edir. Azərbaycan tədqiqatlarında qeyd olunur ki, bu tip sistemlər yalnız komfort səviyyəsini artırmaqla kifayətlənmir, eyni zamanda, enerji resurslarının daha səmərəli istifadəsinə şərait yaradır və bununla da iqtisadi və ekoloji baxımdan mühüm üstünlüklər təmin edir (Quliyev, 2020). Türk alimləri isə süni intellektin memarlıq dizaynında tətbiqinin layihələndirmə proseslərini sürətləndirdiyini və qərarvermə mexanizmlərini daha dəqiq və effektiv etdiyini xüsusi olaraq vurğulayırlar (Kara, 2021). Müasir urbanizasiya proseslərinin sürətlənməsi fonunda ağıllı şəhər konsepsiyası şəhər infrastrukturunun idarə olunmasında innovativ yanaşma kimi çıxış edir və nəqliyyat sistemlərinin optimallaşdırılması, enerji istehlakının azaldılması və ekoloji balansın qorunması kimi mühüm məsələlərin həllində geniş tətbiq olunur. Azərbaycan alimlərinin fikrincə, bu sistemlər

şəhər həyatının keyfiyyətinin yüksəldilməsində əsas rol oynayır (Məmmədov, 2018), ağıllı şəhərlərin sosial rifahın artırılmasına xidmət etdiyi xüsusi olaraq qeyd edilir (Çelik, 2019).

Ağıllı təhsil məkanları tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris prosesini fərdiləşdirməyə imkan verir və bu da öyrənmə effektivliyinin artmasına səbəb olur (Rzayeva, 2022). Səhiyyə sahəsində süni intellekt əsaslı sistemlərin tətbiqi xəstə monitorinqinin daha dəqiq aparılmasına, diaqnostika proseslərinin sürətləndirilməsinə və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır (Öztürk, 2020). Müasir ofis məkanlarında tətbiq olunan ağıllı sistemlər iş şəraitinin optimallaşdırılmasına, əmək məhsuldarlığının artırılmasına və işçilərin rifahının yaxşılaşdırılmasına mühüm töhfə verir (İbrahimov, 2021). Ağıllı məkanların tətbiqi bir sıra mühüm üstünlüklərlə yanaşı, müəyyən problemləri də özündə ehtiva edir. Belə ki, bu sistemlər resurslardan səmərəli istifadə, enerji qənaəti və istifadəçi yönümlü dizayn kimi üstünlüklər təqdim etsə də, məlumat təhlükəsizliyi, yüksək maliyyə və texnoloji asılılıq kimi problemlər də aktual olaraq qalmaqdadır (Ələkbərov, 2019; Demir, 2018). Gələcəkdə süni intellekt və maşın öyrənməsi texnologiyalarının daha da inkişaf etməsi nəticəsində ağıllı məkanların funksional imkanlarının genişlənəcəyi və bu sistemlərin istifadəçi davranışlarını əvvəlcədən proqnozlaşdıraraq daha proaktiv şəkildə fəaliyyət göstərəcəyi gözlənilir. Azərbaycan alimlərinin fikrincə, bu texnologiyalar şəhər planlaşdırılmasının əsas elementinə çevriləcək (Quliyev, 2020), türk tədqiqatlarında isə artırılmış və virtual reallıq texnologiyalarının dizayn prosesinə inteqrasiyası xüsusi perspektiv kimi qiymətləndirilir (Kara, 2021).

Beləliklə, aparılan təhlillər göstərir ki, ağıllı məkanlar süni intellekt texnologiyalarının tətbiqi nəticəsində formalaşan və müasir memarlıq və dizayn sahəsində mühüm yer tutan

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

innovativ sistemlərdir və onların gələcəkdə daha geniş tətbiq sahələri taparaq insan həyatının keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli rol oynayacağı gözlənilir.

## Ədəbiyyat

1. Çelik, M. (2019). *Akıllı şehirler ve geleceğin kentleri*. Beta Yayınları.
2. Demir, H. (2018). *Yapay zeka ve mimarlık*. Nobel Akademik Yayıncılık.
3. Ələkbərov, R. (2019). *Rəqəmsal texnologiyalar və müasir cəmiyyət*. Elm.
4. Həsənov, A. (2021). *Müasir informasiya sistemləri*. Təhsil.
5. İbrahimov, N. (2021). *İdarəetmədə innovativ texnologiyalar*. Elm və Təhsil.
6. Kara, F. (2021). *Dijital mimarlık ve tasarım teknolojileri*. Papatya Yayıncılık.
7. Quliyev, T. (2020). *Süni intellekt və tətbiqləri*. Elm.
8. Məmmədov, S. (2018). *Şəhərsalma və urbanizasiya problemləri*. Elm.
9. Öztürk, A. (2020). *Sağlıkta yapay zeka uygulamaları*. Seçkin Yayıncılık.
10. Rzayeva, L. (2022). *Təhsildə innovativ texnologiyalar*. Təhsil.
11. Yıldız, E. (2020). *Akıllı mekanlar ve dijital dönüşüm*. Alfa Yayınları.

**Nərmin Qocayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0000-9181-4509
narminqojayeva23@gmail.com

# Qloballaşma şəraitində onomastik dəyişikliklər və aktual problemlər

***Açar sözlər:*** *onomastika, qloballaşma, onomastik dəyişikliklər, milli kimlik, dil siyasəti, sosial-mədəni dəyişikliklər*
***Keywords:*** *onomastics, globalization, onomastic changes, national identity, language policy, socio-cultural transformations*

Onomastika dilçiliyin xüsusi sahəsi kimi insan adları (antroponimlər), yer adları (toponimlər), su obyektlərinin adları (hidronimlər) və digər xüsusi adların yaranmasını, tarixi inkişafını və funksional xüsusiyyətlərini tədqiq edir. Bu sahə yalnız adların formalaşmasını deyil, həm də onların semantik yükünü, sosial mühitdə oynadığı rolu və mədəni yaddaşla əlaqəsini araşdırır. Xüsusi adlar dilin ən sabit elementlərindən biri hesab olunsa da, zaman keçdikcə müxtəlif təsirlər nəticəsində dəyişikliklərə məruz qalır. Müasir dövrdə baş verən qloballaşma prosesləri, informasiya texnologiyalarının sürətli inkişafı və cəmiyyətin sosial və mədəni quruluşunda baş verən dəyişikliklər onomastik sistemlərə əhəmiyyətli təsir göstərir. Xüsusilə beynəlxalq əlaqələrin genişlənməsi və dillərarası qarşılıqlı təsir nəticəsində yeni ad modelləri yaranır, bəzi ənənəvi ad formaları isə tədricən arxa plana keçir. Bu dəyişikliklər təkcə dil daxilində baş verən proseslərlə məhdudlaşmır; eyni zamanda siyasi dəyişikliklər, tarixi

hadisələr və ideoloji yönümlər də xüsusi adların seçimi və istifadəsində mühüm rol oynayır. Onomastik vahidlərin dəyişməsi milli kimlik məsələsi ilə birbaşa əlaqəlidir. Çünki xüsusi adlar xalqın tarixi, mədəniyyəti və dünyagörüşü haqqında məlumat daşıyır. Bu baxımdan, adların qorunması və ya dəyişdirilməsi prosesi milli özünüdərk, mədəni irsin davamlılığı və yeni ictimai dəyərlərin formalaşması ilə sıx bağlıdır. Beləliklə, müasir mərhələdə onomastik sistemlərdə müşahidə olunan dəyişikliklər həm dilçilik, həm də sosial-humanitar elmlər kontekstində kompleks şəkildə araşdırılmalı olan aktual elmi problem kimi çıxış edir.

Onomastik dəyişikliklərin səbəbləri. Onomastik dəyişikliklər müxtəlif amillərin təsiri altında baş verir. İlk növbədə, siyasi dəyişikliklər (məsələn, dövlət quruluşunun dəyişməsi, müstəqillik əldə edilməsi) yer adlarının və şəxs adlarının yenidən adlandırılmasına gətirib çıxarır. Tarixi şəxsiyyətlərin adlarının küçə və şəhərlərə verilməsi və ya dəyişdirilməsi bu prosesin nümunəsidir. Digər mühüm faktor qloballaşmadır. Xarici dillərin təsiri nəticəsində yeni ad formaları yaranır, bəzi milli adlar isə istifadədən çıxır. Xüsusilə ingilis dilinin beynəlxalq kommunikasiya dili kimi rolu antroponim sisteminə təsir göstərərək yeni ad modellərinin yaranmasına səbəb olur. Texnologiyanın inkişafı da onomastik sistemə təsir edir. Sosial şəbəkələrdə istifadə olunan ləqəblər (niklər), istifadəçi adları və virtual identifikatorlar yeni onomastik kateqoriyalar kimi çıxış edir. Müasir dövrdə onomastik vahidlərdə standartlaşma və normativləşmə prosesi güclənmişdir. Dövlət səviyyəsində adların qeydiyyatı və istifadəsi müəyyən qanunlarla tənzimlənir. Bu isə dilin sabitliyini təmin etməklə yanaşı, milli xüsusiyyətlərin qorunmasına xidmət edir. Bununla yanaşı, urbanizasiya prosesi yeni toponimlərin yaranmasına səbəb olur. Yeni yaşayış

massivləri, prospektlər və obyektlər üçün ad seçimi həm tarixi irsə, həm də müasir tendensiyalara uyğun şəkildə həyata keçirilir. Eyni zamanda, gender məsələləri də onomastik sistemdə öz əksini tapır. Müasir cəmiyyətdə gender bərabərliyi ideyalarının yayılması qadın adlarının daha geniş istifadəsinə və bəzən uniseks adların yaranmasına səbəb olur.

*Onomastik çağırışlar və problemlər.* Müasir onomastika bir sıra çağırışlarla üz-üzədir. Bunlardan biri milli adların qorunması problemidir. Qloballaşma şəraitində bəzi ənənəvi adlar unudulmaq təhlükəsi ilə qarşı-qarşıyadır. Digər mühüm problem transliterasiya və transkripsiya məsələləridir. Xüsusi adların müxtəlif dillərdə yazılışı bəzən fərqlilik yaradır və bu da beynəlxalq kommunikasiya zamanı çətinliklərə səbəb olur. Bundan əlavə, kommersiyalaşma prosesi də onomastikaya təsir göstərir. Brend adlarının, şirkət adlarının və məhsul adlarının seçimi dil normalarından daha çox bazar prinsiplərinə əsaslanır. Bu isə bəzən dilin estetik və milli xüsusiyyətlərinin arxa plana keçməsinə səbəb olur. Müasir onomastika müxtəlif istiqamətli çağırışlarla qarşı-qarşıya qalmışdır və bu çağırışlar həm dil sisteminin daxili inkişafı, həm də xarici sosial-mədəni təsirlər ilə sıx bağlıdır. Ən aktual problemlərdən biri milli adların qorunmasıdır. Qloballaşmanın təsiri nəticəsində bir sıra ənənəvi və tarixi adlar tədricən istifadədən çıxmaqda və ya nadir hallarda işlənməkdədir. Bu isə milli onomastik irsin zəifləməsi və mədəni yaddaşın müəyyən dərəcədə itirilməsi riskini yaradır. Digər mühüm problem xüsusi adların müxtəlif dillərə ötürülməsi zamanı ortaya çıxan transliterasiya və transkripsiya fərqlilikləridir. Fərqli dil sistemlərində eyni adın müxtəlif formalarda yazılması və ya səslənməsi beynəlxalq ünsiyyət prosesində anlaşılmazlıqlara və normativ uyğunsuzluqlara səbəb ola bilir. Bu da xüsusilə rəsmi sənədləşmə və elmi mübadilə sahələrində əlavə çətinliklər yaradır. Bundan əlavə, müasir

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 48-51
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 48-51
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

dövrdə onomastik sistemə kommersiya amilləri də ciddi təsir göstərir. Brend adlarının, şirkətlərin və məhsulların adlandırılması çox vaxt dilin daxili qaydalarından çox marketinq strategiyalarına və beynəlxalq cazibədarlıq prinsipinə əsaslanır. Nəticədə, dilin estetik normaları, milli leksik xüsusiyyətləri və mədəni özəllikləri bəzən ikinci plana keçir. Bu proses isə onomastikanın həm funksional, həm də milli-mədəni aspektlərinin balansını pozaraq yeni elmi müzakirələrə ehtiyac yaradır.

Onomastik dəyişikliklər müasir cəmiyyətin sosial, siyasi və mədəni dinamikasının əksidir. Qloballaşma və texnoloji inkişaf bu sahədə yeni imkanlar yaratmaqla yanaşı, müəyyən risklər də doğurur. Milli onomastik sistemin qorunması və inkişaf etdirilməsi üçün elmi yanaşma, dövlət siyasəti və ictimai şüurun vəhdəti vacibdir. Bu baxımdan, onomastika yalnız dilçilik sahəsi deyil, həm də milli kimliyin mühüm tərkib hissəsi kimi qiymətləndirilməlidir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 52-55
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 52-55
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Niyaz İsmayılov**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0003-1879-8583
ismaylmurselov355@gmail.com

# Kamançada ifaçılıq sənətinin formalaşması

***Açar sözlər:*** *ifaçılıq sənəti, musiqi texnikası, kamança, estetik zövq, muğam*
***Keywords:*** *performing arts, musical technique, kamancha, aesthetic taste, mugham*

Kamança Azərbaycan musiqi mədəniyyətinin ən qədim və zəngin ənənələrə malik simli alətlərindən biridir. Onun ifaçılıq sənəti yalnız musiqi texnikası deyil, həm də milli düşüncə tərzinin, emosional ifadə imkanlarının və estetik zövqün formalaşmasının mühüm göstəricisidir. Kamançada ifaçılıq sənətinin formalaşması uzun tarixi inkişaf yolu keçmiş, müxtəlif mərhələlərdə təkmilləşərək bu gün yüksək peşəkarlıq səviyyəsinə çatmışdır.

Kamançanın tarixi çox qədim dövrlərə gedib çıxır. Araşdırmalar göstərir ki, bu alət ən azı 1000 ildən artıq tarixə malikdir və Yaxın Şərq regionunda geniş yayılmışdır. İlk dövrlərdə kamançaya bənzər alətlər sadə quruluşa malik olmuş, əsasən, xalq musiqisində istifadə edilmişdir. Orta əsrlərdə kamança artıq saray və şəhər mədəniyyətinə daxil olmuş, klassik musiqi məclislərinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu dövrdə alətin quruluşu və ifa texnikası tədricən təkmilləşmiş, müxtəlif bölgələrdə fərqli ifa üslubları yaranmışdır. Kamança ifaçılığının formalaşmasında ən mühüm amillərdən biri Azərbaycan muğam sənəti olmuşdur. Muğam kamançanın əsas tətbiq sahəsi kimi onun texniki və ifadə imkanlarını genişləndirmişdir. Muğamın

improvizasiya xarakteri ifaçıdan yüksək ustalıq, zəngin musiqi yaddaşı və emosional dərinlik tələb edir. Bu xüsusiyyətlər kamança ifaçılığının inkişafına birbaşa təsir etmiş, alətin ifa texnikasını daha mürəkkəb və çoxşaxəli etmişdir.

XIX əsrin ikinci yarısından etibarən xanəndəlik sənətinin inkişafı ilə kamança ifaçılığı daha da yüksəlmişdir. Bu dövrdə kamança muğam üçlüyünün əsas alətlərindən birinə çevrilmişdir. Kamança ifaçılıq sənətinin formalaşmasında ustad-şagird ənənəsi mühüm rol oynamışdır. Bu sənət nəsildən-nəslə ötürülərək inkişaf etmiş və müxtəlif ifaçılıq məktəbləri meydana gəlmişdir. Azərbaycanın müxtəlif bölgələrində – Bakı, Şuşa, Naxçıvan, Gəncə kimi mədəni mərkəzlərdə kamança ifaçılığı özünəməxsus xüsusiyyətlər qazanmışdır. Xüsusilə Qarabağ mühitində formalaşan muğam məktəbi kamança ifaçılığına güclü təsir göstərmişdir.

XX əsrdə artıq kamança ifaçılığı peşəkar səviyyədə musiqi məktəblərində və konservatoriyalarda tədris olunmağa başlanmışdır. Bu, ifaçılıq sənətinin sistemli şəkildə inkişafına şərait yaratmışdır.

Kamança ifaçılığının formalaşmasında ustad sənətkarların rolu əvəzsizdir. Bu sənətkarlar öz fərdi üslubları ilə ifaçılıq məktəblərinin inkişafına böyük töhfə vermişlər. Xüsusilə Habil Əliyev kimi sənətkarlar kamança ifaçılığını yeni mərhələyə yüksəltmiş, onun ifadə imkanlarını genişləndirmişdir. Onların fəaliyyəti nəticəsində kamança həm milli, həm də beynəlxalq səviyyədə tanınmışdır. Eyni zamanda, kamança sənəti beynəlxalq səviyyədə tanınaraq UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu, alətin və ifaçılıq sənətinin qlobal əhəmiyyətini bir daha təsdiqləyir.

Kamançada ifaçılıq sənətinin formalaşması yalnız bir musiqi alətinin inkişaf tarixi deyil, bütövlükdə xalqın estetik dünyagörüşünün, mənəvi dəyərlərinin və yaradıcılıq

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 52-55
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 52-55
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

potensialının ifadəsidir. Bu sənət əsrlər boyu müxtəlif ictimai-mədəni şəraitlərdə formalaşaraq həm ənənəyə sadiqliyini qorumuş, həm də zamanın tələblərinə uyğun şəkildə yenilənmişdir.

Xüsusilə muğam sənəti ilə qarşılıqlı əlaqə kamança ifaçılığının inkişafında həlledici rol oynamışdır. Muğamın dərin fəlsəfi məzmunu, improvizasiya azadlığı və emosional zənginliyi kamançanın texniki imkanlarını maksimum dərəcədə üzə çıxarmışdır. Nəticədə bu alət sadə müşayiət funksiyasından çıxaraq müstəqil və yüksək ifadə gücünə malik solo alət səviyyəsinə yüksəlmişdir.

Tarix boyu ustad sənətkarların fəaliyyəti kamança ifaçılıq məktəblərinin formalaşmasına və inkişafına güclü təkan vermişdir. Bu ənənənin ən parlaq nümayəndələrindən biri olan Habil Əliyev kimi ifaçılar alətin texniki və bədii imkanlarını daha da genişləndirmiş, yeni ifa üslubları yaratmış və kamançanı beynəlxalq musiqi səhnəsinə çıxarmışdır. Bu proses kamança ifaçılığının lokal çərçivədən çıxaraq qlobal mədəniyyətin bir hissəsinə çevrilməsinə səbəb olmuşdur.

Müasir dövrdə kamança ifaçılığı həm ənənəvi, həm də innovativ istiqamətlərdə inkişaf edir. Klassik muğam ifaçılığı ilə yanaşı, alətin caz, simfonik və eksperimental musiqi ilə sintezi onun ifadə imkanlarını daha da genişləndirir. Bu isə göstərir ki, kamança yalnız keçmişin mirası deyil, həm də gələcəyin inkişaf potensialına malik canlı sənət nümunəsidir.

Eyni zamanda, kamança sənətinin beynəlxalq səviyyədə tanınması və qorunması istiqamətində atılan addımlar onun mədəni irs kimi əhəmiyyətini daha da artırmışdır. Bu baxımdan UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu fakt kamançanın yalnız milli deyil, ümumbəşəri dəyər kimi qəbul olunduğunu göstərir.

Beləliklə, kamançada ifaçılıq sənəti keçmişlə bu gün arasında möhkəm bir körpü rolunu oynayır. O, milli kimliyi qoruyaraq gələcək nəsillərə ötürür, eyni zamanda, yeni yaradıcılıq axtarışları ilə zənginləşir. Bu sənətin yaşaması və inkişafı həm peşəkar ifaçıların, həm də musiqisevərlərin diqqət və qayğısından asılıdır. Kamança ifaçılığı nə qədər qorunub inkişaf etdirilərsə, Azərbaycan musiqi mədəniyyəti də bir o qədər zəngin və davamlı olacaqdır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 56-58
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 56-58
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Könül Həsənova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0000-1806-2179
hasanovaa.konul@mail.ru

# "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə türk mənşəli toponimlərin tarixi-linqvistik təhlili

***Açar sözlər:*** *toponimlər, müfəssəl dəftər, türk mənşəli toponimlər, semantika, etnotoponim*
***Keywords:*** *toponyms, detailed notebook, turkic-origin toponyms, semantics, ethnotoponym*

Cənubi Qafqaz regionu tarixən müxtəlif etnosların və dillərin qarşılıqlı təsir məkanı olmuşdur. Bu baxımdan Tiflis əyaləti həm siyasi, həm də mədəni baxımdan mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusilə Osmanlı idarəçiliyi dövründə tərtib edilmiş müfəssəl dəftərlər regionun etno-demoqrafik və toponimik quruluşunu öyrənmək üçün əsas mənbələrdən idi. Bu dəftərlərdə qeydə alınmış yer adları arasında türk mənşəli toponimlər xüsusi yer tutur və onların tarixi-linqvistik təhlili bölgənin etnik tarixinin rekonstruksiyasında mühüm əhəmiyyət daşıyır. Osmanlı dövlətinin inzibati-siyasi idarəçilik sistemində mühüm yer tutan müfəssəl dəftərlər əsasən vergi məqsədilə hazırlanmış ətraflı siyahılardır. Bu sənədlərdə kəndlər, yaylaqlar, əkin sahələri, əhali sayı və digər sosial-iqtisadi göstəricilər qeyd olunurdu. XVI əsrdə tərtib edilmiş Tiflis əyalətinə dair müfəssəl dəftər regionun həmin dövrdəki dil və etnik mənzərəsini öyrənmək üçün olduqca qiymətli mənbədir. Toponimlərin sistemli şəkildə qeyd edilməsi bu ərazilərdə yaşayan tayfaların dil xüsusiyyətlərini və mənşəyini müəyyən etməyə imkan verir.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə rast gəlinən türk mənşəli toponimlər müxtəlif struktur və semantik xüsusiyyətlərə malikdir. Bu toponimlər əsasən antroponimik (şəxs adlarından yaranmış yer adları): Əli kəndi, Həsənli; etnonimik (tayfa və ya xalq adlarından törəmiş toponimlər): Qıpçaq, Bayat; təsviri (deskriptiv) (coğrafi xüsusiyyətləri ifadə edən adlar): Qara su, Ağ bulaq; iqtisadi fəaliyyətlə bağlı (təsərrüfat və peşə adlarını əks etdirən yer adları): Dəmirçi, Çobanlı və s. kimi qruplaşdırıla bilər. Bu kateqoriyalar türk dillərinin leksik və morfoloji xüsusiyyətlərini əks etdirərək həmin dövrdə bölgədə türk dilli əhalinin geniş yayılmasını göstərir.

Toponimlərin tarixi-linqvistik təhlili zamanı onların fonetik, leksik və morfoloji quruluşu xüsusi diqqət tələb edir. Türk mənşəli toponimlərdə xüsusiyyətlər müşahidə olunur:

- "Yuxarı" və "aşağı" leksemlərinin əlavəsi ilə yaranmış toponimlər: Aşağı Almalı, Aşağı Bolnus, Yuxarı Mağara, Yuxarı Sağundar, Yuxarı Həkarçal;
- Suffiksasiya (şəkilçi sistemi) – "-lı/-li", "-lu/-lü", "-çı/-çi" kimi şəkilçilərin geniş istifadəsi ("Quşçu", "Dəmirçi", "Carçı", "Armudlu", "Kəmərli", "Çıraqlı", "Şabanlı");
- Birləşmə (kompozisiya) – iki və ya daha çox sözün birləşməsi ilə yaranan toponimlər ("Sarıqamış", "Qamışgöl").

Bu xüsusiyyətlər həmin toponimlərin türk dillərinə məxsus olduğunu və onların uzun müddət ərzində formalaşdığını göstərir.

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə olan türk mənşəli toponimlərin semantik analizinə nəzər salsaq, onların yaranma motivlərini anlamağa kömək edər. Belə ki, dəftərdə rəng bildirən komponentlər "qara", "ağ", "qızıl" çox vaxt coğrafi və ya simvolik məna kəsb edir, təbiət elementləri olan "dağ", "çay", "bulaq" ifadələri daha çox ərazinin fiziki xüsusiyyətlərini əks etdirir, sosial struktur göstəriciləri "oba", "yurd" onların köçəri

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 56-58
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 56-58
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

həyat tərzi ilə bağlı olur. Bu semantik xüsusiyyətlər göstərir ki, dəftərdə olan toponimlər yalnız coğrafi ad deyil, həm də tarixi-mədəni informasiyanın daşıyıcısı kimi əhəmiyyətlidir.

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə yer alan türk mənşəli toponimlərin çoxluğu bölgədə müxtəlif türk tayfalarının məskunlaşması ilə bağlıdır. Xüsusilə oğuz, qıpçaq və digər türk mənşəli tayfalar orta əsrlərdə bu ərazilərdə aktiv rol oynamışdırlar. Oğuz tayfaları və Qıpçaqların bölgədə iz buraxması toponimik sistemdə aydın şəkildə əks olunur. Bu toponimlər həm də regionun siyasi tarixini əks etdirir. Müxtəlif dövrlərdə baş verən miqrasiyalar, müharibələr və inzibati dəyişikliklər nəticəsində bəzi toponimlər dəyişmiş, bəziləri isə qorunub saxlanmışdır.

Zaman keçdikcə dəftərdə yer alan bəzi türk mənşəli toponimlər fonetik dəyişikliklərə uğramış və ya başqa dillərin təsiri ilə modifikasiya edilmişdir. Xüsusilə gürcü və erməni dillərinin təsiri nəticəsində bəzi adlar dəyişdirilmiş və ya adaptasiya olunmuşdur. Bununla belə, bir çox hallarda ilkin türk komponentləri qorunub saxlanmışdır. Müasir dövrdə bu toponimlərin öyrənilməsi yalnız dilçilik baxımından deyil, həm də tarix və etnoqrafiya sahələri üçün böyük əhəmiyyət kəsb edir. Onlar regionun çoxqatlı mədəni irsini anlamağa kömək edir.

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə qeydə alınmış türk mənşəli toponimlər regionun tarixi-linqvistik mənzərəsinin mühüm elementlərindən biridir. Bu toponimlərin fonetik, morfoloji və semantik təhlili göstərir ki, onlar türk dillərinin xüsusiyyətlərini aydın şəkildə əks etdirir və bölgədə türk etnoslarının uzunmüddətli mövcudluğunu təsdiq edir.

*Elm və Təhsil Tədqiqatları* **Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 59-61**
***Research in Science and Education*** **Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 59-61**
**https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026**

**Aygün Babayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0000-1806-2179
aygun.m.babayeva@sosial.gov.az

# Xəzərin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı Azərbaycanın diplomatik fəaliyyəti

***Açar sözlər:*** *Xəzər dənizi, hüquqi status, diplomatiya, fəaliyyət, enerji siyasəti*
***Keywords:*** *Caspian Sea, legal status, diplomacy, action, energy policy*

Xəzər dənizi regionu geosiyasi, geoiqtisadi və enerji resursları baxımından dünya miqyasında mühüm əhəmiyyətə malikdir. Xəzərin hüquqi statusunun müəyyən edilməsi məsələsi uzun illər boyunca sahilyanı dövlətlər arasında müzakirə mövzusu olmuşdur. Azərbaycan Respublikası bu prosesdə fəal diplomatik siyasət yürüdərək milli maraqlarını qorumağa və regional sabitliyə töhfə verməyə çalışmışdır. Mövzuda Xəzərin hüquqi statusunun formalaşma mərhələləri, Azərbaycan diplomatiyasının rolu və 2018-ci ildə qəbul edilmiş Konvensiyanın əhəmiyyəti təhlil edilir.

Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsi olmaqla yanaşı, zəngin karbohidrogen ehtiyatları ilə də seçilir. Bu səbəbdən onun hüquqi statusunun müəyyən edilməsi məsələsi yalnız regional deyil, həm də qlobal əhəmiyyət daşıyır. SSRİ-nin süqutundan sonra Xəzər sahilində yeni müstəqil dövlətlərin yaranması hüquqi rejimin yenidən müəyyən edilməsini zəruri etmişdir.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Xəzərin hüquqi statusu məsələsini xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bu istiqamətdə həyata keçirilən diplomatik fəaliyyət ölkənin enerji təhlükəsizliyi və iqtisadi inkişaf strategiyası ilə sıx bağlı olmuşdur.

1990-cı illərdən etibarən Xəzərin hüquqi statusu ilə bağlı iki əsas yanaşma formalaşmışdır:

– Xəzərin göl kimi bölünməsi (sektor prinsipi);

– Xəzərin dəniz kimi qəbul edilərək beynəlxalq hüquq normalarına uyğun tənzimlənməsi.

Azərbaycan bu məsələdə sektor prinsipinə üstünlük verərək milli sektorların müəyyən edilməsini müdafiə etmişdir.

Azərbaycanın diplomatik fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

*1. İkitərəfli və çoxtərəfli danışıqlar.* Azərbaycan Xəzəryanı dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda danışıqlar aparmışdır. Xüsusilə Qazaxıstan və Rusiya ilə dəniz dibinin bölünməsi ilə bağlı razılaşmalar əldə edilmişdir.

*2. Enerji diplomatiyası.* Azərbaycanın diplomatik fəaliyyətində enerji faktoru mühüm rol oynamışdır. “Əsrin müqaviləsi” kimi tanınan beynəlxalq neft sazişləri ölkənin Xəzərdəki hüquqi mövqeyini möhkəmləndirmişdir. Bu müqavilələr Azərbaycanın suveren hüquqlarını faktiki olaraq beynəlxalq səviyyədə tanıtmışdır.

*3. Beynəlxalq hüquq normalarının tətbiqi.* Azərbaycan BMT-nin Dəniz hüququ üzrə Konvensiyasının prinsiplərinə istinad edərək Xəzərin bölünməsinin beynəlxalq hüquqa uyğun şəkildə həyata keçirilməsini dəstəkləmişdir.

*4. Regional əməkdaşlıq təşəbbüsləri.* Azərbaycan Xəzər regionunda sabitlik və əməkdaşlığın gücləndirilməsi üçün

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 59-61
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 59-61
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

müxtəlif təşəbbüslərlə çıxış etmişdir. Bu təşəbbüslər təhlükəsizlik, ekologiya və enerji sahələrini əhatə etmişdir.

Azərbaycanın Xəzərin hüquqi statusunun müəyyən edilməsi sahəsində apardığı diplomatik fəaliyyət bir sıra mühüm nəticələr vermişdir:

- Milli sektor üzrə suveren hüquqların tanınması;
- Enerji layihələrinin həyata keçirilməsi üçün hüquqi təminatın yaradılması;
- Regional sabitliyin və əməkdaşlığın gücləndirilməsi;
- Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsi.

Bu nəticələr göstərir ki, Azərbaycan balanslaşdırılmış və praqmatik diplomatik strategiya həyata keçirmişdir.

Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi uzun və mürəkkəb diplomatik proses olmuşdur. Azərbaycan Respublikası bu prosesdə milli maraqlarını qorumaqla yanaşı, regional əməkdaşlığa da töhfə vermişdir. 2018-ci il Konvensiyası bu istiqamətdə mühüm mərhələ olmaqla yanaşı, gələcək əməkdaşlıq üçün də möhkəm hüquqi baza yaratmışdır.

Xəzərin hüquqi statusu məsələsinin ilk ortaya çıxmasından etibarən, regionun və Azərbaycanın təhlükəsizliyinin nə qədər vacib olduğu nəzərə alınaraq, Azərbaycan hökuməti beynəlxalq hüquq prinsipləri və tarixi təcrübəyə əsaslanaraq, Xəzərin göl statusunun qəbul edilməsini və orta xətt üzrə sektoral bölgü modelini dəstəkləmişdir. Azərbaycan diplomatiyası, bütün müzakirələrdə Xəzər ilə bağlı mövcud siyasi kursunu davam etdirərək, məsələnin bütün tərəflərinin dialoq yolu ilə həllinə çalışmış və bir çox müsbət nəticələr əldə etmişdir. Bu yanaşma, Xəzərin hüquqi statusu məsələsinin həlli istiqamətində Azərbaycanın məqsədyönlü xarici siyasətinin uğurlu diplomatik fəaliyyəti kimi qiymətləndirilə bilər.

**Rəqibə Paşayeva**
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0007-7631-2122
preqibe@gmail.com

# Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası: beynəlxalq təcrübə və yerli tətbiq

***Açar sözlər:*** *sağlamlıq imkanları məhdud uşaqlar,inklüzivlik, sosial reabilitasiya,beynəlxalq təcrübə, həyat keyfiyyəti*
***Keywords:*** *children with limited health possibilities, social inclusion, social rehabilitation, international experience, quality of life*

Sağlamlıq imkanı məhdud anlayışı olduqca sıx istifadə olunan termin olub bu ifadə insanın potensialınının olduğunu, lakin müəyyən sağlamlıq imkanlarına görə onlardan istifadənin məhdudlaşdığını və dəstəyə ehtiyacı olduğunu göstərir. Sağlamlıq imkanları məhdud olan şəxslər xüsusilə də uşaqlar cəmiyyətin həssas qrupunu təşkil edir, onların cəmiyyətdə müstəqil fəaliyyət göstərə bilməsi üçün dövlət siyasətində mühüm addımlar atılmışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir sıra geniş miqyaslı, xüsusilə də uşaq hüquqları ilə bağlı beynəlxalq konvensiyalara qoşulmuş və inteqrasiya prosesini sürətləndirmişdir. Azərbaycan Respublikası uşaq hüquqlarının müdafiəsi, sağlamlığı, təhsili və qidalanması üzrə yaradılmış UNİCEF-lə 1992 ci ildən etibarən sıx əməkdaşlıq əlaqələri yaratmışdır. Əlaqələrin geniş arenada aparılması dövlət siyasətində sağlamlıq imkanları məhdud və ya qismən məhdud uşaqların reabilitasiyası, təhsili, cəmiyyətə

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 62-65
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 62-65
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

inteqrasiyası kimi mühüm məsələlərə nəzər salınmasına və əsaslı işlərin görülməsi sahəsində şərait yaratmışdır. Məhdud sinifli uşaqların təhsili siyasətində inklüziv təhsil ocaqlarının yaradılması qabaqcıl təhsil siyasətinin prioritet istiqamətlərindəndir, o cümlədən digər uşaqlarla eyni və bərabər imkanlarla təhsil alınması məhdud sinfin hüququdur. Təhsil prosesində isə uşaqların məhdudiyyətləri nəzərə alınmaqla texniki vasitələr yerləşdirilməli və fərdi yanaşma prinsipinə uyğun təlim qurulmalıdır. Sosial cəmiyyətdə sağlamlıq imkanı məhdud uşaqların digər həmyaşıdları ilə eyni mühitdə olması heç də insanlar üçün təəccüblü olmamalıdır. Bu istiqamətdə təlimlərin və məlumatverici danışıqların aparılması vacibdir. Təlimlərdə əlilliyi olan şəxslərə hörmət göstərilməsinin vacibliyi, həmin şəxslərə müsbət təsəvvürün formalaşdırılması və s. fikirləri çatdırılmalıdır. Məhdud imkanlı uşaqların reabilitasiyası onların məhdudiyyətləri nəzərə alınmaqla müxtəlif formalarda aparılır. Reabilitasiyanın növlərinə aiddir: psixoloji reabilitasiya, sosial reabilitasiya, tibbi reabilitasiya. Reabilitasiya prosesində əvvəlcə uşağın tibbi, psixoloji və sosial vəziyyəti mütəxəssislər tərəfindən yoxlanılır, bu mərhələ diaqnostika mərhələsi adlanır. Aparılan diaqnostika nəticəsində uşağın hansı bacarığının inkişaf etdirilməli olduğu müəyyənləşir və konkret hədəflər qoyulur. Reabilitasiya fərdi qaydada evlərdə və ya müəssisələrdə aparılır. Sosial reabilitasiyanın əsas məqsədi sağlamlıq imkanları məhdud olan uşaqların sosial mühitə uyğunlaşması, dövlətin verdiyi hüquqlardan bərabər imkanlarla istifadə edə bilməsi, bütün vətəndaşlar üçün nəzərdə tutulmuş imkanlardan istifadə, sosial statusun bərpası, müvafiq peşə hazırlığına yiyələnmək və iş yerlərində digər yoldaşları ilə bərabər iş imkanı və s. Sosial reabilitasiya bacarıqlarının inkişaf etdirilməsindən asılı olaraq sosial-məişət, sosial-hüquqi və sosial-pedaqoji reabilitasiya olur. Məişət reabilitasiyası

mərhələsində uşağın kimsəyə möhtac olmadan yaşaması üçün ilkin bacarıqlar öyrədilir. Reabilitasiyanın bu növündə yemək yemək, şəxsi giyiyena qaydalarına əməl etmək kimi vərdişlər daxildir. Pedaqoji reabilitasiya mərhələsində rəsm, musiqi və ya oyunlar vasitəsi ilə emosional əlaqələrin qurulmasına şərait yaradılır, yaşıdları ilə birgə təhsil mühitinə adaptasiya olunur. Bu, hüquqi dəstəyin göstərilməsində olduqca vacibdir, dövlət və sosial qurumlar tərəfindən ailəyə onlara verilən imtiyazlar və güzəştlər barəsində, o cümlədən yararlanma yolları ilə əlaqədar məlumat verilir. Sosial reabilitasiya işlərinin həyata keçirilməsi məhdud şəxslərin cəmiyyətdən diskriminasiyası və stiqmatizasiyasının qarşısını almağı hədəfləyir. Uşaqlarda əqli inkişafin gizli pozuntularının qarşısını almaq və əlilliyin səviyyəsini azaltmaq məqsədi ilə dispanserizasiya həyata keçirilir, beləliklə, erkən müdaxilə edilir. Məhdud imkanlı uşaqların həyat keyfiyyətinin artırılmasında onlar üçün həmyaşıdları ilə birgə müxtəlif və əyləncəli viktorinaların təşkili, cəmiyyətdə istifadə olunan texniki vasitələrin, o cümlədən mülki şəxslər üçün nəzərdə tutulmuş nəqliyyatların hazırlanmasında məhdud imkanlı uşaqların məhdudiyyətlərinin nəzərə alınması və müyəssərliyə nail olunması, məktəbdənkənar yaradıcılıq, idman və digər kurslara gedilməsi üçün imkanların yaradılması beynəlxalq səviyyədə Azərbaycan dövləti tərəfindən həyata keçirilir. Həmçinin, dövlətimiz beynəlxalq əlaqələrin inkişaf etdirilməsində və sağlamlıq imkanları məhdud olan uşaqlara dəstəyin artırılması sahəsində geniş miqyaslı layihələr hazırlayır, onların həyata keçirilməsi üçün peşəkar kadr formalaşdırılması istiqamətində maliyyə imkanlarından səmərəli istifadə edir. Digər inkişaf etmiş dövlətlərlə bu sahədə əlaqələr beynəlxalq təcrübələrin aparılmasına şərait yaradır. Müşahidələrin nəticəsi olaraq demək olar ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlarda diqqət yetərsizliyi, qavramada çətinlik,

tez ruhdan düşmək, sosial izolyasiya (yaşıdları ilə oyun oynamaq və ünsiyyət qurmaqdan çəkinmək), göz təmasının qurulmaması kimi hallar aşkarlanıb. Diqqət yetərsizliyi uşağın müəyyən fikir ətrafında az müddət dayanması, cüzi səs və ya hərəkət baş verdikdə ağlın əsas fikirdən uzaqlaşması ilə əsaslanır. Uşaqlarda qavrama zəifliyi yaş dövrlərinə müvafiq olaraq müxtəlif səviyyələrdə özünü göstərir, lakin əlilliyi olan uşaqlar verilən məlumatı anlamaqdan imtina edirlər. Bu halların aradan qaldırılması mərhələsi mürəkkəb dövr hesab edilsə də, peşəkar mütəxəssislər düzgün həll metodlarından istifadə etməklə problemi həll edə bilərlər. Bəzən müəllimlər məktəblərdə xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləmək istəmir, belə olan halda müəllimin kifayət qədər peşə səriştəsinin olmadığı müşahidə olunur. Bu kimi halların qarşısını almaq üçün isə, ilk növbədə, peşə ixtisası dərsliklərinə, xüsusi ilə də əlilliyi olan uşaqlarla işləmək səlahiyyətinə malik şəxslərə inklüzivlik və iş prinsipləri ilə bağlı dərslər keçirilməlidir. Digər bir halda isə valideyn öz uşağının sağlamlıq imkanı məhdud olan uşaqla birgə ünsiyyət qurmasına icazə vermir, bu isə müəllimlərlə yanaşı valideynlərin cəmiyyətində inklüziv cəmiyyət barəsində maarifləndirmə işlərinin aparılmasını zəruri edir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 66-68
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 66-68
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Fidan Nağızadə**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-2303-1934
fidannagizade32@gmail.com

# Peşəkar kompetensiyaların formalaşması faktorları

***Açar sözlər:*** *peşəkar bacarıqlar, inkişaf, faktorlar, təhsil, sosial mühit, texnologiya*
***Keywords:*** *professional skills, development, factors, education, social environment, technology*

Peşəkar bacarıqların inkişafı müasir dünyada həm ayrı-ayrı mütəxəssislərin, həm də təşkilatların rəqabət qabiliyyətinin artırılmasının əsas amillərindən biri hesab olunur. Müasir əmək bazarı sürətlə dəyişən tələblərlə xarakterizə olunur və mütəxəssislərdən yalnız texniki biliklərə yiyələnmək deyil, eyni zamanda, kommunikasiya, uyğunlaşma, problemlərin həlli, komanda ilə işləmək və liderlik kimi bacarıqlara malik olmaq da tələb edilir. Bu kontekstdə peşəkar bacarıqların inkişafı bir sıra amillərdən asılıdır və bu amillərin hər biri karyera uğuruna və təşkilatın məhsuldarlığına birbaşa təsir göstərir. Təhsil peşəkar bacarıqların formalaşmasının əsas amilidir. Təhsil prosesi yalnız nəzəri biliklərin əldə olunması ilə məhdudlaşmır, həm də praktiki bacarıqların, analitik düşüncənin və problemlərin həlli qabiliyyətinin inkişafına şərait yaradır. Məsələn, mühəndislik ixtisası üzrə təhsil alan tələbələr layihəyönümlü təlim vasitəsilə müxtəlif mexanizmləri və sistemləri təhlil edir, real problemləri həll edirlər ki, bu da onların gələcəkdə peşə fəaliyyətinə uyğunlaşmasını asanlaşdırır. Eyni zamanda, biznes və idarəetmə sahəsində təhsil alan tələbələr keys-stadi metodundan istifadə edərək real şirkət nümunələri üzərində strateji qərarlar qəbul

etməyi öyrənirlər. Bu yanaşma təhsilin peşəkar bacarıqların inkişafındakı əvəzolunmaz rolunu göstərir.

Praktiki təcrübə və peşə fəaliyyəti də bacarıqların inkişafında mühüm rol oynayır. Mütəxəssislər yalnız nəzəri biliklərə əsaslanaraq peşə mühitinin tələblərini uğurla qarşılaya bilməzlər. Məsələn, staj proqramlarında iştirak edən gənc proqramçılar proqramlaşdırma, layihələrin idarə olunması və komanda işi bacarıqlarını inkişaf etdirmək imkanı əldə edirlər. Eyni zamanda, təhsil və səhiyyə sahəsində stajlar tələbələrə pasiyentlər və ya müştərilərlə işləmək, problemləri həll etmək və praktik qərarlar qəbul etmək imkanı verir. Praktiki təcrübə peşəkar çevikliyi və uyğunlaşma qabiliyyətini artırır.

Motivasiya və şəxsi inkişaf istəyi peşəkar bacarıqların formalaşmasında həlledici rol oynayır. Öyrənməyə və özünü təkmilləşdirməyə daxili maraq mütəxəssisin bacarıqlarını artırmaq üçün göstərdiyi səyləri gücləndirir. Məsələn, yeni strategiyalar və rəqəmsal alətləri daim öyrənən marketoloq öz işini daha effektiv idarə edə və şirkətin bazardakı payının artmasına töhfə verə bilər. Motivasiya eyni zamanda karyera məqsədlərinə çatmaq üçün güclü stimuldur; gələcək rəhbər əlavə təlimlər, seminarlar və mentorluq proqramları vasitəsilə bacarıqlarını sistemli şəkildə inkişaf etdirə bilər.

Texnoloji inkişaf və innovasiyalar peşəkar bacarıqların inkişafına ciddi təsir göstərir. Rəqəmsal transformasiya, avtomatlaşdırma, süni intellekt və yeni proqram təminatları iş proseslərini dəyişir və mütəxəssislərdən yeni texnologiyaları mənimsəməyi tələb edir. Məsələn, maliyyə mütəxəssisləri ənənəvi Excel hesabatları ilə yanaşı, məlumatların analizi üçün Python və ya R proqramlaşdırma dillərini öyrənirlər ki, bu da daha dəqiq və sürətli nəticələr əldə etməyə imkan verir. Eyni zamanda, qrafik dizaynerlər vizual kommunikasiya bacarıqlarını inkişaf etdirmək üçün yeni proqram vasitələrini mənimsəyirlər.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 66-68
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 66-68
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Bu, peşəkar bacarıqların inkişafı ilə texnoloji tərəqqi arasında sıx əlaqəni təsdiqləyir.

Sosial mühit və peşəkar şəbəkələr də bacarıqların inkişafında mühüm rol oynayır. Həmkarlar, rəhbərlər, mentorlar və peşəkar icmalar mütəxəssislərə bilik mübadiləsi, təcrübə paylaşımı və dəstək imkanları yaradır. Məsələn, startap mühiti müxtəlif sahələrdən olan mütəxəssisləri bir araya gətirərək yeni ideyaların müzakirəsinə, komanda işinin formalaşmasına və əməkdaşlıq bacarıqlarının inkişafına şərait yaradır. Sosial mühit eyni zamanda kommunikasiya və komanda işi bacarıqlarının inkişafına kömək edir; beynəlxalq layihələrdə iştirak edən şəxslər müxtəlif mədəniyyətlərdən olan həmkarlarla effektiv ünsiyyət qurmağı öyrənirlər.

Liderlik keyfiyyətləri və şəxsi xüsusiyyətlər peşəkar inkişafın vacib aspektlərindəndir. Liderlik, məsuliyyət, təşəbbüskarlıq və qərarvermə bacarığı mürəkkəb iş şəraitində effektiv fəaliyyət göstərməyə və komandada uğurla işləməyə imkan verir. Məsələn, layihə rəhbəri yaranan riskləri qiymətləndirir, resursları optimal şəkildə bölüşdürür və komandanın motivasiyasını layihə boyu qoruyur. Bu cür keyfiyyətlər yalnız texniki və sosial bacarıqları deyil, həm də strateji düşüncəni və təşəbbüskarlığı inkişaf etdirir.

Beləliklə, peşəkar bacarıqların inkişafı çoxamilli və qarşılıqlı əlaqəli bir prosesdir. Təhsil, praktiki təcrübə, motivasiya, texnoloji innovasiyalar, sosial mühit və liderlik keyfiyyətləri bu prosesin əsas amilləridir. Mütəxəssislərin peşəkar uğuru və təşkilatların rəqabət qabiliyyəti bu amillərin balanslı inkişafından asılıdır. Gələcək tədqiqatlar peşəkar bacarıqların inkişafını sürətləndirən spesifik metod və strategiyaların müəyyənləşdirilməsinə yönəldilməlidir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 69-71
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 69-71
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Bahar Rzayeva**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
https://orcid.org/0009-0004-5773-749X
baharrzayeva784@gmail.com

# Aztəminatlı ailələrə yönəlmiş sosial xidmət sistemində monitorinq və qiymətləndirmə mexanizmlərinin rolu və təkmilləşdirilməsi yolları

***Açar sözlər:*** *sosial xidmətlər, aztəminatlı ailələr, monitorinq mexanizmləri, qiymətləndirmə sistemi, sosial müdafiə*
***Keywords:*** *social services, low-income families, monitoring mechanisms, evaluation system, social protection*

Müasir sosial-iqtisadi şəraitdə aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış edir. Əhalinin həssas qruplarına göstərilən sosial xidmətlərin səmərəliliyi yalnız bu xidmətlərin mövcudluğu ilə deyil, eyni zamanda, onların keyfiyyətinin, əlçatanlığının və nəticəliliyinin təmin olunması ilə müəyyən edilir. Bu baxımdan sosial xidmət sistemində monitorinq və qiymətləndirmə mexanizmlərinin rolu xüsusi əhəmiyyət kəsb edir və bu mexanizmlər idarəetmənin mühüm alətlərindən biri kimi çıxış edir.

Aztəminatlı ailələrə yönəlmiş sosial xidmətlər müxtəlif sosial risklərin azaldılmasına, sosial bərabərliyin təmin olunmasına və əhalinin rifah səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bu xidmətlərin məqsədyönlü şəkildə təşkili və icrası üçün onların davamlı şəkildə izlənilməsi və qiymətləndirilməsi zəruri hesab olunur. Monitorinq prosesi vasitəsilə xidmətlərin icra vəziyyəti, resursların istifadəsi və

qarşıya qoyulmuş məqsədlərə nail olma səviyyəsi müəyyən edilir. Qiymətləndirmə mexanizmləri isə bu xidmətlərin sosial və iqtisadi təsirini ölçməyə, onların effektivliyini analiz etməyə və mövcud çatışmazlıqları üzə çıxarmağa imkan yaradır.

Sosial xidmət sistemində monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiqi şəffaflığın təmin olunmasına və idarəetmə prosesinin təkmilləşdirilməsinə şərait yaradır. Bu mexanizmlər vasitəsilə qərarların qəbul edilməsi daha əsaslandırılmış olur və resursların düzgün bölüşdürülməsi təmin edilir. Bununla yanaşı, müasir dövrdə informasiya texnologiyalarının inkişafı monitorinq prosesinin daha operativ və sistemli şəkildə həyata keçirilməsinə imkan yaradır. Elektron məlumat bazalarının yaradılması və statistik məlumatların təhlili sosial xidmətlərin idarə olunmasında yeni imkanlar açır.

Mövcud şəraitdə sosial xidmət sistemində monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiqi bir sıra problemlərlə müşayiət olunur. Bu problemlər institusional mexanizmlərin yetərli səviyyədə formalaşmaması, məlumatların toplanması və təhlili sisteminin zəifliyi, eləcə də müasir qiymətləndirmə metodlarının tam tətbiq olunmaması ilə bağlıdır. Bu amillər sosial xidmətlərin effektivliyinin azalmasına və onların real nəticələrinin obyektiv qiymətləndirilməsinin çətinləşməsinə səbəb olur. Bu baxımdan aztəminatlı ailələrə yönəlmiş sosial xidmət sistemində monitorinq və qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi mühüm elmi və praktiki əhəmiyyət kəsb edir. Bu istiqamətdə aparılan tədqiqatlar sosial siyasətin effektivliyinin artırılmasına, xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və sosial müdafiə sisteminin daha səmərəli fəaliyyət göstərməsinə şərait yaradır.

Aparılan təhlil əsasında müəyyən edilir ki, aztəminatlı ailələrə yönəlmiş sosial xidmət sistemində monitorinq və qiymətləndirmə mexanizmləri xidmətlərin effektivliyinin təmin

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

olunmasında və sosial siyasətin nəticəliliyinin artırılmasında mühüm rol oynayır. Bu mexanizmlər vasitəsilə sosial proqramların icra səviyyəsi izlənilir, əldə olunan nəticələr qiymətləndirilir və mövcud problemlər vaxtında müəyyən edilir. Bu, idarəetmə prosesinin daha səmərəli təşkilinə və qərarların daha əsaslandırılmış şəkildə qəbul olunmasına imkan yaradır.

Monitorinq sisteminin inkişafı sosial xidmətlərin şəffaflığının artırılmasına və resurslardan istifadənin optimallaşdırılmasına şərait yaradır. Məlumatların sistemli şəkildə toplanması və təhlili xidmətlərin real təsirinin qiymətləndirilməsinə imkan verir və bu proses sosial proqramların təkmilləşdirilməsi üçün mühüm əsas yaradır. Bu istiqamətdə informasiya texnologiyalarının tətbiqi və elektron idarəetmə sistemlərinin inkişafı monitorinq prosesinin operativliyini və dəqiqliyini artırır.

Sosial xidmət sistemində mövcud olan problemlərin aradan qaldırılması üçün monitorinq və qiymətləndirmə mexanizmlərinin institusional əsaslarının gücləndirilməsi vacib hesab olunur. Bu çərçivədə məlumat bazalarının inkişaf etdirilməsi, müasir qiymətləndirmə metodlarının tətbiqi və kadr potensialının artırılması xüsusi əhəmiyyət kəsb edir. Bu tədbirlər sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və onların ünvanlılığının təmin olunmasına şərait yaradır. Aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması üçün monitorinq və qiymətləndirmə mexanizmlərinin davamlı olaraq təkmilləşdirilməsi zəruridir. Bu sosial xidmət sisteminin daha dayanıqlı və səmərəli fəaliyyət göstərməsinə imkan yaradır və əhalinin həssas qruplarının həyat şəraitinin yaxşılaşdırılmasına mühüm töhfə verir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 72-75
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 72-75
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Şəbnəm Həşimli**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-4448-9663
sebnemhesimli@gmail.com

# Sintaktik əlaqələrin tədrisi və morfologiya ilə qarşılıqlı əlaqəsi

***Açar sözlər:*** *sintaktik əlaqələr, tabesizlik əlaqəsi, tabelilik əlaqəsi, morfologiya, morfoloji göstəricilər*
***Keywords:*** *syntactic relations, coordination (relationship), subordination (relationship), morphology, morphological markers*

Söz birləşməsində və cümlədə sözlər bir-biri ilə iki əsas cəhətdən bağlı olur: birincisi, məna (semantik) baxımından, ikincisi isə qrammatik (m orfoloji və sintaktik) baxımdan. Sözlər arasında məna əlaqəsi dedikdə, obyektiv aləmdə mövcud olan əşyalar, hadisələr və onların müxtəlif xüsusiyyətləri arasındakı münasibətlər nəzərdə tutulur. Yəni dil vahidləri arasındakı bu əlaqə real həyatda mövcud olan əlaqələrin dil vasitəsilə ifadəsidir. Məsələn, "quş uçur" birləşməsində əşya ilə onun icra etdiyi hərəkət arasında əlaqə mövcuddur. "Yaxşı quş" birləşməsində əşya ilə onun keyfiyyəti, "on quş" birləşməsində isə əşya ilə onun kəmiyyəti arasında məna bağlılığı yaranır. Bu nümunələr göstərir ki, sözlər arasında əlaqə təsadüfi deyil, müəyyən məntiqə və reallığa əsaslanır.

Ümumilikdə, sözlər arasındakı məna əlaqələrini qruplaşdırdıqda onları dörd əsas növə ayırmaq mümkündür. Bu bölgü sözlərin ifadə etdiyi məzmun və onların bir-biri ilə yaratdığı münasibətlərin xarakterinə əsaslanır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 72-75
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 72-75
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Qrammatik əlaqə də iki qrupa bölünür: tabesizlik əlaqəsi və tabelilik əlaqəsi. Şagirdlər tabelilik və tabesizlik anlayışlarını düzgün mənimsəmədikdə, sintaktik əlaqələrin necə qurulduğunu və nitqdə hansı funksiyanı yerinə yetirdiyini tam başa düşə bilmirlər. Bu isə cümləni üzvlərə ayırarkən onların çətinliklərlə qarşılaşmasına səbəb olur. Çünki cümlə üzvlərinin müəyyənləşdirilməsi birbaşa sözlər arasındakı əlaqələrin düzgün dərk olunmasından asılıdır.

Söz birləşmələrini və cümlələri yaradan sözlər məna və sintaktik baxımdan əlaqələnir.

Sintaktik əlaqənin 2 növü var: tabesizlik və tabelilik əlaqəsi.

Tabesizlik əlaqəsi ilə bağlanan sözlərin biri digərinə tabe olmur, hər biri aid olduğu sözlə əlaqələnir: Apar, özün apar cəbhəyə bizi, Apar qəlbimizi, iradəmizi (S.Vurğun). Hər iki söz "apar" sözü ilə əlaqələnir. Qaydanı izah etdikdən sonra nümunələrlə daha ətraflı formada izah edirik.

Tabelilik əlaqəsində olan sözlərdən biri digərindən asılı olur. Bu asılılıq, adətən, ismin hal, mənsubiyyət, xəbərlik şəkilçiləri vasitəsilə yaranır. Məs.: asılı tərəf: Niyazinin sənəti; Türkiyədən qayıtdı; əsas tərəf: Mən soruşdum; Bahar gəldi; Səhər açıldı cümlələrində mən, bahar, səhər sözləri əsas, soruşdum, gəldi, açıldı sözləri isə asılı tərəfdir.

Tabesizlik və tabelilik əlaqəsi haqqında ümumi məlumatlar verildikdən sonra tabelilik əlaqəsinin növləri haqqında məlumat və izah veririk.

Sintaktik əlaqələrin tədrisi zamanı ən böyük çətinliklərdən biri də uzlaşma, yanaşma və idarə əlaqələrinin özünəməxsus xüsusiyyətlərini şagirdlərə aydın şəkildə izah etməkdir. Bu əlaqə növlərinin hər biri fərqli qaydalar əsasında qurulduğuna görə, onların fərqləndirilməsi və praktik şəkildə tətbiqi şagirdlər üçün bəzən çətin olur. Buna görə də müəllim bu anlayışları yalnız nəzəri şəkildə deyil, həm də müxtəlif nümunələr və tapşırıqlar

vasitəsilə izah etməlidir ki, şagirdlər onları nitqdə sərbəst şəkildə istifadə edə bilsinlər.

Uzlaşma əlaqəsi mənimsədilərkən, ilk növbədə, şagird şəxs və kəmiyyət məfhumları ilə bağlı morfologiyadan öyrəndiklərini xatırlamalı, uzlaşmanın onların qarşılıqlı münasibətindən törədiyini bilməlidir. Yaxşı olar ki, “yaranmışam, yaranmısan, yaranmışdır, yaranmısınız, yaranmışıq, yaranmışlar sözlərindən şəxs əvəzliklərinin də iştirak etdiyi cümlələr qurun” tapşırığını icra etdirməklə xəbərin şəxsə, kəmiyyətə görə mübtəda ilə uzlaşmasını başa salmaq, cümlələrdəki xəbər və mübtədaların uzlaşması fonunda tabe, tabeedici tərəfi də dəqiqləşdirmək lazımdır. Azərbaycan dilində şəxsə görə uzlaşmanın daimi, dəyişməz olduğunu bilən, bu konstruksiyada tabe və tabeedici tərəfi müəyyənləşdirən şagird gələcəkdə üslubi səhvlərə də yol verməyəcəkdir.

İdarə əlaqəsinin obyekt və relyativ əlaqəli birləşmələr arasında olduğu, ismin hal kateqoriyasının bu əlaqədə müstəsna iştirakı şagirdə çatdırılmalıdır. Yarışdan qaytmaq, onu sevindirmək, yaxşını pisdən ayırmaq, onuncuları mükafatlandırmaq, oxumağı bacarmaq, ağlayana gülmək, yaxında olmaq kimi birləşmələrə diqqəti yönəltməklə şagirdlərə başa salmaq olar ki, idarə əlaqəsi ilə yaranan birləşmələrdə tabe edən tərəf, əsasən, feillərdən ibarət olur. Ancaq feillər də ismin yiyəlik halı ilə əlaqədar olmur və onu idarə etmir. Feil olmayan nitq hissələri ilə idarə (Mahmudun anası, tablonun gözəli, tələbələrdən biri) də unudulmamalıdır. Şagirdlərə tabeedici sözlər təqdim etməklə idarə əlaqəsi ilə formalaşan birləşmələr yaratmağı tələb etmək müxtəlif variantlı cavablar üzrə praktik işə imkan yaradar.

Formal qrammatik vasitələrin iştirak etmədiyi yanaşma əlaqəsini isə uzlaşma və idarə əlaqəsindən sonra mənimsətmək asandır. Müəllim şagirdlərinə anlatmalıdır ki, əgər birləşmədə

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 72-75
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 72-75
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

əvvəl öyrəndiyimiz sintaktik əlaqələr yoxdursa, birləşmədəki əlaqə yanaşmadır. Yanaşma ismin ismə (dəmir qapı, qızıl saat), sifətin ismə (paxıl adam, gənc qız), sayın ismə (ikinci il, onuncu sinif), əvəzliyin ismə (bu oyun, hansı tədbir?), feli sifətin ismə (vuran əl, döyünən ürək), məsdərin ismə (oynamaq həvəsi, tutulmaq xəbəri) yanaşmasından başqa digər nitq hissələrinin də bir-birinə yanaşması ilə də (çox zəif, beş yüz, indi gəldi və s.) formalaşır.

Beləliklə, tabelilik əlaqələrinin növlərini izah edən zaman morfoloji vahidləri də şagirdlərə xatırladıb, qaydanı daha yaxşı mənimsətmiş oluruq.

**Çinarə Quliyeva**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0005-0071-6572
quliyevacinare1611@gmail.com

# Biologiyanın tədrisində estetik tərbiyənin şəxsiyyətin formalaşmasına təsiri

***Açar sözlər:*** *biologiya, estetik tərbiyə, şəxsiyyətin formalaşması, ekoloji mədəniyyət, yaradıcılıq, təlim metodları*
***Keywords:*** *biology, aesthetic education, personality formation, ecological culture, creativity, teaching methods*

Müasir təhsilin əsas məqsədi şəxsiyyətin harmonik inkişafını təmin etməkdir. Bu inkişaf intellektual, əxlaqi, fiziki və estetik komponentlərin vahidliyindən ibarətdir. Biologiya fənni təbiətin canlılığını öyrədən ən əsas fənlərdən biri kimi estetik tərbiyənin formalaşmasında xüsusi rol oynayır. Estetik tərbiyə isə gözəlliyi dərk etmək, təbiətə qarşı incə hisslər formalaşdırmaq, yaradıcılıq qabiliyyətini inkişaf etdirmək deməkdir. Bu tezis biologiyanın tədrisində estetik tərbiyənin şəxsiyyətin harmonik inkişafına göstərdiyi təsiri nəzəri və praktiki aspektlərdən araşdırır.

Biologiya dərsləri təbiətin ən gözəl təzahürləri ilə doludur: çiçəklərin simmetrik quruluşu, quşların nəğməsi, mikroskop altında hüceyrənin rəngarəng dünyası, ekosistemlərin ahəngdarlığı. Bu elementlər sadəcə elmi faktlar deyil, eyni zamanda, estetik təsir vasitəsidir. Müəllim təbiətə ekskursiyalar təşkil edərək, şagirdlərə canlı nümunələr göstərərək, onların estetik qavrayışını formalaşdıra bilər. Məsələn, bitki morfologiyasını öyrənərkən şagirdlərə çiçəklərin rəng və

formalarını rəsm etdirmək, ya da heyvanların davranışlarını müşahidə edərkən onların "gözəlliyini" müzakirə etmək estetik tərbiyənin birbaşa tətbiqidir.

Estetik tərbiyənin şəxsiyyətin harmonik inkişafına təsiri çoxşaxəlidir:

1. *Emosional inkişaf.* Təbiətin gözəlliyini hiss etmək şagirdlərdə müsbət emosiyalar yaradır, stressi azaldır, empatiya qabiliyyətini artırır. Psixoloji araşdırmalar göstərir ki, təbiətlə bağlı estetik təcrübə emosional intellektin yüksəlməsinə səbəb olur.

2. *Yaradıcılıq və idrak.* Biologiyada estetik yanaşma (məsələn, canlıların rəngarəngliyini rənglərlə, musiqilərlə əlaqələndirmək) şagirdlərin yaradıcı təfəkkürünü stimullaşdırır. Bu, sadəcə bilik yığmaq deyil, həm də yeni ideyalar yaratmaq bacarığını inkişaf etdirir.

3. *Əxlaqi və ekoloji məsuliyyət.* Gözəl təbiətə qarşı hörmət formalaşanda şagirdlərdə ətraf mühitə qayğı, ekoloji etika yaranır. Bu, şəxsiyyətin əxlaqi komponentini gücləndirir.

4. *Fiziki və sosial harmoniya.* Təbiətə çıxışlar, kollektiv müşahidələr fiziki aktivliyi artırır, komanda işini öyrədir və sosial bacarıqları inkişaf etdirir. Beləliklə, biologiya dərsi vasitəsilə estetik tərbiyə bütün şəxsiyyət sferalarını əhatə edir.

Praktikada bu təsiri gücləndirmək üçün müəllimlər interaktiv metodlardan istifadə etməlidir:

- Mikroskop altında hüceyrə və toxumaların "gözəlliyini" rəngli foto və rəsmlərlə müşayiət etmək;
- "Təbiətin estetikası" adlı layihələr (şagirdlər tərəfindən bitki və ya heyvanların fotoalbomlarının hazırlanması);
- İncəsənətlə inteqrasiya (biologiya mövzularını əks etdirən şeirlər, musiqi parçaları).

Belə yanaşma şagirdlərin yalnız bilik səviyyəsini yox, həm də daxili dünyasını zənginləşdirir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 76-78
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 76-78
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Biologiyanın tədrisində estetik tərbiyənin həyata keçirilməsi şagirdlərin hərtərəfli inkişafına xidmət edir. Təbiətin gözəlliyini dərk edən şagirdlər daha həssas, məsuliyyətli və yaradıcı fərdlər kimi formalaşırlar. Bu baxımdan müəllim biologiya dərslərində yalnız elmi biliklərin ötürülməsi ilə kifayətlənməməli, həm də estetik komponentləri sistemli şəkildə tətbiq etməlidir. Bunun üçün vizual materiallardan geniş istifadə, təbiət ekskursiyalarının təşkili, interaktiv və layihə əsaslı təlim metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 79-82
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 79-82
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Nübar Qubadlı**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0007-3615-0376
nubarqubadli03@gmail.com

# Sintaktik əlaqələrin nitq bacarıqlarının formalaşmasında rolu

***Açar sözlər:*** *sintaktik əlaqələr, nitq bacarıqları, psixoloji təsir, kommunikasiya, tədris*
***Keywords:*** *syntactic relations, speech skills, psychological impact, communication, teaching*

Sintaktik əlaqələr dil sisteminin əsas struktur elementlərindən birini təşkil edir. Bu əlaqələr söz birləşmələri və cümlələr arasında həm məna, həm də qrammatik bağlılıq yaradaraq nitqin məntiqli və anlaşıqlı formada qurulmasını təmin edir. Nitq bacarıqlarının formalaşmasında sintaktik əlaqələrin rolu böyükdür. Belə ki, insan fikrini ifadə edərkən sözləri təsadüfi şəkildə yox, müəyyən məntiqi və qrammatik qaydalara əsasən birləşdirir. Bu qaydalar sintaksisin əsasını təşkil edir. Sintaktik əlaqələr olmadan nitq nizamsız, anlaşılmaz və kommunikativ baxımdan natamam qalır.

Qəzənfər Kazımov və Buludxan Xəlilov sözlər arasındakı əlaqələri iki əsas qrupa – məna əlaqəsi və qrammatik əlaqəyə bölürlər. Dilçi alimlərimizin qeyd etdiyi kimi, bu əlaqələr vasitəsilə sözlər bir araya gətirilərkən yazılı və şifahi nitqdə fikrin adekvat şəkildə ifadəsi mümkün olur.

Sintaktik əlaqələr məktəb proqramında termin kimi əsasən VIII sinifdən tədris olunsa da (Azərbaycan dili dərsliyində bu mövzu sadəcə iki səhifədə lakonik şəkildə izahı verilib), sözlərin

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 79-82
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 79-82
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

cümlə halında qurulması prosesi ibtidai siniflərdən başlayır. Şagirdlər Azərbaycan dilini ilk növbədə təbii mühitdə (makro mühitdə) qəbul etsələr də, təlim-tədris prosesində onun qrammatik quruluş qaydalarını sistemli şəkildə mənimsəyirlər.

Azərbaycan dilçiliyində sintaktik əlaqələr iki əsas növə ayrılır: tabesizlik əlaqəsi və tabelilik əlaqəsi. Tabesizlik əlaqəsi tərəflərin bərabərhüquqlu olmasını nəzərdə tutur (məsələn, həmcins üzvlər və tabesiz mürəkkəb cümlələrdə). Tabelilik əlaqəsi isə üç əsas formada təzahür edir:

1. Uzlaşma – sözlər qrammatik göstəricilər (şəxs, say, mənsubiyyət) üzrə bir-birinə uyğunlaşır (məs.: *mənim kitabım*, *bizim evimiz*);
2. İdarə – əsas söz asılı sözü müəyyən hal şəkilçisi ilə tələb edir (məs.: *kitabı oxumaq*, *evə getmək*, *dostuma demək*);
3. Yanaşma – heç bir qrammatik şəkilçi olmadan yalnız məna əsasında bağlılıq yaranır (məs.: *daş divar*, *gözəl qız*, *tez-tez gedirdi*).

Bu əlaqə növlərinin hər biri nitqdə xüsusi funksiya daşıyır. Uzlaşma əlaqəsi sözlərin bir-birilə uyğunlaşmasını tələb edir. Məsələn, özündən bəhs edən biri ona aid əşyanı, cümləni formalaşdıran xəbəri birinci şəxsin təkində işlətməlidir: Mən kitabımı onlara hədiyyə etdim. Başqa bir nümunə: Onlar gəldi, bizi görüb getdi. Burada mübtədamız üçüncü şəxsin cəmindədir, lakin xəbərlərimiz təkdə işlənib. Artıq uyğunluq, uzlaşma pozulub. Həmçinin, idarə əlaqəsində yol verilən səhvlər cümləni anlaşılmaz edir: "Məşqçi futbolçulara söhbət etdi" əvəzinə "Məşqçi futbolçularla söhbət etdi" olmalıdır. Belə səhvlər ünsiyyət prosesini əhəmiyyətli dərəcədə çətinləşdirir.

Nitq bacarıqlarının inkişafında düzgün cümlə qurma bacarığı əsas şərtlərdən biridir. Şagirdlər əvvəlcə sadə cümlələr qurmağı öyrənir, sonra mürəkkəb cümlə quruluşlarına keçid edirlər. Bu proses mərhələli xarakter daşıyır və sintaktik

əlaqələrin sistemli mənimsənilməsi ilə sıx bağlıdır. Sintaktik əlaqələr, eyni zamanda, şagirdlərin məntiqi düşüncəsinə və psixoloji inkişafına əhəmiyyətli dərəcədə təsir edir.

Psixoloji cəhətdən sintaktik bacarıqların inkişafı şagirdlərdə özünəinam və özünəhörmət hisslərinin formalaşmasında mühüm rol oynayır. Ə.Bayramov və Ə.Əlizadə qeyd edirlər ki, ünsiyyət prosesi şəxsiyyətin sosial inkişafının əsas mexanizmlərindən biridir və ünsiyyət maneələri emosional gərginlik, sosial passivlik və özünəinamın aşağı düşməsinə səbəb ola bilər. Sosial psixologiyada ünsiyyətin uğurlu olması üçün fikirlərin məntiqli və anlaşıqlı şəkildə ifadə edilməsi vacib şərtlərdən biri kimi qəbul edilir. Bu kontekstdə sintaktik əlaqələrin düzgün qurulması şagirdin fikirlərini sərbəst ifadə etmək qabiliyyətini artırır, bu da onun ünsiyyət zamanı narahatlıq və qorxu hissini əhəmiyyətli dərəcədə azaldır. Əksinə, sintaktik əlaqələri düzgün qura bilməyən şagird tez-tez "cümlə qura bilmirəm", "fikrimi deyə bilmirəm" düşüncəsi ilə üzləşir. Bu vəziyyət nitq qorxusu, utancaqlıq və sosial narahatlıq hisslərinin yaranmasına səbəb olur. Nəticədə şagird fikirlərini ifadə etməkdən çəkinir, dərsdə passiv qalır və zaman keçdikcə cəmiyyətdən təcrid olunma riski artır.

Müşahidələr göstərir ki, hazırda bir çox məktəbli və abituriyent fikirlərini sərbəst ifadə etməkdə ciddi çətinlik çəkir. Bu problemin əsas səbəblərindən biri məhz sintaktik əlaqələri düzgün qura bilməmələridir. Sintaktik səhvlər şagirdlərdə daimi uğursuzluq hissi yaradır, bu da onların motivasiyasını aşağı salır və öyrənmə prosesinə mənfi təsir göstərir.

Bu problemin həlli üçün ilk növbədə sintaktik əlaqələrin terminləri şagirdlərə aydın şəkildə təqdim edilməlidir. Qaydanın izahı ilə yanaşı, praktik məşğələlər debatlar, müzakirələr, esse və məktub yazma kimi fəaliyyətlərlə tamamlanmalıdır. Müasir tədris metodları, xüsusilə kommunikativ yanaşma sintaksisi

*Elm və Təhsil Tədqiqatları* **Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 79-82**
***Research in Science and Education*** **Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 79-82**
**https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026**

sadəcə forma kimi yox, real ünsiyyət vasitəsi kimi öyrətməyə imkan yaradır. İnteraktiv dərslər, texnoloji vasitələr və aktiv tapşırıqlar şagirdlərin marağını artırır və öyrənmə prosesini daha səmərəli edir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 83-85
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 83-85
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Rüqəyya Ağayeva**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-6183-708X
agayevaruqayye04@gmail.com

# Heydər Əliyevin irsində tərbiyə məsələləri

***Açar sözlər:*** *Heydər Əliyev, tərbiyə, gənclər, milli-mənəvi dəyərlər, vətənpərvərlik*
***Keywords:*** *Heydar Aliyev, upbringing, youth, national-moral values, patriotism*

Müasir dövrdə gənc nəslin düzgün tərbiyəsi hər bir dövlətin sosial və mədəni inkişafının mühüm şərtlərindən biri hesab olunur. Cəmiyyətin gələcək inkişafı gənclərin mənəvi keyfiyyətlərindən, bilik səviyyəsindən və vətənə bağlılığından birbaşa asılıdır. Bu baxımdan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi və ideoloji irsində tərbiyə məsələləri xüsusi yer tutur. Onun fəaliyyətində gənclərin milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər və yüksək intellektual səviyyəyə malik vətəndaşlar kimi formalaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Heydər Əliyev gənclərin tərbiyəsini yalnız pedaqoji məsələ kimi deyil, eyni zamanda dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi qiymətləndirirdi. Onun fikrincə, müstəqil dövlətin davamlı inkişafı və möhkəmlənməsi üçün gənc nəslin yüksək mənəvi keyfiyyətlərə malik olması zəruridir. Bu səbəbdən gənclərin milli ruhda tərbiyəsi, onların vətənə, dövlətə və xalqına sədaqət ruhunda yetişdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ümummilli lider çıxışlarında dəfələrlə qeyd etmişdir ki, hər bir xalqın gələcəyi onun gəncliyindən asılıdır və gənclər cəmiyyətin

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

aparıcı qüvvəsidir. Heydər Əliyevin tərbiyə konsepsiyasında milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi mühüm yer tutur. O hesab edirdi ki, gənclər öz xalqının tarixi keçmişini, milli mədəniyyətini və dövlətçilik ənənələrini dərindən bilməli, bu dəyərlərə hörmətlə yanaşmalıdırlar. Milli kimliyin qorunması və inkişaf etdirilməsi gənclərin düzgün tərbiyəsi ilə sıx bağlıdır. Bu baxımdan təhsil müəssisələrində milli tarix və mədəniyyətin öyrədilməsi, gənclərin milli ideologiya əsasında tərbiyə olunması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Ümummilli liderin tərbiyə ilə bağlı ideyalarında ailə və məktəbin rolu da xüsusi vurğulanır. Onun fikrincə, insanın şəxsiyyət kimi formalaşması ilk növbədə ailədə başlayır. Ailə uşağın mənəvi dünyasının formalaşmasında, onun əxlaqi keyfiyyətlərinin inkişafında mühüm rol oynayır. Məktəb isə bu prosesin davam etdirilməsini təmin edir və gənclərin bilik, bacarıq və dünyagörüşünün formalaşmasına şərait yaradır. Buna görə də Heydər Əliyev təhsil sisteminin inkişafına xüsusi diqqət yetirmiş, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi və müəllimlərin sosial statusunun yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Heydər Əliyevin irsində gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi mühüm yer tutur. O vurğulayırdı ki, vətənpərvərlik hər bir vətəndaşın əsas mənəvi keyfiyyətlərindən biridir. Gənclər öz dövlətinə və xalqına sadiq olmalı, ölkənin inkişafı və müdafiəsi naminə məsuliyyət hissi daşımalıdırlar. Bu məqsədlə gənclərin milli tarix və dövlətçilik ənənələri haqqında məlumatlandırılması, onların vətənə sevgi və hörmət ruhunda tərbiyə olunması vacib hesab edilirdi. Vətənpərvərlik tərbiyəsi gənclərin vətəndaş mövqeyinin formalaşmasında mühüm rol oynayır və onların cəmiyyətin fəal üzvünə çevrilməsinə kömək edir. Heydər Əliyevin irsində tərbiyənin digər mühüm istiqaməti

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

gənclərin yüksək mənəvi keyfiyyətlərə malik şəxsiyyət kimi formalaşdırılmasıdır. O hesab edirdi ki, gənclər yalnız bilikli deyil, həm də yüksək əxlaqi dəyərlərə malik olmalıdırlar. Dürüstlük, ədalətlilik, humanizm, əməksevərlik və məsuliyyət kimi keyfiyyətlər gənclərin mənəvi dünyasının əsasını təşkil etməlidir. Bu keyfiyyətlərin formalaşdırılması cəmiyyətin sağlam inkişafı və sosial sabitliyin təmin olunması baxımında n mühüm əhəmiyyət daşıyır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 86-88
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 86-88
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Nəzrin Əlizadə**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-8703-1562
alizadenezrin03@gmail.com

# Yuxarı sinif şagirdlərinin sosiallaşmasında ətraf mühitin rolu

***Açar sözlər:*** *sosiallaşma, yuxarı sinif, mühit, ailə, məktəb, həmyaşıdlar, sosial bacarıqlar, ictimai-mədəni təsir*
***Keywords:*** *socialization, high school, environment, family, school, peers, social skills, socio-cultural influence*

Yuxarı sinif şagirdlərinin sosiallaşması cəmiyyətə inteqrasiya, şəxsiyyətin inkişafı və sosial davranış normalarının mənimsənilməsi prosesi kimi nəzərdən keçirilir. Bu proses yalnız məktəbdə deyil, həm də ailədə, həmyaşıdlar arasında, məktəb mühitində və daha geniş ictimai-mədəni mühitdə baş verir. Xüsusilə bu mərhələ yuxarı sinif şagirdləri üçün böyük əhəmiyyət kəsb edir, çünki məhz bu dövrdə onlar müstəqil qərarlar qəbul etməyə başlayır, məsuliyyət hissini inkişaf etdirir, sosial rolları dərk edir və özünüifadə bacarıqlarını təkmilləşdirirlər. Şagirdin sosial inkişafında mühit: ailə, məktəb, həmyaşıdlar və ictimai təsirlər strateji rol oynayaraq bir-birini tamamlayır və uşağın şəxsiyyətini formalaşdırır.

Ailə sosiallaşmanın ilk və əsas mühitidir. Uşaqlar valideynlərin davranışlarını müşahidə edir və onları təqlid edirlər. Valideynlər arasında hörmət və sağlam ünsiyyətin mövcudluğu uşağın sosial davranış modellərinə birbaşa təsir göstərir. Məsələn, əgər valideynlər evdə bir-birinə hörmətlə yanaşırsa, uşaq da bu prinsipləri müəllimlər və sinif yoldaşları ilə münasibətlərində tətbiq edir. Əksinə, ailədə tez-tez

münaqişələr və aqressiv davranış müşahidə olunarsa, uşaq da bu cür davranışları sosial mühitdə təkrarlaya bilər. Yuxarı sinif şagirdləri üçün valideynlərin açıq ünsiyyəti dəstəkləməsi xüsusilə vacibdir. Əgər valideynlər uşağın fikrini nəzərə alır və onu ailə qərarlarının qəbuluna cəlb edirlərsə, şagird özünə inamını möhkəmləndirir və sosial məsuliyyət hissini inkişaf etdirir. Məsələn, ailə alış-verişi zamanı hansı məhsulların alınacağını birlikdə müzakirə etmək uşağın həm məntiqi düşüncəsini, həm də sosial davranış bacarıqlarını inkişaf etdirir.

Məktəb şagirdlərin sosiallaşmasında ikinci əsas institutdur. Burada uşaq müəllimlər və həmyaşıdlarla qarşılıqlı əlaqəyə girir, komanda işində iştirak edir və sosial davranış normalarını mənimsəyir. Məsələn, qrup layihələrinin hazırlanması zamanı şagirdlər birlikdə işləyir, mövzunu təqdim edir, əməkdaşlıq etməyi, fikir ayrılıqlarını həll etməyi, vaxtı idarə etməyi və liderlik keyfiyyətlərini inkişaf etdirməyi öyrənirlər. Məktəb həm də etik və sosial dəyərlərin formalaşdığı bir platformadır. Sinif qaydalarına riayət etmək, tapşırıqları vaxtında yerinə yetirmək və konstruktiv ünsiyyət qurmaq şagirddə məsuliyyət hissini inkişaf etdirir. İctimai layihələr və könüllü fəaliyyətlər şagirdləri əməkdaşlığa təşviq edir, sosial məsuliyyətlərini artırır və sosial davranış normalarını mənimsəmələrinə kömək edir. Məsələn, ekoloji aksiyalarda və sosial layihələrdə iştirak şagirdləri ictimai dəyərlərlə tanış edir və onları fəal vətəndaş kimi formalaşdırır.

Həmyaşıdların və dost mühitinin təsiri də yuxarı sinif şagirdlərinin sosiallaşmasında çox böyük rol oynayır. Həmyaşıd qrupları norma və dəyərlərin mənimsənilməsinə ciddi təsir göstərir. Məsələn, idman komandasında iştirak edən şagird qələbə və ya məğlubiyyət zamanı komanda yoldaşları ilə düzgün ünsiyyət qurmağı, əməkdaşlıq etməyi və məsuliyyət daşımağı öyrənir. Eyni zamanda, qayda pozuntularını təşviq edən mənfi qrupların təsiri şagirdin sosial bacarıqlarına mənfi təsir göstərə

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 86-88
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 86-88
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

bilər. Müsbət həmyaşıd mühiti isə həm akademik, həm də sosial bacarıqların inkişafına şərait yaradır. Məsələn, birgə layihə üzərində işləmək şagirddə komanda işi bacarıqlarını və sosial məsuliyyət hissini gücləndirir.

Bundan əlavə, şagirdin sosiallaşması ictimai və mədəni mühitlə sıx bağlıdır. Sosial şəbəkələr, kütləvi informasiya vasitələri, mədəni tədbirlər və ictimai layihələr şagirdlərin dünyagörüşünü genişləndirir və sosial bacarıqlarını zənginləşdirir. Muzeylərə, teatrlara getmək, konfranslarda və ictimai aksiyalarda iştirak etmək şagirdlərdə empatiya, tənqidi düşüncə və sosial məsuliyyət hissini inkişaf etdirir. Sosial şəbəkələr müxtəlif mədəni və sosial təcrübələri müşahidə etmək imkanı yaratsa da, valideyn və müəllim nəzarəti olmadan mənfi təsirlər də göstərə bilər. İctimai-mədəni mühit xüsusilə yuxarı sinif şagirdləri üçün vacibdir, çünki onlar artıq sosial və mədəni tədbirlərdə müstəqil iştirak etməyə başlayırlar. Məsələn, könüllü ekoloji layihələrdə iştirak şagirdlərə praktiki bacarıqlar qazandırır və əməkdaşlıq, sosial məsuliyyət kimi dəyərləri mənimsəmələrinə kömək edir.

Beləliklə, yuxarı sinif şagirdlərinin sosiallaşmasında mühitin rolu çoxşaxəli və strateji əhəmiyyətlidir. Ailə, məktəb, həmyaşıd qrupları və ictimai-mədəni mühit birlikdə şagirdin şəxsiyyətini, dəyərlər sistemini və sosial bacarıqlarını formalaşdırır. Sağlam və dəstəkləyici sosial mühit özünüifadə, əməkdaşlıq və məsuliyyətin inkişafına şərait yaradır və şagirdi cəmiyyət üçün faydalı bir fərd kimi yetişdirir. Buna görə də pedaqoji və sosial siyasətdə mühitin optimallaşdırılması, inteqrativ və praktik yönümlü proqramların hazırlanması, sosial layihələrin təşkili və həmyaşıd təsirinin düzgün istiqamətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Düzgün təşkil olunmuş mühit şagirdlərin həm şəxsi, həm də sosial inkişafını sürətləndirərək onları gələcək həyata hazırlayır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 89-92
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 89-92
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Çingiz Məmmədzadə**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0005-4210-8479
chingiz.mamedzade.tarlan@gmail.com

# Rusiya-Ukrayna arasında ziddiyyətlərdə NATO amili

***Açar sözlər:*** *Rusiya-Ukrayna müaharibəsi, NATO, geosiyası dəyişikliklər, enerji təhlükəsizliyi, Şərqi Avropa, genişlənmə siyasəti*
***Keywords:*** *Russia-Ukraine war, NATO, geopolitical changes, energy security, Eastern Europe, enlargement policy*

Rusiya-Ukrayna münasibətlərində NATO amili əsas gərginlik mənbələrindən biri kimi çıxış edir. Alyansın genişlənmə siyasəti və Ukraynanın NATO ilə inteqrasiya cəhdləri Rusiyanın təhlükəsizlik narahatlıqlarını artırmış, nəticədə regionda qarşıdurma dərinləşmişdir.

Bu vəziyyət klassik təhlükəsizlik dilemmasının müasir təzahürü kimi qiymətləndirilə bilər. Tərəflər arasında etimadsızlıq və geosiyasi rəqabət münaqişənin həllini çətinləşdirir və uzunmüddətli sabitliyin təmin olunmasını mürəkkəbləşdirir.

Aparılan araşdırma onu göstərir ki, NATO faktoru Rusiya-Ukrayna münasibətlərində mövcud olan ziddiyyətlərin yaranması və dərinləşməsində əsas struktur amillərdən biri kimi çıxış edir. Soyuq müharibədən sonrakı mərhələdə Avropa təhlükəsizlik sistemində meydana gələn boşluğun NATO tərəfindən genişlənmə siyasəti vasitəsilə doldurulması Rusiyada ciddi strateji narahatlıq doğurmuşdur. Bu təhlükə qavrayışı

xüsusilə Ukrayna məsələsində daha qabarıq şəkildə özünü göstərmişdir, çünki Ukrayna həm coğrafi mövqeyi, həm tarixi bağlılıqları, həm də hərbi-strateji əhəmiyyəti baxımından Rusiya üçün xüsusi önəm daşıyır.

1990-cı illərdən etibarən NATO Şərqi Avropa ölkələrini öz sıralarına qəbul etməyə başlamışdır. Polşa, Macarıstan və Çexiyanın alyansa qoşulması ilə başlayan bu proses sonradan Baltikyanı ölkələr və digər dövlətlərin də üzvlüyü ilə davam etmişdir. Bu genişlənmə Qərb tərəfindən demokratik transformasiyanın və təhlükəsizlik təminatlarının genişləndirilməsi kimi izah edilsə də, Rusiya bunu öz təsir dairəsinə müdaxilə kimi qiymətləndirmişdir. Bu kontekstdə NATO-nun genişlənməsi Rusiya ilə Qərb arasında strateji etimadsızlığın əsas mənbələrindən birinə çevrilmişdir.

Ukraynanın NATO ilə əməkdaşlığı 1990-cı illərin ortalarından başlamışdır. 2008-ci ildə keçirilmiş Buxarest sammitində Ukraynanın gələcəkdə NATO üzvü olacağı bəyan edilsə də, konkret üzvlük tarixi müəyyən edilməmişdir.

2014-cü ildə baş verən hadisələrdən sonra Ukrayna NATO ilə münasibətlərini daha da intensivləşdirmiş, hərbi islahatlar həyata keçirmiş və alyans standartlarına uyğunlaşmağa çalışmışdır. 2022-ci ildən sonra isə bu əməkdaşlıq yeni mərhələyə qədəm qoymuş, Ukraynaya genişmiqyaslı hərbi və texniki dəstək göstərilmişdir.

Rusiya NATO-nu öz milli təhlükəsizliyinə birbaşa təhdid kimi qiymətləndirir. Moskvanın rəsmi mövqeyinə görə, alyansın Şərqə doğru genişlənməsi strateji balansı pozur və Rusiyanın sərhədləri yaxınlığında hərbi infrastrukturun yerləşdirilməsinə səbəb olur.

Rusiya rəhbərliyi xüsusilə Ukraynanın NATO-ya üzvlüyünü qəbuledilməz hesab edir. Bu yanaşma Rusiyanın xarici siyasət

doktrinasında mühüm yer tutur və regionda baş verən hadisələrin izahında əsas amillərdən biri kimi çıxış edir.

NATO amili Rusiya-Ukrayna münaqişəsinin eskalasiyasında mühüm rol oynamışdır. 2014-cü ildə Krımın ilhaqı və Donbas bölgəsində baş verən hadisələr, həmçinin, 2022-ci ildə başlayan genişmiqyaslı müharibə bu kontekstdə qiymətləndirilə bilər. Qərbin Ukraynaya göstərdiyi hərbi dəstək və NATO ilə əməkdaşlığın dərinləşməsi Rusiyanın daha sərt addımlar atmasına səbəb olmuşdur. Digər tərəfdən, Rusiyanın hərbi əməliyyatları NATO-nun regiondakı mövcudluğunu daha da gücləndirməsinə gətirib çıxarmışdır.

NATO amilinin Rusiya-Ukrayna münasibətlərində oynadığı rol beynəlxalq təhlükəsizlik sisteminə də ciddi təsir göstərmişdir. Bu təsirlər aşağıdakı istiqamətlərdə özünü göstərir:

- Yeni bloklaşma meyillərinin güclənməsi;
- Hərbi xərclərin artması;
- Enerji və iqtisadi təhlükəsizlik problemlərinin dərinləşməsi;
- Beynəlxalq hüquq və institutların effektivliyinin azalması.

Bu proseslər göstərir ki, NATO amili yalnız regional deyil, qlobal səviyyədə nəticələr doğuran faktordur.

Ukraynanın NATO ilə əməkdaşlığının mərhələli şəkildə inkişaf etməsi tərəflər arasında etimadsızlığı daha da artırmışdır. Rusiya bu prosesi Qərbin postsovet məkanında təsir imkanlarını genişləndirməsi kimi qiymətləndirərək öz milli təhlükəsizliyinə yönəlmiş təhdid kimi qəbul etmişdir. Ukrayna isə əksinə, NATO ilə inteqrasiyanı öz suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsi üçün əsas vasitə kimi görmüşdür. Bu fərqli təhlükəsizlik yanaşmaları tərəflər arasında kompromis imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 89-92
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 89-92
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Nəticə etibarilə, Rusiya-Ukrayna ziddiyyətlərinin aradan qaldırılması və ya yumşaldılması perspektivlərini NATO amilini nəzərə almadan dəyərləndirmək mümkün deyil. Tərəflərin təhlükəsizlik maraqlarının qarşılıqlı şəkildə qəbul edilməsi və regional təhlükəsizlik sisteminin yenidən formalaşdırılması olmadan davamlı həll perspektivi zəif görünür. Bu baxımdan, NATO faktoru həm münaqişənin yaranma səbəblərindən biri, həm də onun davamlılığını təmin edən əsas elementlərdən biri kimi elmi təhlildə xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, NATO amili Rusiya-Ukrayna münaqişəsinin həm səbəblərindən biri, həm də onun davamlılığını təmin edən əsas faktor kimi çıxış edir. Bu amilin düzgün qiymətləndirilməsi regionda sülh və təhlükəsizliyin bərpası üçün mühüm əhəmiyyət kəsb edir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 93-95
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 93-95
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Rəfiqə İmanzadə**
Lənkəran Dövət Universiteti
magistrant
https://orcid.org/0009-0003-0460-280X
imanova.refiqe035@icloud.com

# Publisistik və elmi-kütləvi mətnlərin tədrisi

***Açar sözlər:*** *publisistik üslub, oxuyub anlama bacarıqları, idrak fəallığı, elmi-kütləvi mətnlər, məlumatlandırıcı mətnlər*
***Keywords:*** *publicistic style, reading comprehension skills, cognitive activity, popular science texts, informational texts*

Publisistik və elmi-kütləvi mətnlərin tədrisi müasir təhsil sistemində şagirdlərin həm dil bacarıqlarını, həm də dünyagörüşünü inkişaf etdirən strateji istiqamətlərdən biridir. Tədrisin ilkin mərhələsi şagirdlərin bu iki mətn növü arasındakı fərqləri dərk etməsinə yönəlməlidir:

Publisistik mətnlər: Təsiretmə, inandırma və ictimai rəy formalaşdırma funksiyası daşıyır. Burada emosionallıq və obrazlılıq ön plandadır.

Elmi-kütləvi mətnlər: Mürəkkəb elmi məlumatların geniş kütlə üçün anlaşılan dildə izahıdır. Burada məqsəd öyrətmək və məlumatlandırmaqdır.

Publisistika (latınca “publicus” sözündən götürülüb “ictimai” deməkdir) - cəmiyyət həyatının bugünkü aktual problemlərinə həsr olunmuş mətn növüdür. İbtidai siniflərdə şagirdlərin yaş və anlaq səviyyəsinə uyğun olaraq belə mətnlərin oxusunun təşkili onlarda dünyagörüşünün formalaşmasına təsir göstərir. Bu cür mətnlər ictimai-siyasi ədəbiyyatda, radio və televiziya verilişlərində, qəzet və jurnallarda istifadə olunur. Publisistik mətnlərlə tanışlıq şagirdlərdə fakt və ya problem

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

haqqında bədii, obrazlı təsəvvür yaratmaqla, bədii-publisistik janrda yazılmış mətnlər (esse, oçerk, felyeton) haqqında ilkin anlayışlar formalaşdırır.

Elmi-kütləvi mətnlər elmi biliklərin geniş oxucu kütləsinə sadə, anlaşıqlı və maraqlı şəkildə çatdırılmasına xidmət edən mətn növüdür. Bu tip mətnlərdə mürəkkəb elmi anlayışlar sadələşdirilir, terminlər izah olunur və mövzu oxucunun səviyyəsinə uyğun formada təqdim edilir. Məqsəd yalnız məlumat vermək deyil, həm də oxucuda elmə maraq yaratmaqdır. Elmi-kütləvi mətnlər əsasən qəzet və jurnallarda, dərsliklərdə, ensiklopediyalarda, internet resurslarında istifadə olunur. Bu mətnlər vasitəsilə insanlara təbiət hadisələri, texnologiya yenilikləri, tibb sahəsində nailiyyətlər və digər elmi mövzular barədə məlumat verilir. Bu mətnlərin dili sadə, aydın və obrazlı olur. Burada həm elmi üslubun dəqiqliyi, həm də bədii üslubun ifadəliliyi müəyyən qədər özünü göstərir. Müəllif faktlara əsaslanır, lakin fikirlərini oxucunun marağına uyğun şəkildə təqdim edir. Statistik məlumatlar, müqayisələr, nümunələr və maraqlı faktlardan geniş istifadə edilir. I-IV siniflərin “Azərbaycan dili” dərsliklərinə daxil edilən materialların xarakterinə görə iki yerə bölünür: 1. Elmi-kütləvi mətnlər; 2. Bədii mətnlər.

I-IV siniflərin dərsliklərində hekayə-oçerk üslubunda yazılmış elmi-kütləvi materiallar verilmişdir ki, buraya təbiət və coğrafiyaya, tarixə aid mətnlər daxildir. Belə mətnlərin verilməsində başlıca məqsəd şagirdləri ətraf aləmlə tanış etmək, hadisələr barədə bilik verməkdir. Elmi-kütləvi mətnlərin öyrədilməsi bir tərəfdən şagirdlərin oxu vərdişinin inkişafına kömək edir, digər tərəfdən də tarixə və təbiətə aid praktik biliklər verir.

Bədii mətnlər insanın hiss və düşüncələrini obrazlı şəkildə ifadə edən mətn növüdür. Bu mətnlərdə hadisələr, insanlar və

həyat hadisələri təsvir edilir. Bədii mətnlərin əsas məqsədi oxucuya estetik zövq vermək, onu düşündürmək və təsirləndirməkdir.

Bədii mətnlərdə məcazlar, epitetlər, təşbehlər, bənzətmələr və digər bədii ifadə vasitələrindən istifadə olunur. Onların dili emosional, təsirli və obrazlı olur. Bədii mətnlərə nağıl, hekayə, roman, povest, şeir, poema və dram əsərləri daxildir. Bu mətnlər insanın mənəvi dünyasının zənginləşməsində mühüm rol oynayır.

Nəticə olaraq, elmi-kütləvi mətnlər elmi biliklərin cəmiyyətə çatdırılmasında mühüm vasitədir. Onlar mürəkkəb məlumatları sadə və anlaşıqlı şəkildə təqdim edərək insanların maariflənməsinə, elmə marağının artmasına və dünyagörüşünün genişlənməsinə böyük töhfə verir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 96-101
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 96-101
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Arzu Rəşidli**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-5828-6491
residliarzu@gmail.com

# Azərbaycan dilində kommunikativ tipli frazeoloji ifadələrin funksional xüsusiyyətləri

***Açar sözlər:*** *frazeologiya, kommunikativ frazeologizmlər, obrazlılıq, leksika, cümlə tipli frazeologizmlər*
***Keywords:*** *phraseology, communicative phraseologisms, figurativeness, lexicon, sentence-type phraseologisms*

Azərbaycan dili qədim tarixi olan və zəngin dil sisteminə malik dillər sırasına daxildir. Bu dilin zənginliyi və ifadə imkanlarının genişliyi xüsusi izaha ehtiyac duymayan bir həqiqət kimi qəbul olunur. Ana dilimizin bu xüsusiyyəti daha çox onun leksik tərkibində özünü göstərir. Dilimizin gücünü və ifadə imkanlarını müəyyənləşdirən əsas xüsusiyyətlərdən biri də leksikologiya bölməsinin özəyini təşkil edən frazeologiya fondudur. Azərbaycan dilindəki frazeoloji vahidlər onun leksik sisteminin ən dəyərli və ifadə baxımından zəngin qatını təşkil edir. Bu vahidlər tükənməz məna çalarlarını özündə birləşdirərək dilin canlılığını və ifadə gücünü nümayiş etdirir. Frazeoloji ifadələrdə xalqın ruhu, milli düşüncə tərzi və əsrlər boyu formalaşaraq bu günə qədər qorunub saxlanılan adət-ənənələr əks olunur. Eyni zamanda, xalqın həyat tərzi, məişəti, mənəvi və maddi mədəniyyəti, dünyagörüşü, eləcə də fəlsəfi, estetik, etik və didaktik baxışları bu ifadələrdə öz əksini tapır. Bundan əlavə, mübarizlik, vətənpərvərlik, humanizm kimi keyfiyyətlər də frazeoloji vahidlər vasitəsilə ifadə olunur.

*Elm və Təhsil Tədqiqatları* **Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 96-101**
***Research in Science and Education*** **Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 96-101**
**https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026**

Azərbaycan dilində elə frazeoloji vahidlər mövcuddur ki, onlar kommunikativ funksiya yerinə yetirir və quruluş baxımından cümlə xarakteri daşıyır. Bu tip vahidlər kommunikativ frazeologizmlər və ya cümlə tipli frazeologizmlər kimi adlandırılır. Qeyd etmək lazımdır ki, bu qrupa daxil olan frazeologizmlər bəzən predikativ frazeologizmlər adı ilə də təqdim olunur.

Kommunikativ frazeologizmlər, yəni cümlə tipli frazeoloji vahidlər həm məzmun, həm də forma baxımından cümlə ilə uyğunluq təşkil edir və tamamlanmış fikri, bütöv bir məlumatı ifadə edir. Bildiyimiz kimi, frazeologizmlər də özü-özlüyündə frazeoloji (sabit) söz birləşmələri və frazeoloji sabit ifadə və ibarələr olmaqla 2 yerə bölünür. Frazeoloji birləşməni təşkil edən sözlərin bir qisminin məcazi, digər qisminin isə həqiqi mənada (bəzən isə çoxunun həqiqi mənada) işlədilməsi nəticəsində formalaşan və əsasən ədəbi dilin bədii üslubunda istifadə olunan obrazlı birləşmələr *frazeoloji ibarələr* adlanır.

Frazeoloji ibarələr, əsas etibarilə, cümlə quruluşuna malik birləşmələrdən ibarət olur. Məsələn:

Eldar – *Möhtərəm şairə salamlar olsun.*
*Bu dünya var olduqca o da mövcud olsun.*
Qaçar – *Mənim vicdanım da, qəlbim də qan içindədir.*
*Dünya qan üzərində qurulmuş bir xanımlıqdır.* (S.Vurğun).

Bu tip ibarələr daha çox bədii ədəbiyyatda, xüsusilə dram janrında işlədilir və müəyyən üslubi xüsusiyyətlərlə səciyyələnir.

Azərbaycan dilinin frazeologiyası tədqiq olunan zaman bəzi müəlliflər atalar sözləri və məsəlləri frazeologiya bölməsinə daxil etdiyi halda, bəzi müəlliflər müəyyən səbəblərə görə frazeologiya bölməsinə aid etmirlər. Məsələn, Həsrət Həsənovun fikrinə görə, hal-hazırda frazeologiya dilçiliyin müstəqil sahəsi kimi yox, leksikologiyanın bir bölməsi kimi

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 96-101
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 96-101
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

tədris olunduğundan onun həcmini atalar sözləri, məsəllər, aforizmlər, hikmətli sözlərlə genişləndirmək doğru deyildir. Əks halda, sözün ekvivalenti olan frazeoloji (sabit) söz birləşməsindən başqa, atalar sözləri, məsəllər, hikmətli sözlər, frazem xüsusiyyətli birləşmələri əlavə etmək olardı. Əlbəttə ki, frazeoloji birləşmələrin atalar sözləri, məsəllər və s. tipli ifadələrlə oxşar xüsusiyyətləri var, bunlara nümunə olaraq, nitqdə hazır şəkildə mövcud olmalarını, mənaca bütövlüklərini, obrazlı, emosional olmalarını götürmək olar. Bunu da qeyd etmək lazımdır ki, frazeoloji birləşmələr atalar sözləri və məsəllərin strukturlarına, mənalarına və işlədilməsinə görə fərqlənir.

Həsrət Həsənovdan fərqli olaraq, Səlim Cəfərov: "Atalar sözlərini sabit söz birləşmələrinə şərti olaraq daxil etmək olar" – deyə, belə bir qənaətə gəlmişdir.

Quruluş və məna baxımından hikmətli sözlərə bənzəsələr də, müəyyən xüsusiyyətlərinə görə onlardan fərqlənirlər. Məsələn, hikmətli sözlər yazılı ədəbiyyata aid olduğu halda, atalar sözləri xalq ədəbiyyatına məxsusdur və onların konkret müəllifi məlum olmur.

Atalar sözləri müəyyən ibrətamiz məzmun daşıyan fikirləri qısa, obrazlı və tamamlanmış formada ifadə edir. Nəcəf bəy Vəzirov öz əsərlərinin bir qisminin adlarında atalar sözlərini əks etdirmişdir: *"Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük", "Daldan atılan daş topuğa dəyər", "Nə əkərsən, onu da biçərsən", "Örtülü bazar, dostluğu pozar", "Köhnə hamam, köhnə tas", "Şirin dil ilanı yuvasından çıxarar"* və s.

Zərbi-məsəllər də mənasına və strukturuna görə atalar sözlərinə bənzəyir, bəzən onları ayırmaq da çətin olur, ancaq zərbi-məsəllərdə fikir tam şəkildə ifadə olunur və sonda bir nəticəyə gəlinir. Əlavə olaraq, zərbi-məsəllər müəyyən bir hədəfi güdür, hər hansı bir şəxsin xüsusiyyətini göstərmək üçün

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 96-101
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 96-101
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

dilimizdə istifadə olunur. Məsələn, *"Dəyirman xoruzuna oxşayır", "Gəldi qaşın qayırsın, vurdu gözün çıxartdı", "Nadiri taxtda görüb, Süleymanı qundaqda", "Qız qızıl alma, qızı gözdən salma", "Tülkü tülkülüyünü sübut edincə, dərisini boğazından çıxarmaq" və s.* Həmçinin, cümlə tipli frazeologizmlər quruluş baxımından sadə və mürəkkəb olmaqla 2 yerə bölünür. Sadə cümlə tipli frazeoloji vahidlər özlüyündə cüttərkibli və təktərkibli olaraq qruplara ayrılır. Sadə cüttərkibli geniş cümlə quruluşlu frazeoloji vahidlərə nümunə olaraq: *"Dostdan çox düşmən var", "Başa gələni ayaq çəkər", Pul yerdən yığılır", "Yel qayadan nə apardı?", "Köhnə bazara təzə nırx qoymaq", "Haqqın tərəzisi qu tükünün vəznini çəkir", "Bu dərdi fil belə çəkməz", "Sünbülündən su damır", "Şaqqulu bəzəkli qaldı", "Yurdunda bayquşlar ulayır"* və s.

Sadə cüttərkibli müxtəsər cümlə tipli frazeoloji vahidlərə nümunə olaraq aşağıdakı misalları göstərmək olar: *"Yuvası dimdiyindədir", "Başı işləmək", "Kəllə atmaq", "Kim kimədir", "İz buraxmaq", "Kasıblığın üzü qara olsun", "Keçinin buynuzu çatlayır", "İş çıxartmaq", "Fələyin çarxı dönüb" və s.* Sadə cümlə quruluşlu frazeologizmlərin cərgəsinə təktərkibli frazeoloji ifadələr olan cümlələri də daxil etmək olar. Məsələn: *Başı axmaq; Heç hənanın yeridir; Başını verməyə hazır olmaq; Fikrə gəlmək; Dırnağına belə dəyməz; Başından böyük danışmaq; Dil qəfəsə qoymamaq; Başına daş düşmək; Kölgəsində dolanmaq; "İlan boğan vaxtıdır"* və s.

Eyni şəkildə mürəkkəb cümlə strukturlu frazeoloji ifadələr də tabeli və tabesiz olmaqla 2 yerə ayrılır. Tabesiz mürəkkəb cümlə quruluşlu frazeoloji ifadələr: *"Ağıllı kamal istər, ağılsız camal", "Baş dolu, cib boş", "Dəlilər dünyanı yedi, ağıllı indi cüt qoşur", " Gedər qılınc yarası, getməz dil yarası", "Dili də var, dilçəyi də", "Yel əsib, qoz tökülüb", "Yersiz gəldi, yerli, qaç", "Tutar qatıq, tutmaz ayran", "Üstü bəzək, altı təzək",*

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

*"Toyu gördü, tərəngə yadından çıxdı", "Şələni qoy, gəl dalaşaq"* və s.

Tabeli mürəkkəb cümlə strukturlu frazeoloji ifadələrə aşağıdakı nümunələri göstərə bilərik: *Dərdə ağlamağa nə var ki, bir də qətrə-qətrə yandırmağı var; Saqqalın ağarıbsa da, ağlın ağarmayıb; Dəyirmanın boğazından (başından) ölü salsan, ayağından diri çıxar; O, od olub məni yandırmaq istəsə, mən su olub onu keçirərəm; Qonaq ev yiyəsinin dəvəsidir, harada bağlasa, orda durar; Nə hava çalsalar, oynayır; Milçək uçsa, səsi eşidilər; "Qu desən, qulaq tutular"* və s.

Beləliklə, Azərbaycan dilinin lüğət sistemi sabit söz birləşmələri ilə olduqca zəngindir. Ayrı-ayrı sözlər kimi, bu cür birləşmələr də dilin lüğət tərkibinin inkişafında mühüm rol oynayır. Bu isə frazeologiya ilə leksikanın bir-biri ilə sıx bağlı olduğunu göstərir. Frazeoloji ifadələr milli xüsusiyyət daşıyır və hər dilin özünəməxsus ifadə vasitələri mövcuddur. Bu birləşmələr xalqın həyat tərzini, psixoloji durumunu, dünyaya baxışını, sevinc və kədərini, sevgi və nifrətini, eləcə də müxtəlif xarakter xüsusiyyətlərini özündə əks etdirir. Ona görə də frazeoloji vahidləri öyrənmək və anlamaq, əslində, xalqın tarixini və milli xarakterini dərk etmək deməkdir.

Atalar sözləri və zərbi-məsəllər kommunikativ baxımdan tamamlanmış fikir bildirən cümlələr kimi çıxış edir. Bununla yanaşı, zərbi-məsəllər, aforizmlər və qanadlı sözlər leksik mənaya malik sözlər əsasında formalaşır. Frazeoloji ifadələrdə komponentlərin heç biri xüsusi məntiqi vurğu daşımır və onlar aktual üzvlənməyə də tabe olmur. Bəzi hallarda yalnız az sayda atalar sözləri sırf məcazi məna ifadə edir və bu tip ifadələr semantik və sintaktik baxımdan cümlə üzvlərinə ayrılmır.

Müxtəlif adlarla tanınan atalar sözləri, zərbi-məsəllər, aforizmlər, idiomlar və digər sabit ifadələr dil sistemində oxşar funksiyaya malikdir. Bu ifadələr eyni məzmunu ifadə edir,

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 96-101
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 96-101
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

yadda qalır və uyğun məqamlarda qeyri-ixtiyari şəkildə xatırlanır. Onların əsasında dərin məna və fəlsəfi düşüncə dayanır, insanı düşündürür və cəmiyyət tərəfindən maraqla qəbul olunur. Eyni zamanda, bu ifadələr öyrədici və tərbiyəvi xüsusiyyət daşıyır, insanlar tərəfindən gündəlik həyatda istifadə olunur. Fikrimizcə, belə xüsusiyyətlərə malik olan ifadələrin frazeoloji vahid kimi qəbul olunması məsələsində heç bir problem yoxdur.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 102-107
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 102-107
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Fidan Məmmədova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-8706-0443
f.memmedova2222@gmail.com

# Gənclərdə emosional stressin idarə olunması və tənzimlənmə mexanizmləri

***Açar sözlər:*** *emosional stress, gənclik, emosional tənzimləmə, stressin idarə olunması, emosional intellekt, sosial dəstək, adaptasiya*

***Keywords:*** *emotional stress, youth, emotional regulation, stress management, emotional intelligence, social support, adaptation*

Gənclik dövrü uşaqlıq və yetkinlik arasındakı keçid mərhələsidir və bu mərhələdə insan bioloji, psixoloji və sosial baxımdan böyük dəyişikliklər yaşayır. Yeni sosial rollara və məsuliyyətlərə uyğunlaşmaq, şəxsiyyət kimi özünü dərk etmək və gələcəklə bağlı gözləntiləri formalaşdırmaq gənclərin üzləşdiyi əsas çağırışlardır. Bu dəyişikliklər həm sosial münasibətlər, həm də akademik fəaliyyətlə bağlıdır. Universitetə və ya iş həyatına keçid zamanı fərdlər yeni təhsil tələblərinə, müstəqil yaşama və yeni sosial şəbəkələrə uyğunlaşmağa çalışırlar. Gənclərin bu mərhələdə emosional vəziyyəti onların psixoloji rifahına birbaşa təsir edir; sosial dəstəyin azlığı, tədris prosesində çətinliklər və ailədən uzaq qalmaq kimi faktorlar emosional gərginliyi artırır. Zəif adaptasiya motivasiya itkisinə və hətta təhsildən ayrılmağa səbəb ola bilər. Buna görə gənclərdə emosional stressin idarə olunması və tənzimlənmə mexanizmlərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Emosional stress, orqanizmin daxili və xarici təsirlərə verdiyi qeyri-spesifik cavab kimi xarakterizə olunur və gənclər arasında psixoloji sağlamlığa təsir edən ən mühüm problemlərdəndir. Stressin müasir tədqiqatlarda fərdi və kontekstual faktorların qarşılıqlı təsirinin nəticəsi olduğu vurğulanır. Eyni stressorla qarşılaşan iki gəncin reaksiyası fərqli ola bilər; biri çətin vəziyyəti adaptiv şəkildə idarə edə bildiyi halda, digəri uzunmüddətli psixoloji gərginlik və somatik simptomlar yaşayır. Bu fərqlər gənclərin şəxsi xüsusiyyətləri, həyat təcrübəsi və mövcud resursları ilə əlaqəlidir. Stressin transaksional modeli stressi subyektiv qiymətləndirmə prosesi kimi izah edir: hadisənin təhlükəli və ya idarəolunan olması barədə fərdin düşüncələri emosional reaksiyaya təsir göstərir. Bu səbəbdən, stressin idarə olunması yalnız xarici stressorların aradan qaldırılması ilə deyil, həm də fərdin daxili mənbələrinin gücləndirilməsi ilə bağlıdır.

Gənclərin emosional stress səviyyəsinə təsir edən əsas amillərdən biri akademik və peşə təzyiqləridir. Universitetə yeni daxil olan tələbələr dərs yükü, qiymətləndirilmə sistemi, özünü idarə etmək və gələcək karyera ilə bağlı həyəcan kimi məsələlərlə üzləşirlər. Nigar Hüseynovanın ali məktəbə yeni qəbul olmuş tələbələr üzərində apardığı tədqiqatda göstərilir ki, tədris prosesində çətinlik yaşayan, sosial dəstək almayan və ailədən uzaq qalan birinci kurs tələbələrinin emosional rifahı pisləşir və bu, təhsil göstəricilərinin azalmasına səbəb olur. Əksinə, ailə dəstəyi, dostluq münasibətləri və universitetin psixoloji xidmətlərinə çıxış tələbələrin adaptasiyasını asanlaşdırır. Akademik stressə psixoloji yanaşmada vaxtın idarə olunması, imtahan strategiyalarının öyrədilməsi və özünə güvənin artırılması kimi müdaxilələr gənclərin emosional tənzimləmə bacarıqlarını gücləndirir.

Şəxsiyyət xüsusiyyətləri stressin necə yaşandığını və emosiya tənzimləmə strategiyalarının seçilməsini müəyyən edir. Böyük Beşlik şəxsiyyət modelinə görə tərbiyəyə açıqlıq, məsuliyyətlilik, ekstraversiya, xoşrəftarlıq və nevrotizm fərdlərin stressə reaksiyasını təsvir edən əsas ölçülərdir. Ekstraversiya sosial dəstəyi aktiv şəkildə axtarmağa, xoşrəftarlıq isə əməkdaşlıq yönümlü öhdəliklərə yönəldir. Bu model emosional tənzimləmə strategiyalarının şəxsiyyətlə necə əlaqələndiyini göstərir: yüksək nevrotizmli gənclər yayınma və emosiyaların yatırılması kimi maladaptiv strategiyalara meyilli olur, məsuliyyətli və ekstravert gənclər isə koqnitiv yenidənqiymətləndirmə və problemə yönəlmiş öhdəliklərdən istifadə edirlər. Bu fərqlər stresslə mübarizədə bir universal yanaşmanın olmadığını, şəxsiyyət strukturunun nəzərə alınmasını tələb etdiyini vurğulayır. Emosional stressi idarə etməyin effektiv yollarından biri emosional tənzimləmə bacarıqlarının inkişafıdır. Tədqiqatlar göstərir ki, prokrastinasiya səviyyəsi aşağı olan gənclər təşviş, stress və depressiya kimi mənfi emosiyalara daha az meyillidirlər. Tuckman prokrastinasiya şkalasının Azərbaycan dilinə adaptasiyası üzrə aparılmış elmi-tədqiqat işi nəticəsində prokrastinasiyanın psixoloji sıxıntı ilə mənfi əlaqəsi təsdiqlənmişdir. Bu nəticə vaxtın idarə olunması və məsuliyyətli davranışların emosional rifaha müsbət təsir etdiyini göstərir. Digər araşdırma WHO-5 rifah indeksinin Azərbaycan dilinə uyğunlaşdırılması zamanı rifah səviyyəsi yüksək olan insanların stress və təşviş kimi mənfi emosiyalara daha az meyilli olduğunu göstərmişdir.

Bu tapıntılar emosional tənzimləmə bacarıqlarının artırılmasının stressin azalmasına və psixoloji dayanıqlılığın yüksəlməsinə töhfə verdiyini göstərir.

Gənclərin stresslə mübarizəsində sosial dəstək sistemlərinin rolu böyükdür. Ailə, dostlar, müəllimlər və peşəkar

məsləhətçilər emosional dəstək və resurs təmin etməklə gənclərin özünüifadə və duyğu paylaşımlarını artırırlar. Universitet mühitində təşkil edilən psixoloji xidmətlər tələbələrə streslə bağlı məlumatlar verir, fərdi və qrup terapiyaları təşkil edir, müsbət mühit yaradır. Eyni zamanda, təhsil müəssisələri gənclərin emosional tənzimləmə bacarıqlarını inkişaf etdirən tədris proqramlarını və təlimləri dəstəkləməlidirlər. Mətanət Həsənovanın "Təlim çətinliklərinin psixoloji səciyyəsi" məqaləsində müəllimlərin təlim prosesində şagirdlərin əqli, mənəvi və emosional inkişafı üçün əlverişli şərait yaratmasının vacibliyi vurğulanır. Bu yanaşma valideynlərin və müəllimlərin motivasiyaedici və emosional baxımdan təhlükəsiz mühit yaratmasının gənclərin stress səviyyəsinə təsir etdiyini təsdiqləyir.

Emosional stressin idarə olunmasında fərdi və davranış müdaxilələri də mühüm rol oynayır. Mindfulness, yəni diqqətin cari anın təcrübələrinə yönəldilməsi, gənclərə emosiyalarını müşahidə etməyi və dəyərləndirməyi öyrədir. Koqnitiv-davranışçı strategiyalar (düşüncələrin yenidən çərçivələnməsi, nəzərlərdən imtina) stressli vəziyyətlərin mənasını dəyişməyə və adaptiv reaksiya verməyə imkan yaradır. İdman fəaliyyətləri və bədənin hərəkəti fiziki boşalma vasitəsilə stress hormonlarını azaldır. Yaradıcılıq — musiqi, rəsm və yazı — emosional ifadəni gücləndirərək təzyiqi azaldır. Prokrastinasiyanın azaldılması üçün vaxt planlaşdırılması və məqsəd yönümlü fəaliyyətlər önəmlidir; bu, məsuliyyət hissini və özünə nəzarəti artırır. Həmçinin yuxu gigiyenası və balanslı qidalanma kimi sağlam həyat tərzi amilləri bədənin stressə qarşı müqavimətini artırır. Psixoloji müdaxilələrin fərdin şəxsiyyət xüsusiyyətlərinə uyğunlaşdırılması onların effektivliyini artırır: məsələn, yüksək nevrotizmli gənclər üçün duyğu tənzimləmə və özünü sakitləşdirmə texnikaları, məsuliyyətlilik səviyyəsi yüksək olan

gənclər üçün isə strukturlu planlaşdırma və problemlərin həllinə yönəlmiş məşqlər uyğun ola bilər.

Gənclərdə emosional stressin idarə olunması həm fərdi, həm də sosial səviyyədə kompleks yanaşma tələb edir. Bir tərəfdən, gənclər özünü dərk etmə, vaxtın idarə edilməsi, emosional tənzimləmə bacarıqlarını inkişaf etdirməli, sosial dəstək axtarmağa açıq olmalı və peşəkar yardım almaqdan çəkinməməlidirlər. Digər tərəfdən, təhsil müəssisələri və ailələr gənclərin emosional rifahını prioritet olaraq qəbul etməli, mütəmadi olaraq stresin azalması üçün proqramlar həyata keçirməli və gənclərin problem həll etmə bacarıqlarını gücləndirməlidirlər. Dövlət və ictimai təşkilatlar gənclər üçün psixoloji xidmətlərin əlçatanlığını artırmalı, informasiya və kommunikasiya texnologiyalarının psixoloji sağlamlığa təsiri barədə maarifləndirici kampaniyalar təşkil etməlidirlər. Gənclər üçün yaradılan fiziki və virtual məkanların təhlükəsizliyi, təhqir və zorakılığa qarşı müdafiəsi onların emosional stressini azaldan mühüm amillərdəndir.

Qısa nəticə olaraq, gənclik dövründə emosional stressin idarə edilməsi çoxsəviyyəli bir prosesdir və adaptasiya, şəxsiyyət xüsusiyyətləri, sosial dəstək, emosional tənzimləmə bacarıqları və sağlam həyat tərzi kimi müxtəlif faktorların qarşılıqlı təsirindən asılıdır. Tədqiqatlar göstərir ki, akademik stress və sosial dəstəyin azlığı gənclərdə emosional gərginliyi artırır, məsuliyyət və vaxtın idarə olunması kimi bacarıqlar isə prokrastinasiya və stressi azaldır. Yüksək rifah səviyyəsi və müsbət emosional təcrübələr stress və depressiya riskini azaldır. Şəxsiyyət xüsusiyyətləri emosional reaktivliyi və tənzimləmə strategiyalarını formalaşdırır, buna görə müdaxilələr fərdi xüsusiyyətlərə uyğunlaşdırılmalıdır. Təhsil və ailə mühitinin emosional inkişaf üçün əlverişli olması gənclərin stressə qarşı dayanıqlılığını artırır. Bu tapıntılar əsasında gənclər üçün

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 102-107
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 102-107
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

psixoloji xidmətlərin və maarifləndirici proqramların genişləndirilməsi, emosional intellektin inkişafı, sosial dəstək şəbəkələrinin gücləndirilməsi və sağlam həyat tərzinin təşviqi kimi tövsiyələr irəli sürülə bilər.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Əfruz Cəfərzadə**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0000-6601-5043
ceferzadeefruz@gmail.com

# Azərbaycan və ingilis dillərində inkar cümlələrin xüsusiyyətləri

***Açar sözlər:*** *inkar cümləsi, inkar şəkilçiləri, "not" hissəciyi, qrammatik quruluş, sintaktik fərqlər*
***Keywords****: negative sentence, negative suffixes, particle "not", grammatical structure, syntactic differences*

İnkar cümlələr dilçiliyin əsas qrammatik və semantik kateqoriyalarından birini təşkil edir. Bu kateqoriya təsdiqi əksinə çevirmək, mənfi məna yaratmaq və kommunikativ məqsədləri həyata keçirmək üçün xidmət göstərir. Azərbaycan və ingilis dilləri müxtəlif dil ailələrinə aid olsalar da (türk və german), inkarın ifadəsində həm oxşar, həm də fərqli üsullardan istifadə edirlər. Bu təhlildə ingilis dilində "not" hissəciyi ilə prefikslər, Azərbaycan dilində isə -ma/-mə şəkilçisi, deyil, yox sözləri və minimayzerlər müqayisəli şəkildə araşdırılır. Məqsəd hər iki dildə inkarın morfoloji, sintaktik və leksik xüsusiyyətlərini müəyyənləşdirmək, oxşarlıqları və fərqləri üzə çıxarmaqdır. Belə müqayisə tərcümə nəzəriyyəsi və dil tədrisi baxımından əhəmiyyət kəsb edir.

İngilis dilində inkar, əsasən, sintaktik vasitələrlə qurulur. Ən çox işlənən element "not" hissəciyidir ki, bu da köməkçi feillərlə (do, does, did, is, was və s.) birlikdə predikatı mənfi edir: "I do not go", "He is not happy". Bu quruluş sentensial inkar yaradır. Morfoloji planda prefiksler dominant rol oynayır. Məmmədova

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 108-110
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 108-110
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

qeyd edir ki, *un-, in-, im-, il-, ir-, non-* və *dis-* prefiksləri sözün mənasını birbaşa əksinə dəyişdirir: *happy – unhappy, possible – impossible, logical – illogical, existent – nonexistent, agree – disagree*. Bu prefikslər, əsasən sifətlərə, isimlərə və feillərə qoşulur, fonetik assimilyasiya qaydalarına əməl edir və latın-fransız mənşəlidir.

Leksik vasitələr arasında never, nowhere, nobody, nothing kimi sözlər və stabil ifadələr də geniş yayılmışdır. İnkarı gücləndirmək üçün minimayzerlər xüsusi əhəmiyyət daşıyır. Hoeksema və Süleymanova göstərir ki, "not a word", "not lift a finger", "not budge an inch" kimi konstruksiyalar minimal miqdarı bildirərək mənfi mənanı vurğulayır. Bu elementlər mənfi polariteyli itemlər kimi yalnız mənfi kontekstdə işlənir.

Azərbaycan dilində inkar sintetik və analitik vasitələrin qarışığı ilə formalaşır. Əsas morfoloji vasitə feillərə birbaşa qoşulan -ma/-mə şəkilçisidir: gəlmək – gəlməmək, oxumaq – oxumamaq. Bu şəkilçi *vowel* harmoniyasına tabe olur. Cümlə səviyyəsində "deyil" və "yox" köməkçi sözləri geniş tətbiq olunur: "Bu kitab maraqlıdır" – "Bu kitab maraqlı deyil", "Pul var" – "Pul yoxdur". Leksik vasitələrə heç, heç bir, heç kim, heç nə, nə… nə də daxildir. Şirinova vurğulayır ki, "heç bir nəticə" və ya "Nə qırğından xəbəri var idi, nə də…" tipli konstruksiyalar inkarı daha da gücləndirir. Azərbaycan dilində mənfi uyğunluq fenomeni də müşahidə olunur: "Heç bir söz də deməyib". Minimizayzerlər bu dildə də güclüdür. Hoeksema və Süleymanova iki əsas növünü ayırır: "heç bir" + minimayzer (heç bir qəpik də xərcləməyib) və "bir" + minimayzer (bir söz də deməyib). Bu ifadələr mənfi, şərtli və subyektiv kontekstlərdə yüksək tezliklə rast gəlinir.

Müqayisə göstərir ki, inkar hər iki dildə universal semantik funksiya daşısa da, ifadə mexanizmləri fərqlidir. İngilis dilində prefiksler söz daxili inkar yaradır və analitik quruluşa uyğundur.

Azərbaycan dilində isə şəkilçilər və köməkçi sözlər üstünlük təşkil edir, sintetik xarakter daşıyır. Oxşar cəhətlərə gəldikdə, hər iki dil minimayzerlərdən istifadə edərək inkarı intensivləşdirir və leksik mənfi elementləri (negative pronouns, konjunkasiyalar) eyni şəkildə tətbiq edir.

Fərqlər daha aydın görünür: ingilis dilində "not" hissəciyi köməkçi feillərlə işlənir, Azərbaycan dilində isə feilə birbaşa şəkilçi əlavə olunur. Azərbaycan dilində mənfi uyğunluq (heç + mənfi feil) mövcuddur, ingilis dilində isə belə quruluş yoxdur. Tərcümə prosesində ingilis prefiksləri Azərbaycan dilində "olmayan", "qeyri-" kimi analitik vasitələrlə əvəz olunur ki, bu da bəzən məna itkisindən qaçmaq üçün əlavə izahat tələb edir. Zeynalova qeyd edir ki, qeyri-finit feillərin inkar kontekstində davranışı da bu tipoloji fərqləri dəstəkləyir.

Nəticə olaraq, Azərbaycan və ingilis dillərində inkar cümlələrin xüsusiyyətləri hər birinin morfoloji tipini əks etdirir. İngilis dilində analitik prefiks və hissəciklər, Azərbaycan dilində isə sintetik şəkilçilər və mənfi uyğunluq ön planda dayanır. Bu araşdırma tərcüməçilər, dil müəllimləri və kontrastiv dilçilik sahəsində çalışan mütəxəssislər üçün faydalı ola bilər. Gələcək tədqiqatlar inkarın praqmatik və diskurs səviyyəsində daha dərin təhlilini apara bilər.

**Ayişə Zeynallı**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-3674-3516
ayiszeynalli@gmail.com

# Yeniyetmələrdə davranış çətinliklərinin psixoloji mexanizmləri

***Açar sözlər:*** *yeniyetməlik, davranış çətinlikləri, psixoloji mexanizmlər, sosial adaptasiya, emosional inkişaf*
***Keywords:*** *adolescence, behavioral difficulties, psychological mechanisms, social adaptation, emotional development*

Yeniyetmələrdə davranış çətinliklərinin psixoloji mexanizmləri müasir pedaqoji-psixoloji tədqiqatların ən aktual istiqamətlərindən biridir. Bu dövr insan həyatının ən mürəkkəb və ziddiyyətli mərhələlərindən biri hesab olunur, çünki yeniyetməlik yaşında şəxsiyyətin formalaşması, sosial münasibətlərdə özünü təsdiq etmə ehtiyacı, emosional gərginlik və daxili psixoloji konfliktlər daha qabarıq şəkildə üzə çıxır. Davranış çətinlikləri, adətən, yeniyetmələrin sosial mühitlə qarşılıqlı münasibətlərində, ailə və məktəb kontekstində, həmçinin özünüdərketmə prosesində meydana gəlir.

Bu çətinliklərin psixoloji mexanizmləri müxtəlif amillərlə bağlıdır: emosional qeyri-sabitlik, özünüidentifikasiya böhranı, sosial rolların uyğunsuzluğu, valideyn-nəzarət balansının pozulması, həmyaşıdlarla münasibətlərdə rəqabət və qəbul olunmama hissi. Yeniyetmələrin davranışında müşahidə olunan aqressivlik, ünsiyyətdən yayınma, hiperaktivlik, özünəqapanma və ya riskli davranış formaları psixoloji mexanizmlərin

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 111-114
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 111-114
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

mürəkkəb qarşılıqlı təsirindən doğur. Bu mexanizmlər arasında müdafiə mexanizmləri xüsusi yer tutur. Aqressiya çox vaxt daxili gərginliyin boşaldılması üçün seçilən mexanizm olur, özünəqapanma isə sosial mühitdə qəbul olunmama hissindən doğan psixoloji müdafiə formasıdır.

Yeniyetməlik dövründə şəxsiyyətin özünü təsdiq etmə ehtiyacı gücləndiyindən, davranış çətinlikləri bəzən bu ehtiyacın yanlış yollarla ifadəsi kimi meydana çıxır. Bu, həmyaşıd qruplarında nüfuz qazanmaq üçün riskli davranışlara meyil, ailə daxilində müstəqillik uğrunda münaqişələr, müəllimlərlə münasibətlərdə itaətsizlik formasında özünü göstərə bilər. Psixoloji mexanizmlərin kökündə yeniyetmələrin emosional inkişaf dinamikası dayanır. Emosional qeyri-sabitlik, hormonların təsiri ilə güclənən impulsivlik, özünüidarəetmə bacarığının tam formalaşmaması davranış çətinliklərinin əsas səbəblərindəndir.

Bu dövrdə yeniyetmələrdə empatiya hissi hələ tam inkişaf etmədiyindən, başqalarının mövqeyini nəzərə almaqda çətinlik çəkirlər. Bu isə sosial münasibətlərdə konfliktlərin artmasına gətirib çıxarır. Digər mühüm mexanizm motivasiya sisteminin dəyişməsidir. Yeniyetmələrdə daxili motivasiyalarla yanaşı, xarici təsirlər – həmyaşıdların təsdiqi, sosial status qazanmaq, müstəqillik nümayiş etdirmək – davranışın formalaşmasında həlledici rol oynayır. Bu motivasiyalar bəzən təhsil prosesinə marağın azalmasına, valideynlərlə münasibətlərdə gərginliyə, sosial qaydalara qarşı müqavimətə səbəb olur.

Davranış çətinliklərinin psixoloji mexanizmləri həm də şəxsiyyətin özünüidentifikasiya böhranı ilə bağlıdır. Yeniyetmə kim olduğunu, hansı dəyərlərə üstünlük verdiyini, gələcəkdə hansı sosial rolu oynayacağını müəyyənləşdirməyə çalışır. Bu prosesdə qeyri-müəyyənlik, daxili ziddiyyətlər, özünüqiymətləndirmədə dalğalanmalar müşahidə olunur.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 111-114
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 111-114
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Özünüidentifikasiya böhranı davranışda qeyri-adekvat reaksiyalar, emosional partlayışlar, sosial qaydalara qarşı üsyan formasında təzahür edə bilər.

Yeniyetmələrin davranış çətinliklərinin psixoloji mexanizmlərini anlamaq üçün ailə və məktəb mühitinin təsirini nəzərə almaq vacibdir. Valideynlərin həddindən artıq nəzarəti və ya tam laqeydliyi, müəllimlərin avtoritar yanaşması, həmyaşıd qrupunda qəbul olunmama hissi yeniyetmənin psixoloji müdafiə mexanizmlərini aktivləşdirir. Bu mexanizmlər bəzən adaptiv, bəzən isə destruktiv nəticələr doğurur. Yeniyetmə özünü təsdiq etmək üçün konstruktiv fəaliyyətə – idman, yaradıcılıq, ictimai işlərə yönələ bilər, lakin alternativ olaraq destruktiv davranışlara – aqressiya, qaydalara qarşı üsyan, riskli fəaliyyətlərə də meyil göstərə bilər.

Davranış çətinliklərinin psixoloji mexanizmləri həm də sosial-psixoloji adaptasiya prosesləri ilə bağlıdır. Yeniyetməlik dövründə şəxsiyyət sosial mühitə uyğunlaşmaq üçün müxtəlif strategiyalar seçir. Bu strategiyalar arasında konformizm, üsyankarlıq, özünəqapanma, liderlik iddiası kimi formalar var. Hər bir strategiya müəyyən psixoloji mexanizmlərin işə düşməsi ilə müşayiət olunur. Konformizm sosial qəbul olunma ehtiyacının güclənməsi ilə, üsyankarlıq müstəqillik uğrunda daxili mübarizə ilə, özünəqapanma isə emosional müdafiə mexanizmi ilə bağlıdır.

Yeniyetmələrdə davranış çətinliklərinin psixoloji mexanizmlərini dərk etmək pedaqoji və psixoloji praktikada mühüm əhəmiyyət kəsb edir. Bu mexanizmlərin anlaşılması müəllimlərə və valideynlərə yeniyetmələrin davranışını düzgün qiymətləndirmək, onların psixoloji ehtiyaclarını nəzərə almaq, adaptiv strategiyaları gücləndirmək imkanı verir. Əks halda, davranış çətinlikləri daha da dərinləşərək sosial münasibətlərdə, təhsil prosesində və şəxsiyyətin inkişafında ciddi problemlərə

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 111-114
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 111-114
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

səbəb ola bilər. Yeniyetməlik dövründə davranış çətinliklərinin psixoloji mexanizmləri çoxşaxəli və mürəkkəbdir. Onların kökündə emosional qeyri-sabitlik, özünüidentifikasiya böhranı, sosial adaptasiya çətinlikləri, motivasiya sistemində dəyişikliklər və müdafiə mexanizmlərinin aktivləşməsi dayanır. Bu mexanizmlərin hər biri yeniyetmənin davranışında spesifik təzahür formaları yaradır və sosial mühitlə qarşılıqlı münasibətlərdə özünü göstərir. Davranış çətinliklərinin psixoloji mexanizmlərini anlamaq və düzgün yönləndirmək yeniyetmələrin sağlam psixoloji inkişafı üçün əsas şərtlərdən biridir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 115-119
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 115-119
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Lamiyə Əsədova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0001-3372-6321
asadovalamiya125@gmail.com

# Orta məktəbdə Nizami Gəncəvinin "Xəmsə"sinin tədrisində mənəvi-estetik və vətəndaşlıq dəyərlərinin formalaşdırılması

***Açar sözlər:*** *ədəbiyyat, Nizami Gəncəvi, "Xəmsə", klassik poetika nümunəsi*

***Keywords:*** *Literature, Nizami Ganjavi, "Khamsa", example of classical poetics*

Ümumtəhsil məktəbində ədəbiyyat fənni yalnız bədii mətnin "nə haqqında" olmasını öyrədən fənn deyil; o, şagirdin dünyagörüşünü, estetik zövqünü, sosial-emosional sferasını, dəyərlər sistemini formalaşdıran əsas humanitar platformadır. Azərbaycan ümumi təhsil çərçivə sənədlərində milli kurikulumun əsas istinad nöqtələrindən biri kimi "milli və ümumbəşəri dəyərlərin nəzərə alınması" xüsusi vurğulanır. Eyni zamanda, ədəbiyyat fənni kurikulumu məktəb ədəbiyyat kursunun "həqiqi vətəndaşın və müasir dünyagörüşlü şəxsiyyətin yetişməsində" mühüm rol oynadığını, bədii sözün şagirdlərdə mənəvi-estetik tərbiyə və dəyərlərə yiyələnmə imkanları yaratdığını konseptual şəkildə əsaslandırır.

Bu kontekstdə Nizami Gəncəvinin "Xəmsə"si orta məktəb ədəbiyyat təlimində unikal didaktik-resurs kimi çıxış edir. "Xəmsə" yalnız klassik poetika nümunəsi deyil; burada humanizm, ədalət, zəhmətə hörmət, vicdan, sədaqət, mərhəmət, bilik və hikmətin dəyəri, ədalətli idarəçilik ideyası, şəxsiyyətin

mənəvi kamilliyi kimi dəyərlər müxtəlif süjet və obrazlar üzərindən şagird üçün "yaşanan" və "müzakirə olunan" mənəvi situasiyalara çevrilir. Məktəb təcrübəsində də Nizaminin poemalarından seçilmiş hissələrin tədrisi zamanı xeyirxahlıq, zülmün tənqidi, əməyə müsbət münasibət, vətənpərvərlik və humanizm kimi xətlərin önə çəkildiyi göstərilir.

Bu tezisin məqsədi orta məktəb ədəbiyyat dərslərində "Xəmsə"nin öyrədilməsi prosesində şagirdlərin mənəvi-estetik və vətəndaşlıq dəyərlərinin formalaşdırılması üçün tətbiq oluna biləcək səmərəli pedaqoji yanaşmaları və praktik mexanizmləri əsaslandırmaq, məktəb təcrübəsi üçün işlək model təqdim etməkdir.

Vəzifələr aşağıdakılardır: 1. "Xəmsə"nin təlim potensialını mənəvi-estetik və vətəndaşlıq tərbiyəsi kontekstində şərh etmək; 2. Kurikulum tələbləri ilə uyğunlaşdırılmış dərs-təşkilati yanaşma qurmaq; 3. Dəyərlərin formalaşmasını təmin edən fəaliyyət növlərini (müzakirə, debat, yaradıcı yazı, layihə, rollu oyun, mətnlərarası əlaqə və s.) sistemləşdirmək; 4. Formativ və summativ qiymətləndirmə üçün ölçülə bilən nəticə göstəriciləri təklif etmək.

Təklif olunan yanaşma səriştəəsaslı (nəticəyönümlü), şagirdyönümlü və inteqrativ təlim prinsiplərinə söykənir. Milli kurikulum çərçivəsi pedaqoji prosesin interaktivliyini, nəticəyönümlülüyünü və milli-ümumbəşəri dəyərlərin nəzərə alınmasını əsas prinsip kimi müəyyən edir. Ədəbiyyat kurikulumu isə ədəbiyyat təliminin şagirdin tərbiyəsi və inkişafı üçün "optimal şərait" yaratmalı olduğunu, mənəvi-estetik problemlərin dərk və qiymətləndirməsinə, "milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnməyə" xidmət etdiyini vurğulayır.

Bu tezisdə tətbiqi-metodiki yanaşma dörd əsas dayağa əsaslanır:

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

1. Dəyər-yönümlü oxu: mətnin ideya-estetik qatını dəyərlər sistemi ilə əlaqələndirmə;
2. Dialoji müzakirə: şagirdin mövqeyini əsaslandırması, etik seçimləri təhlil etməsi;
3. Estetik təcrübə: obrazların emosional qavranması, bədii dilin təsir gücünün hiss edilməsi;
4. Vətəndaşlıq konteksti: ədalət, məsuliyyət, hüquq və vicdan anlayışlarını sosial reallıqla bağlama.

Məktəb proqramlarında Nizami yaradıcılığının müxtəlif siniflərdə mərhələli verilməsi, "Xəmsə" haqqında ümumi məlumat, "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə" barədə bilgilərin və seçmə hissələrin tədrisi nəzərdə tutulur; bu tədrisdə feodal zülmünün tənqidi, zəhmətkeş insan surətləri, əməyə müsbət münasibət, humanizm və vətənpərvərlik kimi ideyaların önə çəkilməsi xüsusilə qeyd olunur.

Dəyərlərin formalaşdırılması baxımından "Xəmsə"ni şərti olaraq üç məzmun blokunda işləmək praktikdir: Birinci blok mənəvi özünütənzim və şəxsiyyətin daxili mədəniyyəti ilə bağlıdır: vicdan, ədalət hissi, doğruluq, mərhəmət, tamahdan uzaqlıq, mənəvi məsuliyyət. Bu xəttin ən əlverişli resursu "Sirlər xəzinəsi"ndəki hikmətli hekayələr və didaktik situasiyalardır; zülm və haqsızlıq tənqidi üzərindən şagird "ədalətli davranış" meyarlarını çıxara bilir. İkinci blok sosial münasibətlər, sevgi və sədaqət, əmək və ləyaqət anlayışları üzərində qurulur. "Xosrov və Şirin"də obrazların seçimi, xüsusən Şirin və Fərhad xəttinin əməksevərlik, sədaqət, məqsədyönlülük kimi keyfiyyətləri açması məktəb müzakirələri üçün geniş imkan verir; məktəb tədrisi ənənəsində də Şirinin əməyə və əməkçi insanlara münasibətinin vurğulandığı göstərilir.

Üçüncü blok dövlətçilik, bilik və liderlik ideyaları, dünyagörüşünün genişliyi və vətəndaşlıq məsuliyyətidir.

"İskəndərnamə" kontekstində ədalətli idarəçilik, biliklə gücün münasibəti, cəmiyyətin rifahı naminə qərar vermə kimi mövzular şagirdin vətəndaş mövqeyinin formalaşmasına xidmət edir. Bu, ədəbiyyat kurikulumunun "həqiqi vətəndaş" yetişdirmə hədəfi ilə də məzmun baxımından üst-üstə düşür.

Təcrübə göstərir ki, "Xəmsə" kimi klassik mətni sadəcə izah və mətn danışığı ilə öyrətmək şagirdin dəyər və mövqe formalaşdırmasına yetərli olmur. Effektivlik üçün dərs üç mərhələdə qurulmalıdır: 1) Motivasiya və kontekst mərhələsi. Müəllim mətni tarixi faktlarla yükləmədən, lakin dövrün sosial mənzərəsini minimum çərçivədə təqdim etməlidir: "ədalət"in nə üçün əsas problem olması, zülmün hansı formalarda görünməsi, insanın əməyə münasibətinin niyə dəyər sayılması və s. Bu mərhələdə "dəyər sualları" qoyulur: "Ədalət nədir?", "Güc həmişə haqq deməkdirmi?", "Zəhmət niyə insanı ucaldır?" Bu yanaşma kurikulumun şagirdyönümlülük və nəticəyönümlülük prinsipinə uyğun olaraq şagirdi düşünməyə gətirir. 2) Mətnlə iş və dialoji müzakirə mərhələsi. Mətn fraqmentlərlə oxunur və hər fraqmentdən sonra "obraz–hərəkət–dəyər" üçlüyü ilə təhlil aparılır: obraz nə etdi, bunu hansı dəyər müəyyənləşdirdi, bu dəyərin alternativi nə ola bilərdi. Xüsusən "Sirlər xəzinəsi"ndə zülmün tənqidi və zəhmətkeş insan surətləri kimi mövzular şagirdə etik qiymətləndirmə üçün faktiki material verir. Burada müəllimin işi "düz cavabı" diktə etmək deyil, şagirdin dəyəri mətnin içindən çıxarmasına şərait yaratmaqdır. 3) Transfer və yaradıcı məhsul mərhələsi. Dəyərlərin "formalaşması" yalnız danışmaqla bitmir; şagird onu davranış modeli kimi təsəvvür etməlidir. Buna görə dərsin sonunda şagirddən kiçik, lakin ölçülə bilən məhsul alınır: reflektiv esse ("Mənim üçün ədalət nədir?"), obrazın müdafiəsi və ya ittihamı formatında qısa çıxış, "bu günün məktəb mühitində" analoji situasiya ssenarisi, sinif daxili "etik kodeks" layihəsi və s. Bu mərhələ ədəbiyyat

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 115-119
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 115-119
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

təliminin mənəvi-estetik problemləri dərk və qiymətləndirmə imkanları yaratması barədə kurikulum mövqeyi ilə uzlaşır.

Mənəvi-estetik və vətəndaşlıq dəyərlərinin formalaşması "tam ölçülən" göstərici olmasa da, məktəb praktikası üçün müşahidə edilə bilən indikatorlar seçmək mümkündür. Aşağıdakı meyarlar formativ qiymətləndirmədə işləkdir: Şagirdin mətnə əsaslanaraq etik mövqe bildirməsi; alternativ mövqeləri müqayisə etməsi; mübahisədə qarşı tərəfin arqumentinə hörmətlə yanaşması; obrazın hərəkətini emosional deyil, dəyər meyarları ilə əsaslandırması; şəxsi təcrübə ilə mətn dəyərini əlaqələndirməsi. Ədəbiyyat kurikulumunun şagird nailiyyətlərinin qiymətləndirilməsini diqqət mərkəzində saxlaması, təlim nəticələrinin konkretləşdirilməsi tələbi bu tip indikator yanaşmasını legitimləşdirir. Summativ qiymətləndirmədə isə "Xəmsə" fraqmenti üzrə analitik yazı (dəyər analizi), strukturlaşdırılmış təqdimat (obraz və dəyər konflikti), və ya mini-layihə (Nizami ideyalarının müasir cəmiyyətə tətbiqi) formatları seçilə bilər.

Praktik baxımdan effektiv nəticə üçün müəllim klassik mətni "izah edilən" yox, "yaşanan və müzakirə olunan" etik-estetik təcrübəyə çevirməlidir: dəyər sualları ilə motivasiya, fraqmentlə dialoji təhlil, real həyatla transfer və ölçülə bilən yaradıcı məhsul. Bu model tətbiq edildikdə şagirdlərdə yalnız Nizami irsi barədə bilik deyil, həm də ədalət hissi, sosial məsuliyyət, estetik həssaslıq, milli-mənəvi dəyərlərə bağlılıq və vətəndaş mövqeyinin ilkin konturları formalaşır; nəticədə ədəbiyyat dərsi kurikulumun gözlədiyi kimi şəxsiyyətin tərbiyəsi və inkişafına xidmət edən aparıcı humanitar mühitə çevrilir.

*Elm və Təhsil Tədqiqatları* **Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 120-124**
*Research in Science and Education* **Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 120-124**
**https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026**

**Pərvanə Mehtiyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0001-8844-3900
parvanamehtiyeva@gmail.com

# Ümumtəhsil məktəblərinin yuxarı siniflərində triqonometriyanın tədrisinin metodik prinsipləri, yanaşmaları və aspektləri

***Açar sözlər:*** *triqonometriya, yuxarı sinif şagirdləri, tətbiqyönümlülük, müəllim, ümumtəhsil məktəbi, tədris məzmunu*

***Keywords:*** *trigonometry, upper secondary students, applied orientation, educator, general education school, curriculum content*

Seçilmiş mövzunun aktuallığı onunla izah olunur ki, müasir təhsil yanaşmaları çərçivəsində tədris məzmunu, metod və vasitələr elə şəkildə təşkil edilir ki, şagirdlər fənn materialını öyrənərkən yaradıcılıq və təşəbbüskarlıq nümayiş etdirə bilsinlər.

Hazırda ümumtəhsil sistemində yuxarı sinif mərhələsində profil təhsilinin həyata keçirilməsi məktəbin əsas prioritet istiqamətlərindən biri hesab olunur. Bu konsepsiyanın praktik tətbiqi bir sıra problemləri də üzə çıxarır. Xüsusilə, riyaziyyatın bəzi bölmələrinin tədrisi üzrə metodik bazanın yetərincə işlənməməsi diqqət çəkir. Bu məsələ yuxarı siniflərdə tədris olunan "Triqonometriya" bölməsi üçün daha qabarıq şəkildə özünü göstərir və bu sahədə daha sistemli metodik yanaşmalara ehtiyac olduğunu göstərir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 120-124
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 120-124
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Qeyd etmək lazımdır ki, şagirdlərin triqonometriya üzrə ilkin bilikləri çox vaxt sistemli deyil, daha çox parçalanmış formada formalaşır. Müasir dövrdə məktəblilərin triqonometriyaya münasibəti də bu fənnin ümumilikdə insan mədəniyyətindəki rolunun tam dərk edilməməsi ilə xarakterizə olunur.

1966-cı ilə qədər triqonometriya məktəblilər üçün riyaziyyat elminin inkişafını aydın və vizual şəkildə göstərən bir nümunə kimi çıxış edirdi. Bu fənn vasitəsilə şagirdlər öz imkan və qabiliyyətlərinə uyğun olaraq riyazi düşüncə tərzini “sınaqdan keçirə”, bu sahəyə olan maraq və meyillərini müəyyən edə bilirdilər.

Həmin dövrdə triqonometriyanın məktəb təhsilində rolu yüksək qiymətləndirilirdi. Belə ki, yuxarı siniflərdə “Triqonometriya” ayrıca fənn kimi tədris olunur və həftədə 2 saat bu fənnə ayrılırdı. Lakin XX əsrin 60-cı illərinin ortalarından etibarən məktəb riyaziyyat təhsilində aparılan islahatlar, xüsusilə sonradan “A.N.Kolmoqorov islahatı” kimi tanınan dəyişikliklər triqonometriyaya münasibətin tədricən dəyişməsinə səbəb oldu. Bu dəyişikliklər tədris proqramlarının məqsədlərinə də təsir göstərdi.

Nəticədə triqonometriya artıq düşüncənin inkişafına xidmət edən mühüm pedaqoji vasitə kimi deyil, daha məhdud çərçivədə qəbul olunmağa başlandı. Şagirdlərin elmi dünyagörüşünün formalaşdırılmasında və onları elmi biliklərə mərhələli şəkildə yaxınlaşdırmaqda bu fənnin rolu zəiflədildi. Bunun nəticəsi olaraq triqonometriya materialı tədricən həm əsas məktəb pilləsindən, həm də yuxarı siniflərin tədris proqramından sıxışdırılıb çıxarılmağa başlandı.

Qeyd edilməlidir ki, ümumtəhsil məktəblərinin əsas pilləsində triqonometriya kursu hələ də güclü tətbiqyönümlü xarakter daşıyır. Bu isə şagirdlərdən əsas anlayışları yetərincə

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 120-124
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 120-124
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

mənimsəməyi, ifadələr üzərində müxtəlif çevirmələr aparmağı, qrafiklər qurmağı və funksiyaları təhlil etməyi tələb edir.

Triqonometrik anlayışların öyrənilməsi yalnız konkret bir fənnin çərçivəsi ilə məhdudlaşmır. Bu anlayışlar insan fəaliyyətinin müxtəlif sahələri ilə bağlıdır və səbəb-nəticə əlaqələrinin dərk olunmasına xidmət edir.

Yuxarı sinif şagirdləri triqonometriya üzrə möhkəm biliklərə sahib olmalıdırlar. Çünki bu biliklər riyazi anlayışlar sistemində mühüm halqa rolunu oynayır və fənlərarası əlaqələrin qurulmasında böyük əhəmiyyət kəsb edir.

Bununla yanaşı, triqonometriyanın öyrənilməsi müəyyən çətinliklərlə müşayiət olunur. Bu çətinliklərə anlayışların yüksək səviyyədə abstrakt olması, onların təriflərinin mürəkkəb məntiqi quruluşa malik olması, eləcə də mövzuların dərindən mənimsənilməsi üçün ayrılan dərs vaxtının məhdudluğu daxildir.

Triqonometriya ümumtəhsil baxımından olduqca mühüm rol oynayan bir sahədir. Bu mövzunun tədrisi mərhələli və ardıcıl şəkildə qurulmalıdır: əvvəlcə iti bucağın triqonometriyası öyrədilir, daha sonra istənilən bucaq üçün triqonometrik anlayışlar təqdim olunur və sonda isə həqiqi arqumentli triqonometrik funksiyalar nəzərdən keçirilir. Triqonometriyanın hərtərəfli mənimsənilməsi kifayət qədər geniş vaxt tələb edir. Lakin ümumtəhsil məktəblərində müxtəlif səbəblərdən, o cümlədən ümumi dərs yükünün çoxluğu səbəbindən bu sahəyə ayrılan vaxt çox məhduddur və bu çatışmazlıq triqonometriyanın dərindən öyrənilməsinə mane olur. Son dövrlərdə metodik ədəbiyyatlarda şagirdlərin vahid çevrə ilə daha erkən mərhələdə tanış edilməsinin vacibliyi tez-tez vurğulanır.

Təcrübəli müəllimlərin müşahidələrinə əsasən, triqonometriyanın daha dərindən öyrənilməsinə başlamazdan

əvvəl ən sadə triqonometrik tənlik və bərabərsizliklərin həlli üzərində əvvəlcədən və müəyyən zaman aralığında məşq aparılması məqsədəuyğundur. Bu yanaşma yalnız ümumi biliklərin formalaşdırılması baxımından deyil, həm də yuxarı siniflərdə tədris yükünün daha səmərəli bölüşdürülməsi və şagirdlərin çətin mövzuları daha rahat mənimsəməsi üçün faydalıdır. Məsələn, müxtəlif həndəsə dərsliklərində çevrənin koordinat oxları ilə kəsişmə nöqtələrinin koordinatlarının tapılmasına dair tapşırıqlara rast gəlinir. Bu tip çalışmaların yerinə yetirilməsinə xüsusi diqqət ayrılması vacibdir. Belə tapşırıqları icra etmək bacarığı, eləcə də koordinatların düzgün yazılma ardıcıllığı haqqında təsəvvür şagirdlərin koordinat müstəvisi ilə tanışlığının əsas nəticələrindən biri hesab oluna bilər. Bu bacarıqlar gələcəkdə daha mürəkkəb mövzuların mənimsənilməsi üçün möhkəm zəmin yaradır.

Bu baxımdan yalnız nəticənin əldə olunması deyil, onun yüksək səviyyədə olması da mühüm əhəmiyyət daşıyır. Bu məqsədə çatmaq üçün müəllim vizuallıqdan istifadə edərək şagirdlərlə birlikdə yadda qalıcı qaydalar formalaşdıra bilər. Məsələn, belə bir sadə qayda tətbiq oluna bilər:

- ordinat oxu üzərində yerləşən nöqtələrin abssisası sıfıra bərabərdir;
- abssisa oxu üzərində yerləşən nöqtələrin ordinatı sıfıra bərabərdir.
- Daha sonra hər bir şagird bu qaydanı müstəqil şəkildə izah edir və tətbiq edir. Bu tip tapşırıqların məqsədi yalnız koordinatların yazılış qaydasını və mnemonik prinsipləri mənimsətmək deyil, eyni zamanda, nöqtələrin adlandırılması və qiymətlərinin düzgün anlaşılmasını təmin etməkdir.
- Bununla yanaşı, bu çalışmalar şagirdlərdə onluq kəsrlərlə, həmçinin, müsbət və mənfi ədədlərlə hesablama bacarıqlarının inkişafına da şərait yaradır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 120-124
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 120-124
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

- Belə bir tədris situasiyası formalaşdırılır ki, şagirdlər vahid çevrə üzərində seçilmiş nöqtənin abssisası və ordinatının kvadratlarının cəmini hesablayaraq (məsələn, millimetrlik kağızdan istifadə etməklə) həm təxmini hesablamalar aparır, həm də kalkulyatordan istifadə etmə bacarıqlarını inkişaf etdirirlər. Bu proses onları əsas triqonometrik eyniyyətə yaxınlaşdırır və nəticə etibarilə həndəsə və cəbr kursunun daha dərindən öyrənilməsinə hazırlayır.

Aparılan tədqiqatın nəticələrini ümumiləşdirərək qeyd etmək olar ki, tam orta təhsil mərhələsində triqonometriyanın öyrənilməsi profil təhsil sistemində mühüm və həlledici əhəmiyyət daşıyır. Bu sahədə şagirdlərin biliklərinin formalaşdırılması onların ümumi riyazi hazırlığının yüksəldilməsi baxımından aktual olaraq qalır. Tədqiqat çərçivəsində triqonometriyanın tədrisinin metodik xüsusiyyətləri sistemləşdirilmiş, şagirdlərdə möhkəm və əsaslı biliklərin formalaşdırılmasının vacibliyi əsaslandırılmışdır. Göstərilmişdir ki, triqonometriya üzrə biliklər müxtəlif elmi sahələrə aid nəzəri anlayışların praktik tətbiqlərlə əlaqəsinin dərk olunmasına imkan yaradır. Müəyyən edilmişdir ki, praktik yönümlü fəaliyyət triqonometriyanın əhəmiyyətini daha da artırır və şagirdlərin gələcək təhsil mərhələlərinə daha hazırlıqlı keçidinə şərait yaradır. Bu yanaşma onların peşəkar inkişafına, həmçinin, riyazi biliklərin real həyatda tətbiqinə müsbət təsir göstərir.

*Elm və Təhsil Tədqiqatları* **Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 125-128**
***Research in Science and Education*** **Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 125-128**
**https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026**

**Sunay Cəfərova**
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-8191-8552
sunayceferov357@gmail.com

# Fortepiano konsert janrının nəzəri və tarixi əsasları

***Açar sözlər:*** *fortepiano, konsert, janr, barokko dövrü, instrumental*
***Keywords:*** *piano, concert, genre, baroque period, instrumental*

Fortepiano konsert janrı instrumental musiqinin ən mühüm və kompleks janrlarından biri kimi musiqi tarixində xüsusi yer tutur. Bu janrın yaranması və formalaşması uzun tarixi inkişaf prosesinin nəticəsidir və əsasən Avropa klassik musiqi ənənələri ilə bağlıdır. Fortepiano konsertinin genezisi barokko dövrünün instrumental konsert formalarına, xüsusilə də *concerto grosso* prinsipinə qədər gedib çıxır.

Barokko dövründə formalaşan konsert janrı əsasən solo alət ilə orkestr arasında qarşılıqlı münasibətə əsaslanırdı. Bu dövrdə solo və tutti (bütün orkestr) prinsipi aparıcı rol oynayırdı. Lakin həmin dövrdə fortepiano hələ müstəqil solo alət kimi tam formalaşmamışdı; əsasən klavesin istifadə olunurdu. Fortepianonun texniki imkanlarının inkişafı ilə bu alət tədricən solo janrda aparıcı mövqe tutmağa başlamışdır.

XVIII əsrin ikinci yarısında klassisizm dövründə fortepiano konsert janrı artıq müstəqil və sabit forma kimi formalaşdı. Bu mərhələdə janrın əsas struktur prinsipləri müəyyənləşdirildi. Fortepiano konsertinin klassik modeli aşağıdakı xüsusiyyətlərlə

səciyyələnirdi: - Solo alətlə orkestr arasında dialoji qarşılıqlı əlaqə; - Üçhissəli kompozisiya quruluşu (sürətli – yavaş – sürətli); - Sonata formasının tətbiqi (xüsusilə I hissədə); - Tematik materialın kontrast prinsipi əsasında qurulması. Bu dövrdə fortepiano konserti yalnız virtuoz ifaçılıq nümunəsi deyil, həm də simfonik düşüncənin ifadə vasitəsi kimi çıxış etməyə başladı. Solo alət və orkestr arasında münasibət təkcə müşayiət xarakteri daşımır, əksinə, qarşılıqlı inkişaf edən dramatik dialoq formasını alır.

Romantizm dövründə fortepiano konsert janrı yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Bu dövrdə fərdi ifadə, emosional zənginlik və virtuoz texnika ön plana çıxdı. Fortepiano partiyası daha mürəkkəb və texniki cəhətdən zənginləşdi. Orkestr isə daha geniş rəng palitrası və faktura müxtəlifliyi ilə seçilməyə başladı. Janrın əsas xüsusiyyətləri aşağıdakı kimi inkişaf etdi: - Lirik və dramatik başlanğıcların güclənməsi; - Tematik transformasiya və inkişafın dərinləşməsi; - Kadensiyaların genişlənməsi və improvizasiya elementlərinin artması; - Orkestrin rolunun bərabərhüquqlu səviyyəyə yüksəlməsi.

XX əsrdə isə fortepiano konsert janrı daha mürəkkəb və çoxşaxəli inkişaf mərhələsinə daxil oldu. Bu dövrdə musiqidə modernizm cərəyanlarının təsiri ilə janrın ənənəvi çərçivələri genişləndi. Bəstəkarlar klassik formadan uzaqlaşaraq yeni struktur modelləri, qeyri-ənənəvi harmoniya və ritm sistemləri tətbiq etməyə başladılar. Xüsusilə aşağıdakı xüsusiyyətlər diqqəti cəlb edir: - Tonallığın zəifləməsi və modal sistemlərin tətbiqi; - Poliritmiya və metroritmik mürəkkəblik; - Faktura və tembr eksperimentləri; - Forma sərbəstliyi və proqramlılıq elementləri.

Fortepiano konsert janrının inkişafında ən mühüm mərhələlərdən biri də onun müxtəlif milli musiqi məktəblərində mənimsənilməsi və transformasiyasıdır. Bu baxımdan

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Azərbaycan musiqisi xüsusi maraq doğurur. Azərbaycan bəstəkarları bu janrı qəbul edərək onu milli musiqi təfəkkürünə uyğun şəkildə yenidən işləyərək orijinal üslub yaratmışlar. Beləliklə, fortepiano konsert janrının yaranması və inkişafı təkcə tarixi proses deyil, həm də müxtəlif musiqi mədəniyyətlərinin qarşılıqlı təsirinin nəticəsidir. Bu janrın təkamülü onun universal xarakterini və müxtəlif üslub sistemlərinə adaptasiya qabiliyyətini aydın şəkildə göstərir.

Fortepiano konsert janrı instrumental musiqi tarixində ən mürəkkəb və çoxplanlı janrlardan biri kimi xüsusi əhəmiyyətə malikdir. Bu janrın təşəkkülü yalnız musiqi formalarının inkişafı ilə deyil, eyni zamanda ifaçılıq texnikasının, musiqi təfəkkürünün və estetik prinsiplərin dəyişməsi ilə sıx bağlı olmuşdur. Fortepiano konsertinin genezisi çoxpilləli tarixi inkişaf prosesinin nəticəsi olub, onun kökləri barokko dövrünün instrumental konsert formalarına qədər gedib çıxır.

Barokko dövründə konsert janrının ilkin əsasları. Fortepiano konsert janrının ilkin mənbələri XVII–XVIII əsrlərdə formalaşan instrumental konsert janrına, xüsusilə *concerto grosso* və solo konsert formalarına əsaslanır. Bu dövrdə musiqi təfəkkürü əsasən kontrast prinsipinə – yəni kiçik ifaçı qrup (concertino) ilə böyük orkestr (ripieno) arasında qarşılıqlı münasibətə əsaslanırdı.

Barokko konsertində əsas ideya qarşıdurma və dialoq idi. Bu dialoq sonradan fortepiano konsert janrının əsas dramaturji prinsipinə çevrilmişdir. Lakin bu dövrdə fortepiano hələ geniş yayılmamışdı və əsas klavişli alət kimi klavesin və orqan istifadə olunurdu. Klavesinin texniki imkanları məhdud olduğundan (dinamik dəyişikliklərin zəifliyi və s.), onun solo alət kimi orkestr üzərində dominant rolu məhdud idi. Bununla belə, barokko dövründə aşağıdakı mühüm prinsiplər formalaşdı ki, bunlar sonradan fortepiano konsert janrına keçdi: - Solo və

orkestr qarşıdurması prinsipi; - Ritornello forması (təkrar olunan orkestr mövzusu); - Tematik kontrast və inkişaf; - Dramaturji gərginliyin mərhələli qurulması; - Bu xüsusiyyətlər fortepiano konsertinin gələcək inkişafı üçün nəzəri və praktik baza rolunu oynadı.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 129-132
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 129-132
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Adilə Məmmədli**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0001-5699-365X
alkatalks205@gmail.com

# Müəllimin pedaqoji fəaliyyətində davranış modellərinin psixoloji mexanizmləri

***Açar sözlər:*** *pedaqoji fəaliyyət, davranış modelləri, psixoloji mexanizmlər, müəllim davranışı, təhsil psixologiyası*
***Keywords:*** *pedagogical activity, behavior models, psychological mechanisms, teacher behavior, educational psychology*

Müasir təhsil sistemində müəllimin rolu yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, o, eyni zamanda şagird şəxsiyyətinin formalaşmasında, sosial davranış normalarının mənimsənilməsində və psixoloji inkişafın istiqamətləndirilməsində əsas fiqurlardan biri kimi çıxış edir. Bu baxımdan müəllimin pedaqoji fəaliyyətində nümayiş etdirdiyi davranış modelləri onun peşəkar fəaliyyətinin effektivliyini müəyyən edən əsas amillərdən biri hesab olunur. Müəllimin davranış modelləri təsadüfi deyil, müəyyən psixoloji mexanizmlərin təsiri altında formalaşır və bu mexanizmlərin düzgün anlaşılması pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Davranış modelləri müəllimin konkret pedaqoji situasiyalarda nümayiş etdirdiyi sabit və təkrarlanan davranış formaları kimi xarakterizə olunur və bu davranışların arxasında duran psixoloji proseslərin öyrənilməsi müasir pedaqogika və təhsil psixologiyasının mühüm tədqiqat istiqamətlərindən biridir.

Müəllimin davranış modellərinin formalaşmasının əsas psixoloji mexanizmlərindən biri motivasiya ilə bağlıdır. Motivasiya müəllimin fəaliyyətini istiqamətləndirən daxili və xarici stimulların məcmusu kimi çıxış edir və onun pedaqoji fəaliyyətə yanaşmasını müəyyən edir. Daxili motivasiyaya malik müəllimlər öz fəaliyyətlərini peşə sevgisi, şagirdlərin inkişafına töhfə vermək istəyi və özünüreallaşdırma kimi amillərlə əlaqələndirirlər ki, bu da onların daha humanist, demokratik və şagirdyönümlü davranış modellərini seçməsinə gətirib çıxarır. Xarici motivasiyanın üstünlük təşkil etdiyi hallarda isə müəllimin davranışı daha çox formal göstəricilərə, qiymətləndirmə sistemlərinə və inzibati tələblərə uyğunlaşır ki, bu da bəzi hallarda pedaqoji prosesin keyfiyyətinə mənfi təsir göstərə bilər.

Davranış modellərinin formalaşmasında mühüm rol oynayan digər psixoloji mexanizm qavrayış prosesidir. Müəllimin şagirdləri necə qəbul etməsi, onların fərdi xüsusiyyətlərini necə dəyərləndirməsi və davranışlarını hansı prizma ilə interpretasiya etməsi onun pedaqoji reaksiyalarını birbaşa müəyyən edir. Əgər müəllim şagirdlərin səhvlərini inkişaf prosesinin təbii tərkib hissəsi kimi qəbul edirsə, bu zaman o, dəstəkləyici və təşviqedici davranış modeli nümayiş etdirir. Əksinə, səhvləri intizamsızlıq və ya məsuliyyətsizlik kimi qiymətləndirən müəllimlər daha sərt və cəza yönümlü davranış modellərinə üstünlük verə bilərlər. Bu isə sinifdə psixoloji iqlimin formalaşmasına və şagirdlərin motivasiya səviyyəsinə ciddi təsir göstərir.

Emosional tənzimləmə mexanizmi də müəllimin pedaqoji fəaliyyətində xüsusi yer tutur. Tədris prosesi emosional baxımdan gərgin və dinamik mühitdə baş verdiyindən müəllimin öz emosiyalarını idarə etmə bacarığı onun davranış modelinin sabitliyini və adekvatlığını təmin edir. Emosional

cəhətdən sabit və özünüidarəetmə bacarıqları inkişaf etmiş müəllimlər konflikt vəziyyətlərini daha konstruktiv şəkildə həll edir, şagirdlərlə münasibətlərdə empatiya nümayiş etdirir və müsbət psixoloji mühit yaradırlar. Bu isə şagirdlərin həm akademik nailiyyətlərinə, həm də sosial-emosional inkişafına müsbət təsir göstərir.

Müəllimin davranış modellərinin formalaşmasında sosial öyrənmə mexanizmi də əhəmiyyətli rol oynayır. Müəllimlər öz peşə fəaliyyətləri zamanı digər müəllimlərin davranışlarını müşahidə edir, uğurlu pedaqoji təcrübələri mənimsəyir və onları öz fəaliyyətlərinə inteqrasiya edirlər. Xüsusilə gənc müəllimlər üçün bu mexanizm mühüm əhəmiyyət kəsb edir, çünki onlar daha təcrübəli həmkarlarının davranış modellərini nümunə kimi qəbul edərək öz pedaqoji üslublarını formalaşdırırlar. Bu proses təkcə müşahidə ilə məhdudlaşmır, eyni zamanda, pedaqoji mühitdə formalaşan sosial normalar və peşə etikası qaydaları da müəllimin davranışına təsir göstərir.

Refleksiya mexanizmi isə müəllimin öz fəaliyyətini təhlil etməsi, qiymətləndirməsi və davamlı şəkildə təkmilləşdirməsi ilə bağlıdır. Reflektiv yanaşma müəllimə öz davranış modellərini dərk etməyə, onların effektivliyini qiymətləndirməyə və zərurət olduqda dəyişikliklər etməyə imkan verir. Öz fəaliyyətinə tənqidi yanaşan müəllimlər daha çevik və adaptiv davranış modelləri formalaşdırır, müxtəlif pedaqoji situasiyalara uyğun adekvat strategiyalar seçə bilirlər. Bu isə pedaqoji fəaliyyətin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Müəllimin fərdi-psixoloji xüsusiyyətləri də onun davranış modellərinin formalaşmasına ciddi təsir göstərir. Temperament, xarakter xüsusiyyətləri, emosional zəka səviyyəsi və kommunikativ bacarıqlar müəllimin pedaqoji fəaliyyətində necə davranacağını müəyyən edən əsas amillərdəndir. Yüksək

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 129-132
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 129-132
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

emosional zəka səviyyəsinə malik müəllimlər şagirdlərin emosional vəziyyətini daha dəqiq anlayır, onların ehtiyaclarına uyğun davranış strategiyaları seçir və bu da daha effektiv pedaqoji qarşılıqlı əlaqənin qurulmasına şərait yaradır. Eyni zamanda, müəllimin dəyərlər sistemi, pedaqoji inamları və peşəkar identikliyi də onun davranış modellərinə təsir edən mühüm psixoloji komponentlər kimi çıxış edir.

Müəllimin pedaqoji fəaliyyətində davranış modellərinin formalaşması çoxşaxəli və kompleks psixoloji mexanizmlərin qarşılıqlı təsiri nəticəsində baş verir. Motivasiya, qavrayış, emosional tənzimləmə, sosial öyrənmə və refleksiya kimi mexanizmlər müəllimin davranışının istiqamətini və keyfiyyətini müəyyən edən əsas amillərdir. Bu mexanizmlərin düzgün inkişaf etdirilməsi müəllimin peşəkar kompetensiyalarının artırılmasına, təlim prosesinin effektivliyinin yüksəldilməsinə və şagirdlərin hərtərəfli inkişafının təmin olunmasına xidmət edir. Bu baxımdan müəllimlərin psixoloji hazırlığının gücləndirilməsi, onların reflektiv və emosional bacarıqlarının inkişaf etdirilməsi müasir təhsil sisteminin prioritet istiqamətlərindən biri kimi qiymətləndirilməlidir.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 133-138
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 133-138
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Günay Vəliyeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0009-0271-1766
gunaycavidveliyev@gmail.com

# Alman dilində feil kateqoriyalarının kommunikativ yanaşma kontekstində tədrisinin xüsusiyyətləri

***Açar sözlər***: *alman dili, feil kateqoriyaları, kommunikativ yanaşma, dil tədrisi, tədris metodları*
***Keywords:*** *German language, verb categories, communicative approach, language teaching, teaching methods*

Bu tezisdə alman dilində feil kateqoriyalarının öyrədilməsi və onların kommunikativ yanaşma əsasında tədrisi məsələləri araşdırılır. Alman dilində feillər qrammatik sistemin mühüm tərkib hissələrindən biri hesab olunur və dilin düzgün mənimsənilməsində böyük rol oynayır. Məqalədə alman dilində feillərin əsas kateqoriyaları, o cümlədən güclü, zəif və qarışıq feillər haqqında məlumat verilir və onların tədrisində istifadə olunan metod və üsullar təhlil olunur. Kommunikativ yanaşmanın tətbiqi şagirdlərin dil bacarıqlarının inkişafına, onların ünsiyyət qabiliyyətinin formalaşmasına və dərs prosesində fəal iştirakına müsbət təsir göstərir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, kommunikativ metodların tətbiqi alman dilində feil kateqoriyalarının daha effektiv və səmərəli şəkildə mənimsənilməsinə şərait yaradır.

Alman dili, dünyanın ən çox öyrənilən və akademik baxımdan zəngin dillərindən biridir. Bu dilin tədrisi zamanı feil kateqoriyalarının düzgün və sistemli şəkildə öyrədilməsi tələb

olunur, çünki feillər cümlənin quruluşunda, mənanın düzgün ifadəsində və ünsiyyət bacarıqlarının inkişafında mərkəzi rol oynayır. Feillərin funksiyaları yalnız qrammatik strukturda deyil, həm də kommunikativ qabiliyyətlərin formalaşmasında özünü göstərir.

Bu tədqiqatın məqsədi, alman dilində feillərin kateqoriyalarını sistemləşdirərək onların kommunikativ yanaşma əsasında tədris metodlarını müəyyən etməkdir. Tədqiqatın vəzifələri aşağıdakılardır: 1.Alman dilində feillərin əsas kateqoriyalarını müəyyən etmək və təsnif etmək; 2.Feillərin tədrisində mövcud pedaqoji yanaşmaları və metodları araşdırmaq; 3.Kommunikativ yanaşmaya əsaslanan tədris strategiyalarını praktik nümunələrlə göstərmək; 4.Müəllimlər üçün feillərin öyrədilməsi zamanı tətbiq edilə biləcək tövsiyələr hazırlamaq.

Beləliklə, bu tədqiqat həm alman dili müəllimləri üçün praktik bir rəhbər, həm də nəzəri tədqiqatçılar üçün faydalı bir mənbə təqdim edir. Müasir təhsil sistemində xarici dillərin öyrədilməsi xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma şəraitində müxtəlif dillərdə ünsiyyət qurmaq bacarığı fərdlərin sosial və peşəkar inkişafında mühüm rol oynayır. Bu baxımdan alman dili Avropada və dünyada geniş istifadə olunan dillərdən biri kimi diqqət çəkir və onun öyrədilməsi bir çox təhsil müəssisələrində prioritet istiqamətlərdən hesab olunur. Xarici dilin mənimsənilməsi prosesində qrammatik biliklərin rolu böyükdür və bu sahədə feillər dilin əsas qrammatik komponentlərindən biri kimi çıxış edir.

Alman dilində feillər cümlədə hərəkəti, prosesi və vəziyyəti ifadə edən əsas nitq hissələrindən biridir. Feillərin müxtəlif qrammatik xüsusiyyətləri və kateqoriyaları mövcuddur ki, bu da onların tədrisini daha sistemli şəkildə təşkil etməyi tələb edir. Feil kateqoriyalarının düzgün mənimsənilməsi şagirdlərin həm

şifahi, həm də yazılı nitq bacarıqlarının inkişafına mühüm təsir göstərir.

Son illərdə xarici dil tədrisində ənənəvi metodlarla yanaşı müasir metodların tətbiqinə daha çox üstünlük verilir. Bu metodlardan biri kommunikativ yanaşmadır. Kommunikativ yanaşma dilin real ünsiyyət şəraitində öyrədilməsini və şagirdlərin dil bacarıqlarının praktik fəaliyyət vasitəsilə inkişaf etdirilməsini nəzərdə tutur. Bu yanaşma şagirdlərin dərs prosesində fəal iştirakını təmin edir və onların dili daha effektiv şəkildə mənimsəməsinə şərait yaradır. Əlavə olaraq qeyd etmək olar ki, alman dilində feillərin öyrədilməsi yalnız qrammatik formaların mənimsənilməsi ilə məhdudlaşmamalıdır; şagirdlərin nitqdə aktiv şəkildə iştirak etməsi, onları müxtəlif kommunikativ situasiyalarda sınaqdan keçirmək də vacibdir. Bu yanaşma şagirdlərin öyrəndikləri bilikləri praktik fəaliyyətlərlə möhkəmləndirməsinə şərait yaradır və onların dil öyrənmə motivasiyasını artırır. Eyni zamanda, feillərin müxtəlif kateqoriyalarının öyrədilməsi dərs planlarının daha sistemli və məqsədyönlü qurulmasına imkan verir, bu isə tədris prosesinin effektivliyini yüksəldir.

Alman dilinin qrammatik sistemində feillər mühüm yer tutur və onlar müxtəlif qrammatik xüsusiyyətlərinə görə bir neçə kateqoriyaya bölünür. Bu kateqoriyalar əsasən feillərin zaman formalarının yaranma üsulları və kök dəyişmələri ilə bağlıdır. 1. Feillərin kateqoriyaları: Alman dilində feillər funksiyalarına və formalarına görə bir neçə kateqoriyaya bölünür: Normal (regulyar) feillər – mötərizədə qaydaları sadə olan feillər, məsələn: spielen (oynamaq), lernen (öyrənmək). Qeyri-müntəzəm (irregulyar) feillər – keçmiş zaman və particip formalarında dəyişiklik göstərən feillər, məsələn: gehen → ging, kommen → kam. Modal feillər – cümlədə əsas feilin mənasını dəyişdirən feillər, məsələn: können, müssen, dürfen. 2. Tədris

üsulları: Feillərin öyrədilməsi zamanı aşağıdakı metodlar tövsiyə olunur: 1.Kommunikativ yanaşma – öyrənənlərə feilin istifadəsini real vəziyyətlərdə nümayiş etdirmək. Nümunə: Şagirdlərə "Mən məktəbə gedirəm" cümləsini müxtəlif zaman formalarında demək tapşırılır: Ich gehe zur Schule. → Ich ging zur Schule. 2.Rol oyunları və simulyasiya – gündəlik həyat ssenariləri vasitəsilə feillərin istifadəsini praktikada tətbiq etmək. Nümunə: Marketdə alış-veriş dialoqu: Ich möchte einen Apfel kaufen. 3.Qrup işi və layihə üsulu – feillərin müxtəlif kateqoriyalarını qruplar üzrə öyrənmək və cümlələr qurmaq. Nümunə: Şagirdlər qruplara bölünür və bir hekayə yaradır, hər hekayədə müxtəlif zamanlarda və modal feillər istifadə olunur. 3. Praktik tövsiyələr: - Feilləri vizual qrafiklər və cədvəllərlə təsnif etmək öyrənənlərin yaddaşına kömək edir; - Qeyri-müntəzəm feillərin təkrarında kartlar (flashcards) və interaktiv oyunlar çox effektivdir; - Müəllimlər şagirdləri aktiv şəkildə danışmağa təşviq etməli, feilləri yalnız qrammatik qayda kimi yox, ünsiyyət vasitəsi kimi təqdim etməlidirlər. Alman dilində feillər əsasən güclü feillər (starke Verben), zəif feillər (schwache Verben) və qarışıq feillər (gemischte Verben) kimi qruplaşdırılır.

Güclü feillərin əsas xüsusiyyəti kök saitinin dəyişməsi ilə bağlıdır. Bu tip feillərin keçmiş zaman formaları müəyyən qrammatik dəyişikliklər nəticəsində yaranır. Zəif feillər isə daha sadə quruluşa malikdir və onların keçmiş zaman forması əsasən müəyyən şəkilçilərin əlavə olunması ilə formalaşır. Qarışıq feillər isə həm güclü, həm də zəif feillərin xüsusiyyətlərini özündə birləşdirir. Bu xüsusiyyətlər alman dilinin qrammatik sisteminin daha dərindən öyrənilməsini tələb edir. Xarici dil tədrisində feillərin öyrədilməsi zamanı müasir metodların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Kommunikativ yanaşma şagirdlərin dil biliklərini praktik şəkildə tətbiq etməsinə yönəlmiş

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 133-138
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 133-138
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

metodlardan biridir. Bu yanaşmanın əsas məqsədi dil öyrənənlərin real ünsiyyət situasiyalarında dili istifadə etmələrini təmin etməkdir.

Kommunikativ yanaşmanın tətbiqi dərs prosesində müxtəlif interaktiv fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur. Bu fəaliyyətlərə dialoqların qurulması, rol oyunları, qrup işi və situativ tapşırıqlar daxildir. Belə fəaliyyətlər şagirdlərin dil öyrənmə prosesində aktiv iştirakını təmin edir və onların ünsiyyət bacarıqlarının inkişafına müsbət təsir göstərir.

Alman dilində feillərin tədrisi zamanı kommunikativ metodlardan istifadə şagirdlərin qrammatik biliklərini praktik fəaliyyət vasitəsilə möhkəmləndirməyə kömək edir. Məsələn, şagirdlərə gündəlik həyatla bağlı situasiyalar təqdim edilərək feillərdən istifadə etməklə dialoqlar qurmaq tapşırıla bilər. Bu cür fəaliyyətlər həm dil bacarıqlarının inkişafına, həm də şagirdlərin öyrənmə motivasiyasının artmasına şərait yaradır. Bundan əlavə, feillərin kommunikativ yanaşma əsasında öyrədilməsi şagirdlərin fərdi bacarıqlarını da nəzərə alır. Məsələn, qrup və cüt işləri vasitəsilə şagirdlər arasında interaktiv müzakirələr aparmaq mümkündür ki, bu da onların həm dil, həm də sosial bacarıqlarını inkişaf etdirir. Əlavə olaraq, multimediya və vizual materiallardan istifadə etmək dərs prosesini daha cəlbedici edir və feillərin mənimsənilməsini sürətləndirir.

Kommunikativ yanaşma çərçivəsində feillərin öyrədilməsi zamanı şagirdlərə real həyat situasiyaları təqdim etmək tövsiyə olunur. Məsələn, restoran, alış-veriş və ya səyahət mövzularında qısa dialoqlar qurmaq şagirdlərin həm qrammatik biliklərini, həm də ünsiyyət bacarıqlarını praktik şəkildə inkişaf etdirir. Bu üsullar şagirdlərdə öyrənilən biliklərin daha uzun müddət yadda qalmasını təmin edir və onların nitq fəaliyyətini gücləndirir.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, kommunikativ yanaşma alman dilində feil kateqoriyalarının tədrisində səmərəli metodlardan biri hesab olunur. Bu yanaşma şagirdlərin dərs prosesində fəal iştirakını təmin edir və onların dili praktik şəkildə istifadə etmələrinə imkan yaradır. Kommunikativ metodların tətbiqi həmçinin şagirdlərin dil öyrənmə motivasiyasını artırır və onların ünsiyyət bacarıqlarının inkişafına müsbət təsir göstərir. Nəticə etibarilə qeyd etmək olar ki, alman dilində feil kateqoriyalarının kommunikativ yanaşma əsasında tədrisi daha effektiv nəticələr əldə etməyə imkan verir və xarici dil tədrisinin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Əlavə olaraq, araşdırmalar göstərir ki, kommunikativ yanaşmanın tətbiqi yalnız qrammatik biliklərin mənimsənilməsini deyil, həm də şagirdlərin özünəinamını və dil öyrənməyə marağını artırır. Beləliklə, alman dilində feil kateqoriyalarının kommunikativ metodlarla öyrədilməsi həm tədris prosesini daha interaktiv və effektiv edir, həm də şagirdlərin praktik nitq bacarıqlarını gücləndirir. Bu yanaşma, həmçinin müəllimlərə dərs planlarını daha çevik və məqsədyönlü qurmaq imkanı yaradır ki, nəticədə dərsin ümumi keyfiyyəti yüksəlir.

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Aybəniz Hüseynova**
Azərbaycan Dövlət Aqrar Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-6879-578X
aybenizhuseynova020@gmail.com

## *Rosaceae* fəsiləsinin qabıq elementləri

***Açar sözlər:*** *mantar, tükcüklər, epidermis, fellogen, xlorenxim*
***Keywords:*** *cork, hairs, epidermis, phloem, cortex, chlorenchim*

Konkret ərazilərin müasir flora və bitkiliyini tədqiq etmək, orada baş verən dəyişiklikləri müəyyənləşdirmək, ekoloji, antropogen və zoogen təsirlərə qarşı mübarizə aparmaqla mühafizəsini təşkil etmək də bioloqlar qarşısında duran ən vacib məsələlərdən biridir. Azərbaycan daxilində Böyük Qafqaz, Kiçik Qafqaz ərazisi istər flora, istərsə də bitkiliyi baxımından daima maraq dairəsində olmuşdur. Ağac və kol cinslərində qeyd olunan fundamental tədqiqatların əsas sahəsindən bin qabıq komleksinin quruluş xüsusiyyətlərinin öyrənilməsidir. Qabıq bitkinin elə bir quruluş kompleksidir ki, burada növün mənşəyi, ontogenez və iqlim xüsusiyyətlərinin formalaşma xarakteri öz əksini tapır, buna görə də bizim məqsədimiz Azərbaycanın bəzi ağac və kol növlərində qabıq elementlərinin quruluş xüsusiyyətlərinin öyrənilməsi nəzərdə tutulmuşdur. Gülçiçəklilər fəsiləsi ən geniş yayılmış bitki qruplarından

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 139-145
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 139-145
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

biridir. Bu fəsiləyə 3000-dən artıq növ daxildir. Ancaq bu fəsilənin qabıq elementləri haqda məlumat az olmaqla yanaşı heç bir paleobotaniki dəlillər yoxdur. Çoxillik bitkilərdə, xüsusən ağac və kollarda bir müddət keçdikdən sonra epidermis, adətən, mantar örtüyü ilə əvəz olunur. Mantar örtüyü və ya periderm, epidermisə nisbətən qalın və möhkəm örtükdür. Bu örtücü toxuma ağac və kolların gövdələrim temperaturun təsirindən, buxarlanmadan və s. qoruyur. Epidermisin mantarla əvəz edilməsini biz ağac və kol bitkilərinin birillik zoğları üzərində yayın ortalarında və payızın başlanğıcında müşahidə edə bilərik (Hümbətov, 2002). Zoğun böyüməsi ilə əlaqədar olaraq dəriciyin altında yerləşmiş parenxim hüceyrələr embrional vəziyyətə keçərək bölünməyə başlayır. Bu qayda üzrə mantar kambisi-fellogen əmələ gəlir ki, o da sonra öz növbəsində bölünərək daxilə və xaricə doğra hüceyrələrə ayrılır. Adətən xaricə ayrılan hüceyrələr miqdarca çox olur. Onlara dərhal suberin maddəsi hoparaq toxuma arasında əlaqəni kəsir və epidermisin canlı hüceyrələrində maddələr mübadiləsi dayanır və onlar tələf olur. Mantarlaşmış bu hüceyrə qatı fellem adlanır. Fellem-yunanca mantar deməkdir. Fellogendən daxilə doğru ayrılan canlı parenxim hüceyrələr mantar parenximi və ya felloderm adlanır.

*Rosaceae* fəsiləsinin nümayəndələrində ilkin qabığın quruluş elementləri kəskin veriyasiyalarla quruluş xüsusiyyətlərinə görə dəyişkən olur. Hətta bəzi hallarda eyni cinsin növlərində qabıq elementlərinin topo-anotomik zonalarında müəyyən fərqlər müşahidə edilir. Məsələn bir illik yerüstü zoğlarda olan quruluş fərqləri olduğu kimi cavan kökümsovlar da çılpaq və ya tüklü olmaqla müxtəlif quruluş elementlərinin fərqi olur. Bütün bunlar ekoloji faktorlardan asılı olduğu kimi, paralel olaraq ayrı-ayrı növlərin bioloji xüsusiyyətlərindən də asılı olur. Cavan zoğlarda ilkin quruluş

elementləri formalaşarkən növün tarixi inkişaf mərhələlərində baş verən morfofizioloji aspektlər müəyyən dərəcədə təkrarlanır, ilkin qabıq elementlərdən biri də müxtəlif funksiyalar daşıyan tükcüklərdir.

İlkin olaraq quruluş elementlərindən öncə morfoloji fərq xarici çıxıntılarda müşahidə edilir. Xarici çıxıntılara bu fəsilə üçün xarakterik olan tükcüklər aid edilə bilər. Tədqiq olunan əksər növlərdə tükcüklər təkhüceyrəli, bizvari, müəyyən qədər yoğunlaşmış və ya qlafları müxtəlif dərəcədə odunlaşmış vəziyyətdə nəzərə çarpır.

Məsələn, *Mespilus gennanika* da tükcüklər zoğda təpəcik hissədə qabarcıqlar və şişciklər üzərində yerləşirlər. Digər tədqiq edilən növlərdə, məsələn, *Rubus* da bizvari tükcüklərlə bərabər bir ayaqlı və təkhüceyrəli başlığa malik vəzili tükcüklər müşahidə edilir. *Rosa* da və bəzi yabanı gavalı növlərinin əsasən qısalmış zoğlarında yastıqcıqlar üzərində odunlaşmış parenximli və ya sklerenximli tikanlar mövcud olur.

Kutikulada da olan fərqlər diqqəti daha çox cəlb edir. Bir qayda olaraq kutikul sığallı və yaxud şırımlı, səpkili kələ-kötür olur. Bütün öyrənilən növlər arasında ən qalın kutikul qatı *Rosa* cinslərində rast gəlinir. Epidermisin əsas hüceyrələrinin xarici qılafının ölçüləri də növlərdən asılı olaraq dəyişkən olur. Məsələn, *Cerasus, Armeniaca, Primus,* növlərinin xarici qılafı digər hissələrindən fərqlənmir. Ancaq, *Cydonia* və *Grataegus* növlərində xarici qılaf qalınlığı və kələ-kötürlüyü ilə xüsusi olaraq nəzərə çarpır.

Çox maraqlı tükcük formaları *Cydoniya* növündə müşahidə edilir. Heyva meyvə və dekorativ bitki növü olaraq Azərbaycanda geniş yayılmışdır. Heyvanın yarpaqlarında üst tərəfdən sığallı olmasına səbəb epidermisə daima mum maddəsinin ifraz edilməsi səbəb olur. Yarpağın alt tərəfində çox xırda və nazik tək hüceyrəli tükcüklər işğal edir. Payıza dönəndə

bu şəffaf tükcüklər daha da yoğunlaşaraq yarı odunlaşır və qonur rəng alaraq yarpağı alt tərəfdən möhkəm sıx surətdə örtür. Belə xüsusiyyət yarpağı payız aylarında gecə soyuqlarından qoruyur.

Bəzi növlərdə isə epidermis hüceyrələrinin radial qılafları qalınlaşaraq bir-birindən nisbətən fərqli olur. Məsələn, *Cerasus, Prunus-da* hüceyrənin en kəsiyində xüsusi formalı (ψ) quruluş görünür (Esay, 1980).

Gülçiçəklilər fəsiləsinin tədqiq edilən növlərdə yerüstü zoğların və kökümsovların ilkin qabığında histoloji elementlərin də kəskin fərqli olması müşahidə edilir. *Rosaceae* fəsiləsinin nümayəndələrində kökümsovlarda ilkin qabığın demək olar ki, bütün sahəsini seyrək yerləşən nazik qılaflı nisbətən odunlaşmamış parenxim hüceyrələr qrupu tutur.

Fəsilənin bəzi növlərində *(Cydoniya, Rubus, Fraqariya-yeraltı kökümsovlarda.)* epiderm və subepiderm qatlarını təşkil edən hüceyrələrdə payız-qış aylarında ehtiyat qida maddələri kimi tünd rəngli piqmentlər toplanır. Bu piqmentlər soyuq şaxtalarda cavan zoğları qoruyur (Novruzova, 1985). Əksər tədqiq edilən növlərdə yerüstü gövdə zoğlarında epidermdə kollenxim və onun müxtəlif formaları bucaqlı kollenxim, nadir hallarda bucaqlı-laylı və ya laylı kollenxim yerləşir. Çox növlərdə əsasən ot tiplilərdə, bu kollenxim bütün qabıq zonasını işğal edir. Yalnız, ağızcıq altı və ya uzununa yerləşən şüa sahələrində kollenximə rast gəlinir. Bu sahələrdə olan kollenxim vegetasiya dövrünün sonuna qədər, adətən, odunlaşır. Bəzi növlərdə epiderm altı kollenxim, odunlaşmış sahə olan 2-ci qılafı əmələ gətirir. Yalnız *Rubus* cinsinin nümayəndələrində epidermis altında xlorenxim hüceyrəsinə rast gəlinir. Nadir növ olan *Aruncus* da yerüstü gövdə zoğlarında daxili kollenxim, qeyri-adi quruluş tipi olan *autapomorfiya* əmələ gətirir.

Əksər tədqiq olunan növləri yerüstü zoğlarında subepidermal hissədə 1-3 qatlı odunlaşmış qılafa malik bərabər

nazik *(Cereocarpus parvifolius)* və ya bərabər *(Aruncus vulqaris*-in yerüstü zoğları) qalınlaşmış hüceyrələrə rast gəlinir. Subepidermal sahədə tam odunlaşmış qılaflı hüceyrələri isə *Potentula* da müşahidə etmək olur. Bu toxumanı biz hipoderm hesab edirik və bu hüceyrələrdə ehtiyat qida maddəsi kimi nişasta toplanılır. Nadir hallarda birillik zoğlarda subepidermal sahədə yerləşən üzvlü və ya üzvsüz odunlaşmamış, ancaq qılafı qalınlaşmış hüceyrələrə rast gəlinir ki, biz bunları təcridli və ya qırıq-qırıq hipoderm sahəsi kimi baxırıq. Adətən, hipodermlə kollenximi ayırd etmək çətin olur. Buna görə də, kollenximin subepidermal hüceyrələrə aid edilməsi şərti anlayışdı. Bəzi növlərdə hipoderm qüvvətli inkişaf edərək xarici kollenxim olmur və ya seçilmir. Nadir hallarda *(Potentilla)* gövdənin aşağısına doğru kollenxim tədricən hipodermlə əvəz olunur. Bütün bunlar bu iki quruluş xüsusiyyətinin homoloji əlamət olmasına əsas verir. Bəzi növlərdə hipoderm ondan kəskin fərqlənən kollenximlə birgə, qüvvətli inkişaf edir. Ona görə də biz hesab edirik ki, gülçiçəklilər fəsiləsinin nümayəndələrində hipoderm modifikasiya uğramış kollenxımə uyğun deyil.

*Spirea da* subepidermal toxuma xüsusi fərqli quruluşa malikdir: 1 -2 qat tipik parenxim hüceyrələri altında alt parenximdən fərqlənən sklerenxim qüvvətli inkişaf edir. Çox güman ki, bu subepidermal toxumanı hipoderm hesab etmək qanunauyğunluqdur, ancaq digər nümayəndələrin hipodermlərinə bu uyğun gəlmir.

*Tetraglochine, Alchemilla* cinsinin nümayəndələrində ilkin qabıq parenxim 2-3 qat daxili hüceyrələr ilə ifadə olunur. Tədqiq olunan bütün növlərdə ilkin qabığın daxili qatı ondan xarici hissədə yerləşən parenxim hüceyrələrindən morfoloji olaraq fərqlənmir. Yəqin ki, bu fərqlənmə fizioloji funksiya səviyyəsində ola bilər. Ancaq fəsilənin digər az olmayan nümayəndələrində parenxim aralı və ya qeyri-aralı, bitişik

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 139-145
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 139-145
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

(fasiləsiz) yerləşərək müxtəlif quruluşlu və tipli endoderm kimi təqdim edilir.

Bəzi növlərdə *Mespilus, Potentula, Sibbaldia* endoderm qabıq parenximi hüceyrələrindən yalnız başqa formada olması, ölçüləri və sıx yerləşməsi ilə fərqlənir. Bu hüceyrələr adətən canlı halda mövcud quruluşu saxlayırlar, ancaq ilkin qabığın parenxim hüceyrələri sıradan çıxanda onlar da məhv olur (Tutayuk, 1975). Məsələn, eyni cinsdən olan *Potentulanın* digər növlərinin isə yerüstü zoğlarında qeyd olunan Kaspari qalınlaşmalarına rast gəlinir. *Prinsepia utilis* növündə isə endoderm hüceyrələrinin tangensal və radial divarlarında qalınlaşma və odunlaşma müşahidə edilir. Eyni cinslərin başqa növlərində isə radial divarları bərabər və nazik qalınlaşanlara da rast gəlinir. Bütün qeyd edilən quruluş xüsusiyyətlərindəki kiçik fərqlər, böyük taksonomik əhəmiyyət kəsb edir. Çox maraqlı və nadir endodermin inkişafı *Arunkus, Spirea* cinslərinin nümayəndələrində baş verir. İlkin qabığın quruyarpaq tökülməsindən sonra odunlaşmış hüceyrələrinin xarici tangensal divarları qalınlaşaraq örtücü toxuma funksiyasını yerinə yetirir (Vexov, 1978).

*Rosaceae* fəsiləsinin tədqiq olunan növlərinin əksəriyyətində parenxim, xlorenxim və bəzən də kollenximdə oksalat kalsium duzlarından ibarət idi. Oblastlara da rast gəlinir. Bu idioblastlar əsasən 1-2-3 ədəd sistolitlər və ya çox bucaqlı kristal formasında toplanır. Bəzən ilkin qabıqda qonur möhtəviyyatlı idioblastlara da rast gəlinir. Bu qonur maddə əsasən qışlamaya gedən dövrdə daha çox olur.

## Ədəbiyyat

1. Ehsau, K. (1980). *Anatomiya semennykh rastenii*. Mir.
2. Hümbətov, Z.İ. (2002). *Bitki anatomiyası və morfologiyası*. Elm.
3. Novruzova, Z.A. (1985). *Ehndomorfologiya rastenii Nakhichevanskoi ASSR i ikh strukturnaya ehvolyutsiya*. Elm.
4. Tutayuk, V.Kh. (1975). *Drevesnye relikty Talysha*. Elm.
5. Vekhov, V.N. i dr. (1978). *Malyi praktikum io anatomii i morfologii vysshikh rastenii*. Nauka.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 146-148
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 146-148
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Elnurə Səfərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
seferovaelnure@mail.ru
**Günel Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0001-6916-7955
memmedovagunel564@gmail.com

# Müasir biologiyada psixoloji gərginlik pozuntularının öyrənilməsi interaktiv layihə kimi

***Açar sözlər:*** *biologiya, müasir, psixoloji pozuntu, interaktiv, layihə*
***Keywords:*** *biology, modern, anxiety disorder, interactive, project*

Müasir biologiyada psixoloji gərginliyin məktəblilər üçün interaktiv layihə kimi öyrənilməsi mühüm əhəmiyyət daşıyır. Layihə çərçivəsində psixoloji gərginlik pozuntusunun əsas əlamətlərinin, növlərinin və bu pozuntudan əziyyət çəkən şəxslərə verilən məsləhətlərin öyrənilməsi şagirdlərdə həm nəzəri biliklərin formalaşmasına, həm də praktik vərdişlərin inkişafına şərait yaradır. Biologiya dərslərində bu mövzunun tədrisi şagirdlərin psixoloji sağlamlığına müsbət təsir göstərir, təşviş və gərginlik halları ilə mübarizə yollarını öyrədir. Bu cür layihələr məktəblilərin həm elmi dünya görüşünü genişləndirir, həm də onların sosial-emosional rifahına müsbət təsir göstərir.

Layihənin planı:

1. Psixoloji gərginliyin əlamətləri.

2. Psixoloji gərginliyin növləri.
3. Psixoloji gərginliyi olan xəstələrə görülən məsləhətlər.

*1.Psixoloji gərginliyin əlamətləri.* Psixoloji gərginlik ani gələn qorxu, vahimə hissinin şiddətli olmasıdır. Başqa adla panik hücum və ya vahimə pozuntusu da adlanır. Psixoloji gərginliyin əlamətləri aşağıdakı kimidir:

- ✓ Bayılmalar, insanın huşunu itirməsi;
- ✓ Dəli olmaq. Evdən qaçmağa qədər proses davam edə bilir;
- ✓ Ani gələn ölüm qorxusu;
- ✓ Ürəyin yerindən çıxacaq qədər döyünməsi;
- ✓ Nəfəs darlığı və ya təngnəfəsliyin olması;
- ✓ Boğulma və ya nəfəs çatışmazlığı hissi;
- ✓ İnfarkt keçirirmiş kimi, sinə hissədə, döş qəfəsində ağrı hissinin olması;
- ✓ Orta və ya güclü tərləmələr;
- ✓ Əllərin və ya ayaqların titrətməsi, bədənin əsməsi;
- ✓ Ürəkbulanmalar, qusma hissi;
- ✓ Qarında ağrıların olması;
- ✓ Əllər və ayaqların keyləşməsi, qarışqalanma hissi;
- ✓ Baş verənlərin gerçəklikdən uzaq olması;
- ✓ Əl və ayaqlarda, barmaq uclarında soyuma.

*2.Psixoloji gərginliyin növləri.* Panik pozuntusu. Güclü qorxu gəldiyi an başlayır. Bir neçə dəqiqədən 40-45 dəqiqəyədək çəkə bilir. Bu ani gələn dəhşət hissidir.

Aqorafobiya insanın tanımadığı yerlərdə halı pisləşdiyi zaman başqalarından kömək ala bilməmək qorxusudur. Belə xəstələr evdən kənara çıxmamağa çalışırlar. Kütlə, toplum, insanların çox olduğu yerlərdə olmaq onları narahat edir.

*3.Psixoloji gərginliyi olan xəstələrə görülən məsləhətlər.* Gərginlik pozuntuları zamanı müəyyən edilmiş tənəffüs hərəkətləri etmək məsləhət görülür:

- 1.İlk öncə 3 saniyə ərzində nəfəs alınmalı;
- 3 san tutub saxlamalı;
- 3 saniyə sonra nəfəsi verməli;
- Gün ərzində bu nəfəs hərəkətlərini 10 dəq olmaqla 2 dəfə təkrar etməli.

Təşviş pozuntuları baş verən zaman bu nəfəs texnikası çox fayda verəcəkdir. Bu xəstələrlə yaxınlarının söhbətlər aparması məsləhət görülür: - Xəstəni sakit və diqqətlə sona kimi dinləməli; - Öz problemini danışmağa onu təhrik etməli; - Onunla xoş, müsbət münasibətdə olmaq.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 149-151
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 149-151
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Eldar Əliyev**
ARETN Botanika İnstitutu
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-1361-6044
eldaraliyev1964@gmail.com
**Elvin Eyyubov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-2833-8628
eyyubov.elvin27@gmail.com

# Lənkəran-Astara bölgəsində yayılmış Qafqaz xurması (Diospyros lotus) və Hirkan armudu (Pyrus hyrcana) növlərinin bioekoloji xüsusiyyətləri və yayılma arealı

***Açar sözlər:*** *flora, Qafqaz xurması, Hirkan armudu, yarpaq, meyvə, çiçək*
***Keywords:*** *flora, Caucasian date palm, Hyrcanian pear, leaf, fruit, flower*

Lənkəran-Astara bölgəsi öz unikal coğrafi mövqeyi, mülayim-rütubətli iqlimi və Xəzər dənizinin termolayiqləşdirici təsiri sayəsində Cənubi Qafqazın ən zəngin floristik rayonlarından biri hesab edilir. Bu bölgənin əsas landşaft elementini təşkil edən Hirkan meşələri Neogen dövrünə aid relikt ekosistem kimi qiymətləndirilir və burada bir sıra nadir, endem növlər mühafizə olunur. Həmin növlər arasında Qafqaz xurması (Diospyros lotus L.) və Hirkan armudu (Pyrus hyrcana) xüsusi elmi-ekoloji əhəmiyyət daşıyır.

Qafqaz xurması ebenakimilər (Ebenaceae) fəsiləsinə aid, hündürlüyü 25–30 m-ə çatan iri ağac növüdür. Növün gövdəsi

tünd-boz qabıqla örtülü olub, qabıq yaşlandıqca xarakterik kvadrat formalı çatlara parçalanır. Yarpaqları sadə, növbəli, uzunsov-elliptik formalı, uzunluğu 6–16 sm, eni 3–7 sm olmaqla, üst səthi tünd-yaşıl, alt səthi isə açıq-yaşıl rəngdədir. Çiçəkləri xırda, ağımtıl-sarı rəngdə olub, mayın ikinci yarısından iyunun əvvəlinə qədər açılır və növ ikicinsli-ikievlidir. Meyvəsi 1–2 sm diametrli, yetişdikdə sarımtıl-qonur rəng alan girdə gilə-meyvədir, payız mövsümündə yetişir. Bioekoloji cəhətdən Qafqaz xurması rütubətsevər (mezofil) xarakter daşıyır, illik yağıntı miqdarının 1200–1800 mm arasında olduğu ərazilərdə optimal inkişaf edir. Kölgəyə dözümlü olmaqla yanaşı, açıq ərazilərdə də rəqabət qabiliyyəti yüksəkdir. Torpaq tipinə görə seçici deyil və qonur meşə torpaqlarında, allüvial-çəmən torpaqlarında, həmçinin zəif turşuluğa malik lokal ərazilərdə yayılır. Bölgədə növ Lənkəran düzənliyindən başlayaraq Talış dağlarının 600–900 m hündürlük intervalına qədər qalxır. Peştəsər, Penbək, Buynuz dağ silsilələrinin ətəklərindəki qarışıq-geniş yarpaqlı meşələrdə özəl meşə yaruslarını formalaşdırır.

Hirkan armudu (Pyrus hyrcana) isə gülçiçəyikimilər (Rosaceae) fəsiləsinə, Pyrus L. cinsinə aid, hündürlüyü ümumən 10–15 m-ə çatan, nadir hallarda 20 m-ə yaxın olan ağac növüdür. Gövdəsinin qabığı tünd-boz, qalın, uzununa çatlı olub, cavan budaqlar əvvəllər tükəli, sonra çılpaqlaşır. Yarpaqları yumurtavari-elliptik, uzunluğu 4–9 sm, kənarları xırda dişli-mişarvari, payızda narıncı-sarı rəngə boyanır. Çiçəkləri ağ, diametri 2–3 sm, topaşçalarda toplanan kortikli çiçəklər aprelin ikinci yarısında – mayın əvvəlində açılır. Meyvəsi armudvari, 2–5 sm uzunluğunda, yaşıl-sarımtıl rəngdə, dadı turşumtul-şirindir, avqust-sentyabrda yetişir.

Hirkan armudu Qafqaz florasının endem elementi sayılır və əsas arealı Talış dağları ilə Lənkəran ovalığının meşə kənarları,

dərə meşələri və dağ yamaclarını əhatə edir. Növ 50–1400 m mütləq hündürlük intervalında rast gəlinir. Ən sıx populyasiyaları 400–800 m arasında qeydə alınmışdır. Nəmlik rejiminin optimal olduğu qonur meşə torpaqlarında və dağ-çəmən torpaqlarında inkişaf edir, işıqsevər xüsusiyyəti onu meşə kənarlarına, açıqlıqlara, aşınmış dağ yamaclarına cəlb edir.

Ərazi daxilindəki populyasiyaların monitorinq məlumatları göstərir ki, son onilliklərdə qeyri-qanuni qırma, otlaq təzyiqi və iqlim anomaliyaları hər iki növün yayılma sıxlığını mənfi istiqamətdə dəyişdirmişdir. Qafqaz xurmasının ovalıq populyasiyaları insan fəaliyyəti nəticəsindəki habitat parçalanmasından daha ciddi zərər görmüşdür. Növün Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilməsi üçün meyarların yenidən dəyərləndirilməsi zəruridir.

Hirkan armudu isə hal-hazırda müxtəlif meyarlar əsasında müəyyən bir kateqoriyaya aid edilərək qorunmaya ehtiyacı olan növlər siyahısında yer alır. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, bölgədə hər iki növün genetik müxtəlifliyinin qorunub saxlanması üçün mühafizə tədbirlərinin xüsusilə Hirkan Milli Parkı ərazisinin genişləndirilməsi, mühafizə olunan zonaların yaradılması və populyasiya dinamikasının uzunmüddətli monitorinqinin sürətlə həyata keçirilməsi ekoloji cəhətdən vacibdir. Nəticə etibarilə, Lənkəran-Astara bölgəsinin floristik irsinin əvəzolunmaz komponenti olan Qafqaz xurması və Hirkan armudu növlərinin hərtərəfli bioekoloji tədqiqi həm yerli ekosistemlərin dayanıqlılığının qiymətləndirilməsi, həm də beynəlxalq miqyasda relikt meşə ekosistemlərinin mühafizəsi strategiyalarının formalaşdırılması baxımından elmi əhəmiyyət kəsb edir.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Rəsmiyyə Kərimova**
Azərbaycan Dövlət Aqraq Universiteti
https://orcid.org/0009-0009-4232-404X
kerimova.resmiyye @list.ru
**Nailə Məmmədova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0006-3212-5387
naila.mamedova.65@mail.ru
**Ulduz Əlizadə**
Dendralogiya bağı
https://orcid.org/0009-0003-2666-8009
ulduz.alizade95@gmail.com

# İtburnu (Rosa canina L.) bitkisi və onun əhəmiyyəti

***Açar sözlər:*** *dərman bitkisi, itburnu, pektin maddələr, kempferol, kversetin, askorbin turşusu, karatinoid*
***Keywords:*** *medicinal plant, roseship (Rosa canina), pectin compounds, kaempferol, quercetin, ascorbic acid, carotenoids*

Tropik iqlim şəraiti istisna olmaqla, Yer kürəsinin əsas iqlim növlərinin hamısına Azərbaycan ərazisində rast gəlmək olar. Tərkib baxımından şabalıd, boz, qonur, dağ-çəmən, subtropik və digər torpaq örtüyünün olması mədəni və yabanı bitki örtüyünün zənginliyinə gətirib çıxarıb. Bununla əlaqədar olaraq, respublikamızın müxtəlif ərazilərində zəngin və məhsuldar yarım səhra bitki örtüyü meşə florası əsas yer tutur. Azərbaycanın belə münbit torpaq və əlverişli iqlim şəraiti 500-dən artıq mədəni bitkinin yetişməsi üçün gözəl mühitdir. Belə bitkilərdən zəfəran, zeytun, badam, qarğıdalı, əzvay, itburnu (dərgil), nar, nanə, pambıq, sumax, çay, gənəgərçək, günəbaxan

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

və s. saymaqla qurtaran deyil. Mədəni bitkilərlə yanaşı olaraq, bunlar içərisində yabanı halda bitən dərman əhəmiyyətli bitkilər də üstünlük təşkil edir. Hələ XVII əsrdən belə bitkilərin müalicəvi əhəmiyyəti insanlara məlum olduğundan geniş istifadə edilirdi. Respublikamızın ərazisində bitki örtüyü arasında geniş yayılan bitkilər içərisində itburnu adlanan – elmi adı isə dərgil olan kol bitkisi üstünlük təşkil edir. Bitkinin araşdırılması zamanı 42 növünün yayılması məlum olmuşdur. Növlər arasında tərkib baxımından daha zəngin olanlar insanlar tərəfindən yüksək qiymətləndirilərək geniş istifadə edilir. Çiçəkləri çəhrayı, meyvələri isə qırmızı olur. El arasında dərgil bitkisinin darçın, tikanlı və qarışıq meyvəli növləri geniş istifadə edilir. Bu növlərin meyvələri müxtəlif vitaminlərlə zəngindir. Azərbaycan ərazisində yayılan növlərin meyvələrində C vitamini üstünlük təşkil edir. İtburnu (dərgil) bitkisinin meyvələrinin dərman əhəmiyyəti böyükdür. Meyvələri payız aylarında yetişir, qırmızı-çəhrayı meyvələri toplanır. Meyvələr otaq şəraitində qurudulur. Yerli əhali əsasən şaxta düşənə qədər meyvələri toplamağa üstünlük verir, çünki C vitamini bu dövrdə meyvələrin tərkibində daha çox olur. Bitkinin qurudulmuş meyvələrinin tərkibində 6-7% qədər vitamin C olur, 13-18% vitamin karotin (provitamin A), $B_1$ və $B_2$ vitamini 0,4 mq, vitamin K, kartinoid, flavinoidlər (kversetin, kempferol və s.) 19-20% qədər şəkər, aşı maddələri, 5%-ə qədər P və A vitamini, alma və limon turşusu 4% qədər, pektin maddəsi və s. var. Bitkinin toxumlarında vitamin E və piyli yağın miqdarı çoxdur. Zəngin tərkibli olması bitkini daha qiymətli edir və istifadə yollarını artırır. Gəncə və Göy-göl ərazisində yerli əhali btkinin meyvələri ilə yanaşı çiçklərindən də geniş istifadə edir. Çiçəklər açan dövrdə toplanır, çay kimi dəmlənərək immunitet artırmaq, tənəffüs yolları (faringit, laringit və s.) xəstəlikləri eleyhinə geniş istifadə edilir. Həmçinin, ləçəkləri toplanaraq mürəbbə

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

bişirilir, sakitləşdirici, ürək döyüntüsü və s. üçün böyük təsirə malikdir. Çiçəyin tərkibində olan üzvi maddələr müəyyən dərəcədə tibbi əhəmiyyətə malikdir. Bu məqsədlə diatezdə, qanamalarda, sümük sınıqlrında, infeksion xəstəliklərdə, sinqa xəstəliyində C vitaminin zənginliyinə görə dərgil meyvəsindən hazırlanmış şirələrdən geniş istifadə edilir.

Son illərdə skleroz xəstəliyi zamanı da yüksək effektə malik olduğu mütəxəsislər tərəfindən müəyyən edilmişdir. C vitamini orqanizmin normal inkişafını tənzim edir, maddəər mübadiləsini yaxşılaşdırır, qan təzyiqini nizamlayır, iltihabı aradan qaldırır. Karotin və ya A provitamini az yaşlı uşaqlara da xəstəliklərə qarşı müqaviməti artırmaqla gözün görmə qabiliyyətini artır. Vitamin $B^1$ sinir sisteminin möhkəmlənməsinə, həyat fəaliyyətinin artmasına kömək edir. $B^2$ vitamini isə qaraciyər, şəkər, dəri xəstəliklərində, qan azlığında yaxşı təsir göstərir. Yabanı kol bitkisi olan itburnunu el arasında bəzən "vəhşi qızılgül" adlandırırlar. Ona hər yerdə - meşə ətraflarında, dağ ətəyində, parklarda, çay sahilində və yol kənarında rast gəlmək olar. Bir çox alimlər İranın və Himalayın dağlıq ərazilərini itburnunun vətəni hesab edirlər. İtburnu bitkisi yer kürəsində buzlaq, tundra və səhralardan başqa hər yerdə bitir. Onun giləmeyvələri heyvan və quşları da özünə cəlb edir. İtburnu meyvələri şaxtalar düşənə qədər yığılmalıdır, çünki ən zəif şaxta onun dərman keyfiyyətlərini məhv edir. Düzgün qurudulan itburnu meyvələrini ağzı bağlı qablarda uzun müddət saxlamaq olur. Dərgil (itburnu ) bitkisinin narıncı meyvələri faydalılıq baxımından çox qiymətli maddələrlə zəngindir. Yetişən zaman - tərkibindəki vitaminlərin miqdarı bir qədər azalır. Giləmeyvələrdə olan vitamin və mikroelementlərdən qanazlığı, ateroskleroz və xəstəliklərdən sonra orqanizmin zəifləməsi zamanı istifadə edilir. Bitkinin meyvələri askorbin turşusunu limon və qarağatdan daha çox özündə toplayır, təbii antioksidant

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 152-160
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 152-160
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

olaraq yüksək keyfiyyət və xüsusiyyətləri özündə birləşdirir. Sərt qış günlərində dərgil giləmeyvələrinin dəmləməsini içməklə soyuqdəymədən qorunmaq olur. Əsrlər boyu xalq təbabətində itburnunun köklərindən qaynadaraq istifadə etməklə həzm prosesinə və bağırsaq problemlərinin müalicəsinə yardım etmişlər. Hal-hazırda bir çox ölkələrdə hələ də yerli əhali vərəm, sinir və ateroskleroz kimi xəstəliklərin müalicəsində bitkidən və ondan hazırlanmış şirələrdən istifadə edir . İtburnu ləçəkləri ilə qızıl yel xəstəliyinin müalicə olunduğu haqqında bir çox yazılarda mövcuddur. 4-6 illik bitki kökləri qaynadılaraq əldə edilən məhlul aşağı ətraflarda yayılan göbələyi sağaldır. Bu baxımdan xalq təbabətində bitkinin bütün hissələrindən - çiçək, meyvə, yarpaq və köklərindən istifadə edilir. Bitkidən alınan məlhəmlər qaşınma , səpgi , yara, yanıqlar, şaxta nəticəsində yaranan problemlər və psoriazın müalicəsində tətbiq edilir. Sətəlcəm, difteriya, skarlatina, göyöskürək zamanı itburnu ekstraktı, sirop və cövhərı çox xeyirlidir. İtburnu (dərgil) bitkisinə əsasən dünyanın mülayim isti ərazilərində rast gəlinir. Gülçiçəklilər (rosaceae) fəsiləsinə aiddir. Tikanları gövdə və yarpaqları boyu düzülmüşdür. Çiçəkyanlığı qədəhəbənzər çuxur formasında olur. Çiçək yatağının çuxur formasında olmasına görə meyvə yarpaqlarının sayı azdır, beşüzvlüdür. Meyvəsi fındıqça meyvədir, bir çox qiymətli maddələri özündə toplayyır. Bitki əkildikdən 3-5 il sonra məhsuldarlığı artmağa başlayır. Qafqazda bu bitkinin 56 növü müəyyən edilmişdir. Yer kürəsində isə ümumilikdə 500-600 növü yayılmasına baxmayaraq ancaq 18 növü endemik sayılır. Bitki yabanı halda bitir. Gövdə və budaqları cüt və ya dağınıq tikanlı formada olur, ləçəkləri 5, bəzən isə 4 ədəd olur. Çoxsaylı erkəkcik və dişiciyi var. Çiçəkləmə zamanı növündən asılı olaraq ağ, çəhrayı, sarı, tünd-sarı və qırmızı rəngli çiçəklər açır. Yayılması əsasən dağ yamaclarında, vadilərdə, yol kənarında üstünlük təşkil edir.

https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Azərbaycanda 6 növü mədəni bitki kimi becərilir. Ən geniş yayılan yüzyarpaq itburnu (R. centifolia) və çoxçiçəkli itburnudur (R. multiflora). İtburnu bitksinin May itburnu - Rosa majalis Herrm. növü geniş yayılmışdır, hündürlüyü 1,5 -2 m-dir , tikanlıdır. Digər növlərdən fərqli olaraq meyvələri şar şəklindədir. Tərkibində 4,2-14% askorbin turşusu mövcuddur. Tikanlı itburnu - Rosa acicularis L.-dir. Kol bitkisi olub, hündürlüyü 2 m-dir. Gövdəsi tikanlı, incə, düzqalxan və cod tükcüklərdən ibarətdir. Yarpaqları əsasən yaşıl-göyümtül rəngdə olur, çiçəkləri çəhrayı və sarı rənglidir. Meyvələri uzunsov, kənarları daralmış, kasayarpağı ilə birlikdə çəhrayı-purpur rənglidir. Əsasən Rusiya ərazisində rast gəlinir. Tərkibi vitaminlərlə zəngindir. Tərkibində 4-14% askorbin turşusu vardır. Qırışıq itburnu - Rosa rugosa Thunb. kol formasındadır. Gövdəsi düzqalxan, hündürlüyü 2 m-ə qədər olub, çoxsaylı tikanlıdır. Yarpaqları qırışıqdır. Çiçəkləri çəhrayı-purpur rəngli olub, diametri 6-8 sm-dir. Meyvələri iri, şarşəkilli və qırmızı rəngdədir. Rusiyanın Uzaq Şərqində yayılmışdır. Tərkibində 3-6% askorbin turşusu mövcuddur. Digər itburnu növü - Rosa davurica Pali. kol bitkisi olub, hündürlüyü 1,5 m-dir. Tikanları əyilmiş və bükülmüş formadadır. Çiçəkləri tünd-çəhrayı rənglidir. Meyvələri şarşəkilli, çəhrayı, yuxarıya doğru qeyri-düzgün formalı və düzqalxan kasacıqdır. Rusiyanın Uzaq Şərq və Qərbi Sibir ərazilərində yayılmışdır. Vitaminlərlə zəngindir. Tərkibində 3-18%-ə qədər askorbin turşusu vardır. Begger itburnu - Rosa beggeriana Schrenk. kolşəkilli olub, hündürlüyü 1-2,5 m, yarpaqları tikancıqlı, oraqvari qatlanmışdır. Cavan yarpaqları purpur rənglidir. Çiçəkləri ağ rəngli olur. Meyvələri qırmızı, şarşəkilli, səpələnmiş, diametri 1 sm-dir. Mərkəzi Asiyada yayılmışdır. Tərkibində 5-18% askorbin turşusu mövcuddur.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 152-160
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 152-160
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

Rosa micrantha Borrer ex Smith. Kiçikçiçəkli itburnu növü kolşəkilli olub, hündürlüyü 1,5-2 m olub, tikanları nisbətən qatlanmışdır. Çəhrayı-ağ çiçək açır. Meyvələri şarşəkilli, çəhrayı-qırmızı rəngli şarşəkilli meyvələri var. Kiçik və Böyük Qafqaz ərazilərində yayılmışdır. Tərkibində 0,7-1,2%-ə qədər askorbin turşusu olduğu aşkar edilmişdir. Hündürlüyü 2,5-3 metrə çatan növlərdən biri də Rosa canina L. adlı Həmərşin itburnusudur, budaqları nazikdir, üzərində tək-tək yerləşmiş tikanları var. Növbəli düzülmüş yarpaqları var, kənarları mişardişli, üst tərəfi tünd, altı isə bozumtul yaşıl rəngdədir. Çiçəkləri iri, uzun saplaqlı, tək, bəzən 2-3 sayda topa halında olur. Ləçəklərinin sayı 5 solğun çəhrayı və ya ağ rəngdədir. Meyvələri daha iri kasayarpaqlı, tünd qırmızı və ya qan rəngində olur. Rosa centifolia - hündürlüyü 2 metrə qədər olan kol bitkisidir. Oraqvari quruluşlu tikanları var. Mürəkkəb yarpaqları 5 ədəd yumurtavari formalıdır, üstü hamar, alt hissəsi vəzili, kənarları ikiqat mişardişlidir, ləçəkləri parlaq çəhrayıdır. Bir neçə əsrdən artıqdır ki, itburnu bitkisi dərman əhəmiyyətli bitki kimi istifadə olunur.



Bitkinin kök, çiçək və meyvələrində xüsusi birləşmələr müəyyən edilmişdir və onların bioaktivliyi ilə bağlı fərziyyələr flavonoidlər, karotenoidlər və yağ turşuları ilə əlaqədardır. Bitkidə olan yağ turşularının faydaları son illərdə araşdırılır. R. canina növünün meyvələrinin tərkibində üstünlük təşkil edən üç

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 152-160
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 152-160
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

FA ilə əlaqəli bioaktivliyin xüsusi mexanizmləri tədqiqatlarda aydınlaşdırılıb. Məsələn, linoleik turşusu, α-linolenik turşusu (əsasən R. canina toxumlarında mövcuddur) və qalaktolipid ((2 S)-1,2-di- O - [ (9 Z ,12 Z ,15 Z) - GOPO olaraq adlandırılan octadeca-9-12-15-trienoyl]-3- O -β- d -qalaktopiranosil qliserolun antiinflamatuar xüsusiyyətlərə malik olduğu göstərilmişdir. Bitki yüksək dərman, vitamin, yeyinti, boya, bəzək bitkisi olmaqla bərabər, həm də bal verən bitki kimi böyük əhəmiyyət kəsb edir. İtburnunun tərkibində 9,8% karotinlər, qlikozidlər: C, B1, B2, P, K vitaminləri (təxminən 2,5-5,5%), 14% pektin maddələr, kempferol, kversetin, şəkər aşılayıcı maddələr, 1,9% limon və alma turşuları, efir yağı, 23,9% ümumi şəkər, 18,6% invert şəkər, 5% saxaroza, 8,9% pentoza və çoxlu miqdarda kalium, kalsium, dəmir, fosfor və maqnezium mövcuddur. Həmçinin, gövdə və köklərində aşı maddələri mövcuddur. İtburnunun tərkibində C vitamininin (askorbin turşusunun) miqdarı çoxdur. İtburnu ənənəvi olaraq müxtəlif xəstəliklərin müalicəsi üçün dərman birləşmələri kimi istifadə olunur.

Bu bitkilərin müalicəvi potensialı digərləri arasında askorbin turşusu, fenolik birləşmələr və sağlam yağ turşularını ehtiva edən fitokimyəvi tərkibinin yaratdığı və ya onunla əlaqəli olan antioksidant təsirlərinə əsaslanır. Müasir dövrdə molekulyar nöqteyi-nəzərdən yeni terapevtik yanaşmalara diqqət yetirərək, oksidləşdirici stresslə əlaqəli bəzi xəstəliklərin müalicəsində itburnunun müxtəlif növlərinin rolu araşdırılır. Yabanı meyvələrin geniş çeşiddə qida və digər qida məhsullarında istifadəsi son illərdə sağlamlıq baxımından daha çox istehlakçıların marağına səbəb olmuşdur. İtburnu çiçəklərindən əldə edilən meyvələr, çaylarda, mürəbbələrdə geniş istifadə olunur, lakin son vaxtlar sağlamlığın təbliği potensialına görə də diqqəti cəlb edir. Təbii və dadlı funksional

qidalara artan istehlak tələbi itburnunu Avropada arzu olunan təbii məhsula çevirdi. İtburnu bitkisi az qulluq tələb edir və buna görə də həm qida, həm də qida sənayesi üçün potensial gəlirli məhsuldur. Qida sənayesinin, eləcə də istehlakçıların itburnu məhsullarından böyük fayda əldə edəcəyinə ümid edilir. Bitkinin yalançı meyvələrindən istifadə edilir. Meyvələrin tərkibində polivitaminlər olmaqla, çay şəklində işlədilir. Toxumlarından yağ (Oleum Rosae pinguiae) hazırlanır. Tərkibində olan C vitamini antitelin yaranmasını stimullaşdırdığından orqanizmin infeksiyaya qarşı müqavimət qabiliyyətini artırır, yaraların sağalmasını tezləşdirir. Yüksək temperatur zamanı orqanizmdə C vitamini çoxlu miqdarda parçalanır. Əsasən sedativ, antimikrob, büzücü, iltihab əleyhinə, qankəsici, sidikqovucu və mədə-bağırsaq xəstəliklərində istifadəsi məsləhət görülür. Həmçinin, nevroz, asteniya, qanazlığı, mübadilə pozğunluğu, hipertoniya və ateroskleroz xəstəliklərinin müalicəsində təyin edilir. Yaralanma və sınıqlarında, yoluxucu xəstəliklərə qarşı orqanizmin müqavimətini gücləndirir. Ekstraktlar antioksidant, antiartritik, iltihab əleyhinə, analgezik, antidiabetik, kardioprotektiv, antimikrob təsirli, immunomodulyator, mədə-qoruyucu və dərini yaxşılaşdırıcı təsir göstərir. Bir sıra itburnu əsaslı əczaçılıq əlavələri artıq bazara çıxarılıb. İtburnu meyvələri tam yetişmiş şəkildə al-qırmızı rəngdə olduqda yığılır və bu tədarük edilir.

Son illərdə virus və bakteriya xəstəlikləri çox yayılmışdır. İnsanlar artıq xəstəliklərdən qorunmaq üçün kimyəvi preparatlarla yanaşı təbii bitki ekstraktlarından da dərman məqsədi ilə istifadə edirlər. Təbii vastələr orqanizmə mənfi təsir etmir, buna görə də belə bitkilərdən istifadə etmək daha məqsədəuyğundur.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 152-160
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 152-160
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

İtburnu bitkisi böyrək və qan-damar sistemini yaxşılaşdırmağa kömək edir və qanda pis xolesterolu azaltmağa kömək edərək, orqanizmin işinə müsbət təsir göstərir. Bir sözlə, dərman vasitələri nə qədər effektiv olsa da, təbii vasitələr daha keyfiyyətli və məqsədəuyğundur.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 161-162
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 161-162
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Məsud Qəhrəmanov**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0000-0407-8014
mesudqehremanov@ndu.edu.az

# Epidemiologiyada biostatistik metodların tətbiqi

***Açar sözlər:*** *biostatistika, epidemiologiya, statistik analiz, xəstəliklərin yayılması, risk faktorları*
***Keywords:*** *biostatistics, epidemiology, statistical analysis, disease prevalence, risk factors*

Epidemiologiya əhali arasında xəstəliklərin yayılmasını və onların yaranma səbəblərini öyrənən elmi sahədir. Bu sahədə aparılan tədqiqatların dəqiqliyi və etibarlılığı böyük dərəcədə biostatistik metodların düzgün tətbiqindən asılıdır. Biostatistika epidemioloji məlumatların toplanması, emalı və təhlili üçün geniş imkanlar yaradır.Müasir dövrdə infeksion və qeyri-infeksion xəstəliklərin öyrənilməsində statistik analiz metodları xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqat metodları:

Epidemioloji tədqiqatlarda aşağıdakı biostatistik metodlardan istifadə olunur: 1. Təsviri statistika – xəstəliklərin yayılma səviyyəsinin orta göstəricilər və faizlər vasitəsilə təsviri; 2. Korrelyasiya analizi – risk faktorları ilə xəstəlik göstəriciləri arasında əlaqənin müəyyən edilməsi; 3. Reqressiya analizi – müxtəlif amillərin xəstəliyin yaranmasına təsirinin qiymətləndirilməsi; 4. Statistik hipotezlərin yoxlanılması – tədqiqat nəticələrinin etibarlılığının müəyyən edilməsi.

Biostatistikanın epidemiologiyada rolu. Biostatistik metodlar epidemioloji tədqiqatlarda aşağıdakı məsələlərin

həllinə kömək edir: -Xəstəliklərin yayılma tezliyinin müəyyən edilməsi; -Risk faktorlarının aşkar olunması; -Profilaktik tədbirlərin effektivliyinin qiymətləndirilməsi; -Səhiyyə sistemində qərarların elmi əsaslarla qəbul edilməsi; -Bu metodlar sayəsində tədqiqatçılar əhalinin sağlamlıq vəziyyəti haqqında daha obyektiv nəticələr əldə edə bilirlər. Biostatistika epidemiologiyanın inkişafında mühüm rol oynayır. Statistik analiz üsullarının tətbiqi xəstəliklərin yayılma xüsusiyyətlərini daha dəqiq müəyyən etməyə və effektiv profilaktik tədbirlərin hazırlanmasına imkan verir. Buna görə də epidemioloji tədqiqatlarda biostatistikanın tətbiqi elmi və praktik baxımdan böyük əhəmiyyətə malikdir.

*Elm və Təhsil Tədqiqatları* **Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 163-164**
*Research in Science and Education* **Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 163-164**
**https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026**

**Rəna Nəsrullayeva**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-3862-1980
nesrullayevarena26@gmail.com

# Fizikanın tədrisində ekoloji məsələlər və həll yolları üzrə biliklərin qazanılması

***Açar sözlər:*** *ekologiya, fizika tədrisi, inteqrativ yanaşma, davamlı inkişaf, ekoloji maarifləndirmə*
***Keywords:*** *ecology, physics teaching, integration, sustainable development, environmental awareness*

Müasir dövrdə ekologiya problemi bəşəriyyətin qarşısında duran ən aktual məsələlərdən biridir. İnsan fəaliyyətinin təbiətə mənfi təsiri, sənayeləşmə, enerji istehsalı və məişət tullantıları kimi faktorlar ekoloji tarazlığı pozur. Bu baxımdan gənc nəslin ekoloji biliklərə yiyələnməsi, onların təbiətə məsuliyyətli münasibət formalaşdırması təhsil sisteminin əsas vəzifələrindən biri hesab olunur.

Fizika fənni bu istiqamətdə mühüm rol oynayır. Çünki fizika təbiətin qanunlarını öyrənməklə yanaşı, enerji, maddə dövranı, istilik, elektrik və radiasiya kimi proseslərin ekoloji nəticələrini dərk etməyə imkan verir. Bu səbəbdən fizika dərslərində ekoloji məsələlərin inteqrasiyası həm fənn biliklərinin mənimsənilməsini, həm də ekoloji düşüncə tərzinin formalaşmasını təmin edir.

Fizikanın tədrisində ekoloji məsələlərin öyrədilməsi bir neçə istiqamətdə həyata keçirilə bilər:

1. Enerji mənbələri və onların ekoloji təsiri. Tədris zamanı bərpa olunan enerji mənbələrinin (günəş, külək, hidroenerji)

üstünlükləri və istilik elektrik stansiyalarının atmosferə təsiri haqqında müzakirələr aparmaqla şagirdlərdə təmiz enerji anlayışı formalaşdırıla bilər.

2. İstilik və iqlim dəyişmələri. İstilik mübadiləsi, istilik tutumu, istixana effekti və qlobal istiləşmə mövzularında real ekoloji problemlərlə əlaqə qurmaq vacibdir. Bu, fiziki hadisələrin ekosistemlərə təsirini anlamağa kömək edir.

3. Elektromaqnit şüalanması və radiasiya təhlükəsizliyi. Dərslərdə elektromaqnit dalğalarının canlılara təsiri, mobil rabitə və nüvə enerjisinin ekoloji təhlükələri izah edilməlidir. Bu, şagirdlərin texnologiyanın təhlükəsiz istifadəsinə dair biliklərini artırır.

4. Praktiki və tədqiqat yönümlü tapşırıqlar. Laboratoriya işləri zamanı enerji səmərəliliyi, işıqlandırma sistemlərinin optimallaşdırılması, tullantıların təsirinin azaldılması kimi mövzular üzrə təcrübələr aparmaq, şagirdləri elmi araşdırmaya yönləndirir.

5. Davamlı inkişaf məqsədləri ilə əlaqələndirmə. Fizika tədrisi BMT-nin "Davamlı İnkişaf Məqsədləri" (SDG) ilə uzlaşdırıldıqda, şagirdlər həm fənn, həm də qlobal vətəndaşlıq səviyyəsində məsuliyyət anlayışını mənimsəyirlər.

Tədqiqatlar göstərir ki, fizikanın tədrisində ekoloji məsələlərin inteqrativ şəkildə təqdim olunması şagirdlərin elmi və əxlaqi dünyagörüşünü genişləndirir, onların təbiətə qarşı məsuliyyətli davranışını formalaşdırır. Müəllimlər bu prosesdə innovativ üsullardan – interaktiv dərslərdən, eksperimentlərdən və layihə fəaliyyətlərindən – geniş istifadə etməlidirlər.

Bu yanaşma həm fənnin öyrənilmə səviyyəsini, həm də ekoloji mədəniyyətin inkişafını artırır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 165-167
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 165-167
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Muslimat Safikhanova**
Baku State University
Master`s student
https://orcid.org/0009-0002-4655-1687
muslimat.safixanova@mail.ru

# History of Studying the Flora and Vegetation of the Gusarchai River Basin

***Keywords:*** *Gusarchai River, systematic, geographical expeditions, foundation, diversity*
***Açar sözlər:*** *Qusarçay çayı, sistematik, coğrafi ekspedisiyalar, təməl, müxtəliflik*

Since the early 19th century, interest in studying the nature of the Caucasus, including the natural resources of the northeastern mountainous regions, has grown. This interest was supported by both the scientific community of the Russian Empire and European naturalists. Since the Gusarchai Basin was administratively part of the Guba district of the Baku province at that time, exploration of the area was conducted primarily within the Guba-Gusar zone.

The first scientific information on the region's vegetation was recorded in the reports of Russian and European travelers who participated in the Caucasus expeditions in the first half of the 19th century. Among them, the names of such renowned botanists and naturalists as K. F. Ledebour, K. A. Meyer, E. Bocharov, and A. F. Middendorf stand out. In compiling a general description of the Caucasus flora, they also used some herbarium specimens collected in the northern regions of Azerbaijan, including the Gusarchai Valley.

In the subsequent period, in the second half of the 19th century, alongside geographical, geological, and soil expeditions in the Caucasus, research aimed at establishing the initial taxonomy of vegetation expanded. At this stage, the works of researchers such as G. Radde, N. Kuznetsov, A. Grossheimer, and I. Sosnovsky were particularly significant. In the 1870s and 1880s, G. Radde defined the natural divisions of the Caucasian flora and characterized the southeastern part of the Greater Caucasus, including the Gusarchai Basin, as a transition zone between the mountain-forest and mountain-meadow zones. His research on the "Caucasian flora" is considered an important stage in the study of the areal and ecological characteristics of the region's vegetation.

At that time, botanical observations conducted in the Gusarchai River valley and adjacent foothills pursued more practical goals – studying the possibilities of growing crops and determining soil and climatic conditions. Nevertheless, these studies yielded initial data on the basin's natural vegetation, particularly on oak forest belts, mountain meadows, subalpine shrubs, and river valley plants. Information on the diversity of the Gusarchai River basin's flora was also reflected in the reports of I. Sosnovsky's field expeditions on the flora of the Caucasus (1912–1915). His research revealed the presence of endemic and relict species on the northeastern slopes of the Greater Caucasus, extending to the Gusarchai River, demonstrating the region's unique palaeobotanical nature.

Scientific studies of the flora and vegetation of the Gusarchai River basin demonstrate that the diversity of topography, climatic factors, soil and geological conditions, and plant communities formed as a result of anthropogenic impact necessitate a comprehensive study of the region's ecological and biogeographic features.

Therefore, the Gusarchai River basin is an important research area, reflecting the richness of Azerbaijan's flora and the characteristics of the transition zones between ecosystems.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 168-172
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 168-172
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

**Fatimə Kərimova**
Odlar Yurdu Universiteti
https://orcid.org/0009-0002-3862-1980
kerimovaf411@gmail.com

# Qlobal istiləşmə şəraitində regional yağıntıların paylanmasının dəyişməsi

***Açar sözlər:*** *yağıntı, iqlim, qlobal, ekstremal, monitorinq, temperatur, bulud*
***Keywords:*** *precipitation, climate, global, extreme events, monitoring, temperature, cloud*

Qlobal istiləşməyə qarşı mübarizə üçün, Paris İqlim Sazişinə (2015) uyğun olaraq, orta qlobal hava temperaturu sənaye öncəsi dövrlərlə müqayisədə +2ºC-dən çox yüksəlməməlidir, ən arzuolunan artım isə +1.5 ºC olmalıdır. Son zamanlar bulud örtüyünün iqlim dəyişikliyi prosesinə təsiri də üzə çıxıb ki, bu da "örtük" effekti yaradır. Eyni zamanda, bir tərəfdən bulud örtüyü yer səthindən istiliyin buraxılmasının qarşısını alır, digər tərəfdən isə atmosferin yuxarı hissəsində günəş işığının əks olunmasına töhfə verir.

Qlobal istiləşmə prosesinə təsir edən amillərdən biri bulud örtüyüdür; bu örtük həm Yer kürəsini kosmik soyuqdan qoruyan bir örtük, həm də istilik dalğalarının reflektoru kimi fəaliyyət göstərə bilər. Bu baxımdan, bu işin məqsədi müxtəlif səviyyəli buludların istixana effektinin yaranmasına təsirinin xüsusiyyətlərini təhlil etməkdir.

Tədqiqatın məqsədi bulud örtüyünün Günəşin və Yer səthinin termal şüalanması ilə qarşılıqlı təsir qabiliyyətidir. Tədqiqatın mövzusu bulud örtüyündəki dəyişikliklərin xüsusiyyətləri və onun qlobal istiləşmə prosesinə təsir edən

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 168-172
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 168-172
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

davranışıdır. Tədqiqatın məqsədi bulud örtüyünün və onun dəyişikliklərinin ətraf mühitin iqlim göstəricilərinə təsirini təhlil etməkdir.

Dünyada orta hava temperaturunun 1 dərəcə artması su buxarının elastikliyinin doyma qabiliyyətini 6.5% artırır. 2000-ci ilin martından 2010-cu ilin fevralına qədər bulud örtüyünün hündürlüyü 30–40 metr aşağı düşüb, bu isə adi hündürlüyün təxminən 1%-i deməkdir. Həm də, daha yüksəkliyə olan buludlar daha çox aşağı düşdü. Bunun səbəbləri hələ izah olunmayıb. Bəlkə də buludların azalması, havanın yer səthinə yaxın daha intensiv istiləşməsi səbəbindən sıxlığının azalması ilə bağlıdır. Qütblərdə buzun intensiv əriməsi səbəbindən Yer kütləsinin yenidən paylanmağı baş verir. Bundan əlavə, buxarlanma və rütubət yığılması, vulkanik fəaliyyət və daha bir çox şey buna təsir edir.

Beləliklə, Yerin inersiya momenti artdıqca, onun bucaq sürəti azalır. İnersiya momenti azaldıqca, bucaq sürəti artır. Təbii ki, iqlim parametrlərindəki dəyişikliklər Yerin bulud örtüyündə, kütləsində və yayılma hündürlüyündəki dəyişikliklərə təsir edir, bu da Yer kürəsinin bütövlükdə inersiya momentinin dəyişməsinə səbəb olur.

Cədvəl 1 də buludların təxmin edilən hündürlüyü (3) formuluna əsasən hesablanmış dəyərləri göstərir.

**Cədvəl 1.**

<table>
<tr><td colspan="2">Cazibə qüvvəsinin sürətləndirilməsi, $m/s^2$</td><td>9,78</td><td>9,79</td><td>9,8</td><td>9,81</td><td>9,82</td></tr>
<tr><td rowspan="2">Hündürlük, m, günün uzunluğu üçün</td><td>24 s</td><td>1147</td><td>1148</td><td>1149</td><td>1150</td><td>1151</td></tr>
<tr><td>24 s+1 s</td><td>1147</td><td>1148</td><td>1149</td><td>1150</td><td>1151</td></tr>
<tr><td>Hündürlüklərdə orta faiz fərqi</td><td colspan="6">0,0025 %</td></tr>
</table>

Əldə olunan məlumatların təhlili göstərir ki, Yer kürəsinin fırlanma sürətinin mövcud artımı 1% buludların enməsi üçün kifayət etmir. Bulud örtüyünün enməsi səbəblərindən biri, qlobal iqlimin planetə təsiri ilə əlaqədar orta illik temperaturun artması nəticəsində hava sıxlığının azalması ola bilər. Məlumdur ki, 20-ci əsrin ikinci yarısı həm mülayim enlikli qitələrdə, həm də Şimal yarımkürəsində ümumi bulud örtüyünün artması ilə xarakterizə olunurdu. 2010-cu illərin əvvəllərindən etibarən, bulud örtüyünün artması yalnız okean səthində müşahidə olunur, çünki quru üzərində buludların əmələ gəlməsi azalıb. İqlim dəyişikliyinin əsas göstəricisi səthə yaxın hava temperaturudur, çünki iqlim sisteminin bütün parametrləri ona cavab verir. Nisbi rütubət birbaşa hava temperaturundan asılı olduğundan, əsas amillərdən biri buludluluqdur.

2008-dən 2020-ə qədər ümumi buludluluğun formalaşması sabit mənfi tendensiyaya səbəb oldu. Diqqət çəkən fərqləndirici xüsusiyyət aşağı təbəqə buludlarının əmələ gəlməsinin orta və yuxarı təbəqələrin buludlarının əmələ gəlməsi ilə müqayisədə demək olar ki, güzgü asılılığıdır.

Temperaturun artması atmosferdə su buxarının miqdarının artmasına səbəb olur. Bu prosesdə buz və qar örtüyünün əriməsi mühüm rol oynayır və açıq səthlərin sahəsinin artmasına səbəb olur. Buna görə də, kriosferin qlobal iqlim dəyişikliyində buludluluqdan sonra ikinci yerdə olduğu iddia edilir. Adətən, yüksək hündürlükdə yerləşən buludlar Yer üzündə istiliyin qorunmasına əsas təsir göstərir: buludun qalınlığı (şaquli ölçüsü) Yer səthindən daha yaxşı əks etdirmə qabiliyyəti təmin edir (buludun qalınlığı nə qədər böyük olsa, əks etdirmə qabiliyyəti bir o qədər yüksəkdir). İstixana effekti yüksək yerdə yerləşən nazik buludlar tərəfindən yaxşı yaradılır, bu buludlar günəş işığını daha yaxşı ötürür və spektrin infraqırmızı hissəsinin sızmasının qarşısını alır.

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 168-172
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 168-172
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

İnfraqırmızı şüalanmanı yaxşı əks etdirən alçaq qalın buludlar sayəsində yer səthi soyuyur. Bu, Yer kürəsinin həddindən artıq qızmasının qarşısını alan çətir effekti yaradır. Tropiklərdə aşağı buludların sayının azalacağı gözlənildiyi üçün qlobal istiləşmənin təsirinin temperatur artdıqca artacağı düşünülür. Atmosfer isindikdə yüksək buludların böyük yüksəlişi səbəbindən onların istiləşmə təsiri arta bilər. Buludlar bitki örtüyünə və su hövzələrinə yağış suyu verir, qışda isə istiliyin kosmosa qaçmasının qarşısını alır. Müasir tədqiqatlar bulud örtüyünün sürətlə azaldığını və nəticədə isti dövrün artdığını göstərib. Bu, 20 il əvvəl müşahidə olunan maksimum konsentrasiyası olan aerosol hissəciklərinin sayının əhəmiyyətli dərəcədə azalması ilə bağlıdır. Bu, biomüxtəlifliyin azalmasına təsir edir.

Atmosferin rütubət miqdarı və effektiv buxarlanma üzrə illərarası gedişə əsasən, atmosferdəki su buxarının miqdarı 1.6 mm artmışdır (Şəkil 1).




**Şəkil 1.** Dünya Okeanının səthində atmosferin effektiv buxarlanma və rütubət tərkibinin illərarası gedişatı

Nəticədə, atmosferdə su buxarının yığılması ildən-ilə azalır (Şəkil 1, xətt 1) və atmosferin rütubət miqdarı (Şəkil 1, xətt 2) artır. Bu məntiqlidir, çünki artan hava temperaturu ona daha çox rütubət udmağa imkan verir. Beləliklə, istixana effektinə əsas təsir su buxarı (50%) və bulud örtüyü (25%) tərəfindən həyata keçirilir. $CO_2$ və digər qazların payı cəmi 25%-dir. Buludların

*Elm və Təhsil Tədqiqatları* Xüsusi Buraxılış, Respublika Elmi Konfransı / 30 aprel 2026 / 168-172
*Research in Science and Education* Special Edition, Republican Scientific Conference / 30 april 2026 / 168-172
https://doi.org/10.36719/2789-6919/XB/RK/ET/2026

aşağı çökməsi prosesi mürəkkəbdir və klassik mexanika qanunlarına həmişə tam tabe olmur. Burada şaquli yüksək sürətli hava axınları və istilik nəticəsində sıxlığının azalması əhəmiyyətli təsir göstərə bilər. Orta hava temperaturunun yüksəlməsi onun hidroskopluğunun artmasına səbəb olur.

# İÇİNDƏKİLƏR
# CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Xəyyam İsmayılzadə**
ABŞ və ÇXR münasibətlərində nüvə məsələsinə baxış ........... 9
**Faidə İsayeva**
Elmi terminoloji leksikanın inkişafında dialekt sözlərin rolu . 15
**Bənövşə Əsgərova**
Mətn daxilində leksik və qrammatik vasitələrin rolu ............. 19
**Kifayət Hüseynova, Aidə Novruzova,**
**Nazirə Qənbərova**
Musiqinin bədii gimnastika performansına təsiri..................... 24
**Fidan Məmmədova**
Türk dünyasında ortaq dil və termin problemləri .................... 30
**Şərəf Əhmədova**
Müasir təhsilin inkişafı perspektivlərində layihələr üsulunun mahiyyəti və məzmunu.......................................................... 34
**Gülnarə Qədirova**
İbtidai siniflərdə təlimdə innovativ metodlar: müasir pedaqoji yanaşmalar və onların təhsilin keyfiyyətinə təsiri .... 39
**Pərvanə Muradi**
Ağıllı məkanlar: süni intellektlə formalaşan dinamik dizayn sistemləri..................................................................... 42
**Nərmin Qocayeva**
Qloballaşma şəraitində onomastik dəyişikliklər və aktual problemlər.................................................................................. 48

**Niyaz İsmayılov**
Kamançada ifaçılıq sənətinin formalaşması ............................ 52
**Könül Həsənova**
“Tiflis əyalətinin müfəssəl dəftəri”ndə türk mənşəli toponimlərin tarixi-linqvistik təhlili ......................................... 56
**Aygün Babayeva**
Xəzərin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı Azərbaycanın diplomatik fəaliyyəti ........................................ 59
**Rəqibə Paşayeva**
Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası: beynəlxalq təcrübə və yerli tətbiq ........................................... 62
**Fidan Nağızadə**
Peşəkar kompetensiyaların formalaşması faktorları ................ 66
**Bahar Rzayeva**
Aztəminatlı ailələrə yönəlmiş sosial xidmət sistemində monitorinq və qiymətləndirmə mexanizmlərinin rolu və təkmilləşdirilməsi yolları .......................................................... 69
**Şəbnəm Həşimli**
Sintaktik əlaqələrin tədrisi və morfologiya ilə qarşılıqlı əlaqəsi ................................................................... 72
**Çinarə Quliyeva**
Biologiyanın tədrisində estetik tərbiyənin şəxsiyyətin formalaşmasına təsiri ............................................................. 76
**Nübar Qubadlı**
Sintaktik əlaqələrin nitq bacarıqlarının formalaşmasında rolu ............................................................. 79
**Rüqəyya Ağayeva**
Heydər Əliyevin irsində tərbiyə məsələləri ............................. 83
**Nəzrin Əlizadə**
Yuxarı sinif şagirdlərinin sosiallaşmasında ətraf mühitin rolu ....................................................................... 86
**Çingiz Məmmədzadə**
Rusiya-Ukrayna arasında ziddiyyətlərdə NATO amili ........... 89

**Rəfiqə İmanzadə**
Publisistik və elmi-kütləvi mətnlərin tədrisi............................ 93
**Arzu Rəşidli**
Azərbaycan dilində kommunikativ tipli frazeoloji
ifadələrin funksional xüsusiyyətləri......................................... 96
**Fidan Məmmədova**
Gənclərdə emosional stressin idarə olunması və
tənzimlənmə mexanizmləri .................................................... 102
**Əfruz Cəfərzadə**
Azərbaycan və ingilis dillərində inkar
cümlələrin xüsusiyyətləri........................................................ 108
**Ayişə Zeynallı**
Yeniyetmələrdə davranış çətinliklərinin
psixoloji mexanizmləri ........................................................... 111
**Lamiyə Əsədova**
Orta məktəbdə Nizami Gəncəvinin “Xəmsə”sinin
tədrisində mənəvi-estetik və vətəndaşlıq dəyərlərinin
formalaşdırılması.................................................................... 115
**Pərvanə Mehtiyeva**
Ümumtəhsil məktəblərinin yuxarı siniflərində
triqonometriyanın tədrisinin metodik prinsipləri, yanaşmaları
və aspektləri........................................................................... 120
**Sunay Cəfərova**
Fortepiano konsert janrının nəzəri və tarixi əsasları.............. 125
**Adilə Məmmədli**
Müəllimin pedaqoji fəaliyyətində davranış modellərinin
psixoloji mexanizmləri ........................................................... 129
**Günay Vəliyeva**
Alman dilində feil kateqoriyalarının kommunikativ yanaşma
kontekstində tədrisinin xüsusiyyətləri ................................... 133

# TƏBİƏT ELMLƏRİ
# NATURAL SCIENCES

**Aybəniz Hüseynova**
*Rosaceae* fəsiləsinin qabıq elementləri .................................. 139
**Elnurə Səfərova, Günel Məmmədova**
Müasir biologiyada psixoloji gərginlik pozuntularının öyrənilməsi interaktiv layihə kimi ........................................ 146
**Eldar Əliyev, Elvin Eyyubov**
Lənkəran-Astara bölgəsində yayılmış Qafqaz xurması (Diospyros lotus) və Hirkan armudu (Pyrus hyrcana) növlərinin bioekoloji xüsusiyyətləri və yayılma arealı.......... 149
**Rəsmiyyə Kərimova, Nailə Məmmədova, Ulduz Əlizadə**
İtburnu (Rosa canina L.) bitkisi və onun əhəmiyyəti............ 152
**Məsud Qəhrəmanov**
Epidemiologiyada biostatistik metodların tətbiqi .................. 161
**Rəna Nəsrullayeva**
Fizikanın tədrisində ekoloji məsələlər və həll yolları üzrə biliklərin qazanılması............................................................. 163
**Muslimat Safikhanova**
History of Studying the Flora and Vegetation of the Gusarchai River Basin ........................................................... 165
**Fatimə Kərimova**
Qlobal istiləşmə şəraitində regional yağıntıların paylanmasının dəyişməsi....................................................... 168

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Yasamal r-nu, A.M.Şərifzadə 19
Tel.: +994 99 806 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.rek@aem.az

**Editorial address**
AZ1073, Baku city,
Yasamal dist., A.M.Sharifzade 19
Phone: +994 99 806 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.rek@aem.az

İmzalandı: 23.04.2026
Onlayn çap: 30.04.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 11, 25 ç.v.
Sifariş: 166

aem.az saytında çap edilmişdir.
Ünvan: Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 12 510 63 99
e-mail:zengezurda1868@mail.ru

Signed: 23.04.2026
Online publication: 30.04.2026
Format: 60/84, 1/16
Stock issuance: 11, 25 p.s.
Order: 166

It has been published on aem.az
Address: Baku city, Yasamal dist.,
A.M.Sharifzade 19
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru